# Mündəricat


| | | |
|---|---|---|
| **1.** | **İcraçı xülasə** | **4** |
| 1.1 | Erkən nikahların yayılması və onun səbəbləri | 5 |
| 1.2 | Erkən nikahların mənfi nəticələri | 6 |
| 1.3 | Tövsiyələr | 8 |
| **2.** | **Ümumi məlumat** | **11** |
| **3.** | **Tədqiqatın əhatə dairəsi və məzmunu** | **15** |
| 3.1 | Tədqiqatın məqsədi və məramları | 15 |
| 3.2 | Metodologiya | 16 |
| **4.** | **Qanunvericilik** | **18** |
| 4.1 | Beynəlxalq standartlar | 19 |
| 4.2. | Milli qanunvericilik | 20 |
| 4.2.1 | Ərin/arvadın minimum yaşı | 20 |
| 4.2.2 | Valideynlərin hüquqları və vəzifələri | 21 |
| 4.2.3 | Təhsil hüququ | 22 |
| 4.2.4 | Məktəblər və müəllimlər | 22 |
| 4.2.5 | Hüquq-mühafizə orqanları | 23 |
| 4.2.6 | Yeniyetmə ilə cinsi əlaqə - cinayət kimi | 24 |
| 4.2.7 | Tənha və yeniyetmə ana | 24 |
| 4.2.8 | Yetkinlik yaşına çatmayanların işləri və hüquqlarının müdafiəsi üzrə komissiya | 25 |
| **5.** | **Erkən nikahların artan meylləri və onlara qarşı ictimai münasibət** | **26** |
| 5.1 | Üstünlük təşkil edən meyllər | 27 |
| 5.2 | Erkən nikahlara olan münasibət | 30 |
| **6.** | **Nikah barədə kim qərar verir?** | **33** |
| 6.1 | Erkən nikahlar qızların öz istəkləri kimi | 33 |
| 6.2 | Gəlinin qaçırılması | 34 |
| 6.3 | Valideynlərin təzyiqi ilə ərə getmə | 37 |
| **7.** | **Erkən nikahların səbəbləri və motivləri** | **42** |
| 7.1 | Ənənə və mədəniyyət | 43 |
| 7.1.1. | Ərə getmək qadının alın yazısıdır | 43 |
| 7.1.2 | Ailənin namusu və qızın bakirəliyi | 44 |
| 7.1.3 | Mentalitet | 45 |
| 7.1.4 | Din | 45 |
| 7.1.5 | Qadının ailədə tabeçiliyi | 46 |
| 7.2 | Sosial və iqtisadi səbəblər | 47 |
| 7.2.1 | Yoxsulluq | 47 |
| 7.2.2 | Qızın maliyyə gələcəyinin qeydinə qalınması | 48 |
| 7.2.3 | Demoqrafik problemlər | 50 |
| 7.2.4 | "Böyük yuvanın" vacibliyi | 51 |
| **8.** | **Erkən nikahların nəticələri** | **52** |
| 8.1 | Ana və gələcək uşağın sağlamlığının zədələnməsi | 53 |
| 8.2 | Azalmış təhsil alma hüququ | 55 |
| 8.3 | Kişilərin dominantlıq etdiyi ailə modeli və evlilik nəzarəti | 58 |
| 8.4 | Təcrid, ailədə zorakılıq, atılma | 62 |
| **9.** | **Azərbaycan erkən nikahları: yekun və tövsiyələr** | **67** |
| 9.1 | Tövsiyələr – qanunvericilik | 68 |
| 9.2 | Tövsiyələr – institutlar | 70 |
| 8.3 | Tövsiyələr– məlumatlılığın artırılması | 74 |

**Əlavələr**

| | | |
|---|---|---|
| Əlavə 1 | Fokus qruplar barədə məlumatlar | 76 |
| Əlavə 2 | Əsas məlumat verən şəxslərlə yarımstrukturlaşdırılmış müsahibələr barədə məlumatlar | 83 |
| Əlavə 3 | Ətraflı müsahibələr barədə məlumatlar | 90 |
| Əlavə 4 | Xüsusi terminlər və anlayışlar | 100 |
| Əlavə 5 | Qrafiklərin Siyahısı | 101 |

# Ön söz



**Mark Herevard**
UNICEF-in Ölkə üzrə
Nüməyəndəsi, Azərbaycan

18 yaşına çatmamış, nikaha daxil olmaq bir çox qız və oğlan üçün reallıqdır. Erkən nikahla bağlı sanksiyalara baxmayaraq, bu zərərverici praktika dünyanın bir çox ölkəsində, eləcə də Azərbaycanda davam etməkdədir.

Evlilik müddəti sevindirici bir zamandır, lakin erkən nikahlar bunu qeyd etmək üçün heç bir əsas vermir: hər dəfə belə hal baş verəndə bu, uşağın, əksər hallarda qızın, uşaqlıq illərinin qurtarması və onun fundamental hüquqlarının pozulması anlamına gəlir.

Evliliyə 'azad və tam' razılıq vermə hüququ Ümumdünya İnsan Hüquqları Bəyannaməsində tanınır – burada həmçinin tanınır ki, nikaha daxil olmaq istəyən tərəflərdən biri öz ömrünün qalan hissəsi ilə bağlı məlumatlandırılmış qərar vermək üçün tam yetkin olmadığı halda, bu cür razılıq 'azad və tam' ola bilməz. Həmçinin, Uşaq Hüquqları Konvensiyası (UHK) uşağın öz fikrini azad ifadə etmək, sui-istifadənin bütün formalarından və zərərverici ənənəvi praktikalardan müdafiə olunmaq hüquqlarını qoruyur, beləliklə, erkən nikahın yasaq olduğunu təsbit edir. UHK aydın şəkildə müəyyən edir ki, yaşı 18-dən az olan hər bir şəxs uşaqdır və nikaha daxil olanlardan birinin yaşı 18-dən az olarsa, bu cür nikah erkən nikah sayılır.  Bu, erkən nikahın spesifik nümunəsidir.

Bu hesabat Azərbaycanda erkən nikahlar ilə bağlı vəziyyətin keyfiyyət baxımından qiymətləndirilməsini  təqdim edir.  Burada göstərilir ki, bu məfhum sadəcə olaraq baş vermir, o, hətta Azərbaycanın bəzi bölgələrində getdikcə genişlənir. Qiymətləndirmə həmçinin bu zərərverici praktikanın ən əsas səbəblərini araşdırır, eləcə də erkən nikahların gənclərin bütün həyatı üçün hansı ciddi nəticələrə gətirib çıxardığını göstərir. Qiymətləndirmədə göstərilir ki, uşağı erkən nikahla üz-üzə qoyan bir çox amil birgə işləyir. Yoxsulluq, qızın bakirəliyinin qorunması və qeyri-sabit sosial zamanda sabitliyin təmin edilməsi istəyi qızın (əksər hallarda) hələ uşaq olarkən nikaha daxil olması təhlükəsilə üzləşməsini müəyyən edən əsas amillər kimi görülür.

18 yaşlarına qədəm qoymamış evləndirilən bir çox qız və oğlanın susdurulmuş səsləri onların uşaqlıq çağlarından məhrum edilməsi və ayrıseçkiliyə məruz qalmasını göstərir. Erkən nikahların qurbanları ciddi sağlamlıq problemlərinə, o cümlədən gənc ana və onun körpəsinin ölümünə, təhsildən və şəxsi inkişafdan məhrum edilməyə məruz qalırlar. Bu isə, onların sosial və iş baxımından məhdudlaşmasına və davamlı şəkildə yoxsulluq, ailə zorakılığı və ayrıseçkilik dövriyyəsinə düşmələrinə gətirib çıxarır.

Təkcə BMT-nin Minilliyin İnkişaf Məqsədlərinə nail olmaq deyil, eləcə də daha vacibi, bir çox Azərbaycanlı gəncin sağlamlığını və həyatını xilas etmək, onların parlaq və sağlam gələcəyini təmin etmək istəyiriksə, erkən nikah praktikasının kökünün kəsilməsi həyati əhəmiyyət kəsb edir. Lakin bunun üçün birmənalı siyasi öhdəlik, strateji liderlik və ictimai maraqların müdafiəsi tələb olunur.  Bu yolla qızları təhlükəyə atan bir çox ənənəvi praktikaların və davranışların qarşısı alına bilər.

Ailələrin və daha geniş şəkildə cəmiyyətin bu məsələyə münasibətini dəyişmək, uşaqlar üçün tədris və təlim imkanlarını artırmaq, ailələrə və uşaqlara müvafiq dəstək təklif etmək və bütün uşaqların – oğlan və qızların – iqtisadi yük deyil, cəmiyyətin dəyərli üzvləri kimi qəbul edilmələrini təmin etmək üçün biz iş görməliyik.

Bizim niyyətimiz vəziyyətlə bağlı məlumatlılığı artırmaq və zəruri olduğu halda Azərbaycan uşaqlarının həyatlarını dəyişmək üçün müsbət addımlar atılmasını stimullaşdırmaqdır.



Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin sədri
**Hicran Hüseynova**

Uşaqların hüquq və azadlıqlarının qorunması, onların keyfiyyətli təhsil və yüksək standartlara cavab verən tibbi xidmətlərlə təmin edilməsi, onların hərtərəfli qayğı ilə əhatə olunması, yüksək mənəvi və sosial mühitdə böyüməsi üçün zəruri şəraitin yaradılması, şəxsiyyət və layiqli vətəndaş kimi formalaşması Azərbaycan Respublikasının dövlət siyasətinin prioritet istiqamətlərini təşkil edir. Əsası Ulu Öndər Heydər Əliyev tərəfindən qoyulmuş və bu gün ölkə Prezidenti cənab İlham Əliyev tərəfindən davam etdirilən sosial yönümlü siyasət ölkədə sağlam ailə institutunun formalaşmasına təkan verir.

Qadın və uşaqların problemlərini daim diqqət mərkəzində saxlayan Ölkənin Birinci Xanımı, Heydər Əliyev Fondunun Prezidenti, millət vəkili Mehriban xanım Əliyeva Azərbaycan Respublikası Qadınlarının III Qurultayında qeyd etmişdir ki, ölkənin ən böyük sərvəti onun intellektual potensialıdır. Bununla yanaşı, bəzi ailələr qızlarına hətta orta məktəbi belə bitirməyə icazə vermirlər. Bu, Mehriban xanımın fikrincə, dözülməz bir faktdır. Həqiqətən də hər bir sivil ölkədə ayrı-seçkilik olmadan bütün uşaqların təhsil, mədəniyyət və səhiyyə xidmətlərinin yaxşılaşması, hər kəs üçün bərabər imkanlar yaranması zəruridir. Bəzi ailələrdə uşağın məhz qız olduğuna görə təhsildən kənarlaşdırılaraq erkən nikaha daxil edilməsi xüsusilə təəssüf hissi doğurur. Bunun mənfi fiziki, sosial və iqtisadi təsirlərinin danılmaz həqiqət olduğuna baxmayaraq, bəzi valideynlər öz uşaqlarını belə nikahlar qurmağa məcbur etməkdə böyük səhv edirlər. Qız övladlarını erkən nikaha vadar etməklə valideynlər problemlərini həll etdiklərini düşündükləri halda, əksinə daha böyük problemlərlə qarşılaşırlar. Təhsili olmayan, özünü müdafiə etməyi bacarmayan, öz hüquqlarını bilməyən qız daha mürəkkəb vəziyyətə düşür. O, şəxsiyyət kimi inkişaf etmə imkanlarını tam itirir, cəmiyyətdən təcrid olunur. UNICEF-in Azərbaycandakı Nümayəndəliyi ilə Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin erkən nikahlarla bağlı araşdırma birgə layihəsində məqsəd də məhz bu çətin vəziyyətə düşən qız övladlarımızı qorumaq üçün təsir mexanizmlərini işləyib hazırlamaqdır. Beynəlxalq normativ sənədlərə əsasən, uşaqların nikaha daxil olması insan hüquqlarının pozulması hesab olunur. Ümumdünya İnsan Hüquqları Bəyannaməsinin 16-cı maddəsində deyilir: "Yetkinlik yaşına çatmış kişilər və qadınlar heç bir irqi, milli və ya dini məhdudiyyət olmadan bir-biri ilə evlənib ailə qurmaq hüququna malikdirlər. Lakin nikah yalnız "hər iki tərəfin azad və tam razılığı əsasında" baş verə bilər. Əgər nikaha daxil olmaq istəyən bir tərəf yetkinlik yaşına çatmamışsa və gələcək həyat yoldaşı haqqında qərar qəbul etmək imkanında deyilsə, bu cür razılıq "tam və azad" ola bilməz. Bu problemlə bağlı hüquqi bazanın möhkəmləndirilməsi məqsədilə Qadınlara qarşı Ayrı-seçkiliyin Bütün Formalarının Ləğv Edilməsi üzrə Konvensiyaya uyğun olaraq, Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsi Milli Məclisə qızlar üçün nikaha daxil olma yaşının 18 yaş təyin olunması təklifini vermişdir. Bundan əlavə, Komitə tərəfindən hazırlanaraq Milli Məclisə təqdim edilən "Məişət zorakılığının qarşısının alınması haqqında Qanun layihəsində də xüsusi qadın sığınacaqlarının yaradılması nəzərdə tutulur. Belə mürəkkəb vəziyyətə düşən gənc qızlarımız ciddi sosial-psixoloji dəstəyə ehtiyac duyurlar. Bu mərkəzlərdə peşəkar sosial, psixoloji yardım göstərilməli, qadınların sosial reabilitasiyası həyata keçirilməli, onlara yeni peşə vərdişləri qazanmaq imkanları yaradılmalıdır. Bir sıra ölkələrdə, o cümlədən qonşu Türkiyədə bu sahə üzrə toplanmış zəngin təcrübə də diqqətlə öyrənilir.

Erkən nikah problemlərini tək dövlət strukturları həll edə bilməz. Cəmiyyət özü səylərini birləşdirərək stereotiplərin aradan qaldırılması uğrunda mübarizə aparmağa, belə hallara laqeyd qalmamağa, proseslərə nəzarət edərək tənzimləməyə alışmalıdır. Çünki qızlarımızın yalnız yetkinlik yaşına çatdıqdan sonra ailə qurması onun ailəsinin daha mükəmməl olması deməkdir. Unutmayaq ki, Azərbaycan qadınları öz təhsilləri, cəmiyyətdə və ailədə tutduqları mövqeləri, nümunəvi ana olmaları ilə həmişə fərqlənmişlər.

# 1. İCRAÇI XÜLASƏ

Erkən nikah yaşı 18-dən az olan uşaq və ya yeniyetmələrin nikaha daxil olmasıdır. 18 yaş uşaqların müdafiesi baxımından 1989-cu il tarixli Uşaq Hüquqları Konvensiyasında müəyyən edilmiş son yaş həddidir.[1]

Beynəlxalq standartlara görə, uşaqların nikaha daxil olması insan hüquqlarının pozulması hesab olunur. Ümumdünya İnsan Hüquqları Bəyannaməsinin 16-cı maddəsində deyilir: "Yetkinlik yaşına çatmış kişilər və qadınlar, heç bir irqi, milli və ya dini məhdudiyyət olmadan bir-birilə evlənmək və ailə qurmaq hüququna malikdirlər". Lakin nikah yalnız "hər iki tərəfin azad və tam razılığı əsasında" baş verə bilər. Əgər nikaha daxil olmaq istəyən bir tərəf yetkinlik yaşında deyilsə və gələcək həyat yoldaşı haqqında məlumatlı qərar qəbul etmək iqtidarında deyilsə, bu cür razılıq "tam və azad" ola bilməz.

Azərbaycanın 1992-ci ildə ratifikasiya etdiyi BMT-nin Qadınlara Qarşı Ayrı-seçkiliyin Bütün Formalarının Aradan Qaldırılması üzrə Konvensiyada (CEDAW) deyilir ki, uşağın nişanlanması və evlənməsi qanuni qüvvəyə malik deyildir və evlənmək üçün yaş həddini müəyyən etmək məqsədilə bütün zəruri addımlar, o cümlədən qanunverici tədbirlər görülməlidir. Qadınlara Qarşı Ayrı-seçkiliyin Bütün Formalarının Aradan Qaldırılması üzrə Komitə tövsiyə edir ki, 18 yaş şəxsin tam yetkin olması yaşıdır və bu zaman həyat üçün çox vacib olan evlilik kimi məsələdə şəxs məlumatlı qərar çıxarmaq iqtidarında olur.

Azərbaycanda sovet hakimiyyəti qurulmamışdan əvvəl erkən nikahlar kifayət qədər adi praktika idi. Sonradan sovet hakimiyyəti illərində onların sayı kəskin şəkildə azaldı. Son illərdə Azərbaycanda erkən nikahların artması ilə bağlı ekspertlər və sosial işçilər həyəcan təbili çalmağa başlamışlar. Ekspertlərin fikirlərinin doğru və ya yanlış olmasını təsdiq etmək üçün konkret məlumatlar azlıq təşkil edirdi. Buna görə, Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsi UNICEF-in Azərbaycandakı Nümayəndəliyinin dəstəyi və Sosial Araşdırmalar üzrə Beynəlxalq Mərkəzlə əməkdaşlıq şəraitində Azərbaycanda erkən nikahlar, o cümlədən onların səbəb və nəticələrinə dair vəziyyətin təhlilini həyata keçirdi.

Araşdırma bir neçə regionda aparılmış və müxtəlif metodologiyalardan istifadə edilmişdir. Araşdırmada aşağıdakı üsullar daxil olan keyfiyyət yanaşmasından istifadə edilmişdir: fokus qrupları, əsas məlumat daşıyıcıları ilə yarımstrukturlaşdırılmış müsahibələr və erkən nikaha daxil olmuş insanlar və ya onların valideynləri ilə dərin məzmunlu müsahibələr.[2] Fokus qruplarında olan şəxslərin, xüsusi məlumat mənbəyi olan şəxslərin, eləcə də erkən nikaha daxil olmuş şəxslərin və onların valideynlərinin ümumi sayı 488 idi. Yuxarıda qeyd edilmiş tədqiqat növləri Azərbaycanın 4 bölgəsini əhatə etdi: Bakı-Abşeron, Lənkəran, Quba və Ağstafa. Bölgələr özlərinin müxtəlif sosial-etnik tərkibinə, fərqli iqtisadi vəziyyətinə, əhalisinin ənənəvilik və dinilik baxımından fərqliliyinə görə seçilmişdi.

1 Uşaq Hüquqları Konvensiyası, Maddə 1: Tətbiq edilə biləcək qanuna görə yetkinliyin daha gənc yaşdan başlaması nəzərdə tutulmamışdırsa, yaşı 18-dən az olan insan uşaq hesab edilir.
2 Tətbiq edilən metodologiyaların təfsiri üçün Əlavə 4-ə baxın – Terminlər və anlayışlar.

# 1.1 Erkən nikahların yayılması və onun səbəbləri

Fokus qruplarında müəyyən edildi ki, bölgələr üzrə erkən nikahların ən böyük sayı Lənkəranda və Abşeronda, sonra isə Qubadadır. Ağstafa bu siyahının sonuncusudur. Həqiqi məlumatları toplamaq çətindir, belə ki, bəzi nikahlar **kəbin** əsasında qurulmuşdur, onları yerli mollalar kəsmiş və rəsmi olaraq qeydiyyatdan keçməmişlər. Baxmayaraq ki, dövlətlə məscid arasında əldə olunmuş razılaşmaya əsasən mollalar **kəbini** kəsməmişdən əvvəl bəylə gəlindən rəsmi nikah şəhadətnaməsini və ya yaşlarını təsdiq edən sənədləri tələb etməlidirlər, adətən dini nikah mərasimində nişanlanan şəxslərin yaşlarının sənədləşdirilməsi həyata keçirilmir.

Bu cür hallarda tədqiqat zamanı müsahibələrdən məlum olmuşdur ki, nikah qızların istəkləri olmadan və ya valideynlərin təzyiqi nəticəsində həyata keçirilmişdir. Qeyd etmək lazımdır ki, valideynlərin qızlarının yeniyetmə yaşlarında ərə getmə istəklərinə nadir hallarda qarşı çıxırlar. Valideynlərin istəklərinə qarşı olaraq nikahların bağlanması halları azlıq təşkil edir. Adətən, valideynlər qızlarının qərarlarını dəstəkləyirlər və qızın erkən ərə getməsini onun taleyi və ya qisməti kimi hesab edirlər. Buna baxmayaraq, araşdırılmış halların böyük əksəriyyətində yeniyetmə qızın nikaha daxil olması barədə qərarı onun valideynləri və ya yaxın qohumları verir.

Müəyyən edilmişdir ki, Azərbaycan cəmiyyətində erkən nikahların yayılmasına təkan verən amillər, baxmayaraq ki, onlar müxtəlif mənşəlidirlər və fərqli əhəmiyyətə malikdirlər, bir-birilə sıx əlaqəli və bir-birindən qaynaqlanırlar. Bu amillər iki qrupa bölünə bilər: mədəni-psixoloji və sosial-iqtisadi.

Birinci qrup amillər ailə institutu və gender məsələlərinə aşağıdakı ənənəvi yanaşmalardan ibarətdir: qadının evliliyinin mütləqliyi, qızın bakirəliyinin və ailənin şərəfinin vacibliyi. İnsanlar yanlış başa düşülən dini normalara və güclü patriarxal ailə modelinə əməl etməyə məcburdurlar. Evlilik və uşaq doğurma yenidən qadının öz həyatında əldə edə biləcəyi ən vacib nailiyyətlər kimi qəbul edilir.

İnsanları öz övladlarını mümkün qədər erkən evləndirməyə və ya hətta buna can atmağa məcbur edən amilləri öyrənərkən, tam və kompleks sosial və iqtisadi səbəblər ortaya çıxmışdır. Ölkədə hal-hazırda baş verən iqtisadi və sosial keçid prosesləri, eləcə də Ermənistanla olan müharibə və Çeçenistandan qaçqınların ölkəyə gəlməsi bu səbəblər arasında göstərilə bilər. Erkən nikah vasitəsilə insanlar öz yoxsulluqlarına son qoymaq və ya daha yaxşı iqtisadi və sosial status əldə etməyə çalışırlar. İqtisadi qeyri-müəyyənlik, qohumbazlıq və **hörmət** (ənənəvi rüşvət sistemi) insanları yaxın qohumlarında və keçmişə xas olan sosial normalarda dəstək aramağa vadar edir. Erkən nikahlar, xüsusən də qızların ərə verilməsi sabitliyin göstəricisi və hətta ənənəvi olaraq "böyük yuva" kimi şərti adlandı-

rılan ailənin rifahı kimi hesab edilir. Hal-hazırda, evlilik istəyi yeni evlənənləri "böyük yuvanın" imkanları hesabına sosial zəmanətlərlə təmin etmək və onların həyatlarının yeni tikilmiş binalarda ev almaqdan tutmuş ali təhsil almağa və ya layiqli iş tapmağa qədər müxtəlif tərəflərini daha da asanlaşdırmaq imkanları ilə müəyyən olunur.

Toplanmış məlumatlar həm ailə üzvləri, həm də ümumiyyətlə cəmiyyət arasında erkən nikahların məqbul sayılmasının yüksək səviyyəsini aşkar etmişdir. Bu cür nikahları sorğu edilmiş qohumlar və tanışların çox az bir hissəsi pisləmiş, onların yarısından çoxu isə bu hadisələri alqışlamış, dörddə birindən çoxu isə bitərəf qalmışdır. Cəmiyyətin bu cür nikahları dəstəkləməsinin yüksək səviyyəsi onu göstərir ki, bu məfhumun ağır nəticələri haqqında məlumatlılıq nə dərəcədə aşağıdır. Bu həm də onu göstərir ki, dərin kök salmış ənənəvi inanca görə evlilik sosial inkişafın sinonimidir.

# 1.2 Erkən nikahların mənfi nəticələri

Bu təcrübənin qəbul edilməsinə baxmayaraq, respondentlərin böyük əksəriyyəti erkən nikahların yeniyetmə cütlüklərə, ailə institutuna və bütövlükdə cəmiyyətə olan müxtəlif mənfi təsirlərini qeyd etmişdir. Bu nikahların yayılması körpə və ana ölümü hallarının, boşanma hallarının sayını artırır və qadınların təhsil imkanlarını azaldır.

Uşaq dünyaya gətirmə Azərbaycan cəmiyyətində qadınların rolunun ayrılmaz hissəsidir və ailələr bununla bağlı olaraq yeni evlənmişlərə ciddi təsir göstərir. Erkən hamiləlik və uşaq doğma ölüm, uşaq düşməsi, doğuş zamanı ağırlaşmalar, körpənin doğularkən az çəkili olması və körpənin sağqalma ehtimalını azaldan təhlükədir. Baxmayaraq ki, erkən hamiləlik və doğuşun təhlükələri və mənfi nəticələri haqqında kifayət qədər statistik məlumatlar vardır, Azərbaycan cəmiyyətində çoxlu sayda stereotiplər mövcuddur və onlara görə yeniyetmələrin uşaq doğmaları sadəcə dəstəklənmir, hətta cinsi yetkinlik və yeniyetmə dövrü daha yaşlı dövrə nisbətən uşaq doğmaq üçün daha əlverişli vaxt hesab olunur.

Yeniyetmələr arasında doğuşların sayı, eləcə də körpələr və 18 yaşından gənc analar arasında ölüm halları üzrə statistik məlumatlar azdır. 2001-2006-cı illərdə ümumi körpə ölümü hallarının sayı hər 1000 diri doğuşa 43 uşaq idi, 2007-ci ildə ana ölümü səviyyəsi isə hər 1000000 diri doğuşa 35,5 nəfər təşkil etmişdir. Bundan əlavə – iqtisadi artıma və ölkədəki siyasi sabitliyə baxmayaraq, son bir neçə il ərzində ölüm göstəricilərində artım

meylləri müşahidə olunur. Yeniyetmələr arasında uşaq doğma hallarının sayının artması Azərbaycanda uşaq və ana ölümü səviyyəsinin artmasının səbələrindən biri ola bilər.[3]

Təhsilin aşağı səviyyəsi yeniyetmə evli qadının statusunu bir qədər də azaldır. Erkən nikah hallarının əksəriyyətində müəyyən edilmişdir ki, qadınlar ərə getdikdən sonra təhsillərini davam etdirmirlər. Bir çox hallarda, gənc evli qadınlar orta məktəbdə belə təhsillərini dayandırmalı olurdular. Eyni zamanda, yeniyetmə qızlarla evlənmiş oğlanların 70%-dən çoxu orta məktəb təhsilini bitirmişdir. Cütlük arasında böyük təhsil fərqi tərəfdaşlıq və bərabərlik əsasında qurulmuş münasibətlər üçün əlverişli deyildir. Bundan əlavə, Azərbaycanda keçirilmiş Demoqrafik və Sağlamlıq Sorğusu göstərir ki, daha yüksək təhsili olan anaların uşaqları daha az təhsili olan anaların uşaqlarına nisbətən məktəbdə daha yaxşı oxuyurlar.

Gənc qadınlar ailələrində tabeçi statusunda olurlar və ərləri tərəfindən ağır nəzarət formalarına məruz qalırlar. 2006-cı ildə Azərbaycanda keçirilmiş Demoqrafik və Sağlamlıq Sorğusuna görə, 15-19 yaşlı qadınların 89.4%-i bildirmişdir ki, onların ərləri həmişə onların harada olduqlarını öyrənməyə israr edirlər. Evli gənc qadınların yalnız az bir hissəsi (4.2%) heç bir evlilik nəzarəti formalarına məruz qalmır.

Evliliklərində problemlər yaşayan yeniyetmə qadınlar ciddi tənhalıq və təcridolunmadan əziyyət çəkirlər. Qızlar ənənəvi ailə sisteminə uyğun olaraq qohumlarından təcrid olunurlar, ərlərinin ailələrinə qatılırlar (və evlərində qalırlar). Buna görə, əgər qadının evlilik zamanı problemi olursa, və ya ailə daxilində zorakılığa məruz qalırsa, ona dəstək verən demək olar ki, heç kəs olmur. Ailə zorakılığının həqiqi yayılma səviyyəsini müəyyən etmək çətindir. Qadınlar ailə zorakılığı hallarının üstünü açmağı istəməyə bilərlər. Bu cür həssas məlumatın toplanması sorğu edilənlə soğru aparan arasında etibarlı mühitin yaranmasını tələb edir, bu isə heç də həmişə mümkün olmur.[4] Problemi əhatə edən gizlilik səviyyəsini başa düşmək üçün onu demək kifayətdir ki, fiziki və ya cinsi zorakılığa məruz qaldıqlarını etiraf edən qadınların 42%-i bu haqda heç vaxt heç kimə məlumat verməmiş və 57%-i heç vaxt kömək axtarmamışdır.[5]

---

3 AZDSS məlumatlarına görə, Azərbaycanda, ilk ad günü qeyd edilənədək körpənin ölüm ehtimalı, yaşı 20-dən az olan anaların uşaqları üçün yaşı 20-29 olan anaların uşaqlarına nisbətən daha yüksəkdir .
AzDSS 2006 Dövlət Statistika Komitəsi tərəfindən USAID və UNICEF-in dəstəyi ilə aparılmışdır. MEASURE DSS layihəsi çərçivəsində sorğuya texniki yardım göstərilmişdir.

4 Demoqrafik və Sağlamlıq Sorğusu, Azərbaycan 2006, səh. 211.

5 Yenə orada.

Erkən nikah məfhumunun dünya üzrə araşdırmaları göstərir ki, bu cür birliklər qeyri-sabit olur, qadının atılması və ya boşanma ilə nəticələnir, bunun isə təkcə qadın üçün deyil, bu birlik nəticəsində doğulmuş və sonradan tənha analar tərəfindən böyüdülən uşaqlar üçün də ciddi mənfi nəticələri olur. Lakin Azərbaycanda bu meyl araşdırmadan aydın görünməmişdi. Boşanma ilə nəticələnən erkən nikahların həqiqi sayını müəyyən etmək çətindir, çünki bu birliklərin çoxu yeniyetmə qızların rəsmi nikaha daxil olmadıqları səbəbindən qeydiyyata alınmamışdır.

Boşanma və ya atılma çox vaxt qadının yoxsul duruma düşməsinə səbəb olur, çünki qadın adətən uşaqların tərbiyəsi və himayəsilə özü məşğul olmalı olur. Gənc yaşında ərə getdiyi üçün onun təhsili və gəlir əldə etmə bacarıqları azdır. Evlilik rəsmi olaraq qeydiyyata alınmamış olanda vəziyyət hətta daha da çətinləşir və cütlük ayrıldıqdan sonra ana uşaqları və özü üçün aliment tələb edə bilmir.

# 1.3 Tövsiyələr

Müvafiq əks tədbirlərin planlaşdırılması və həyata keçirilməsi üçün erkən nikahların sayının artmasının səbəblərini dəqiq başa düşmək tələb olunur. Hesabatda üç qrup tövsiyə təklif olunur:

1. dəyişdirilməli olan mövcud qanunverici aktlar;
2. bu məfhumla mübarizə aparmaq üçün səylərini artırmalı olan dövlət qurumlarının rolu;
3. erkən nikahların mənfi nəticələrini geniş şəkildə göstərən, eləcə də bərabər tərəfdaşların birliyi kimi evlilik institutunu tərənnüm edən məlumatlılığın artırılması kampaniyalarına olan ehtiyac.

Mövcud Azərbaycan qanunvericiliyinə gəldikdə, nikah üçün minimum yaş həddi, eləcə də icbari təhsil yaşının maksimum yaş həddində ciddi dəyişikliklər tələb olunur.

Nikaha daxil olanların minimum yaş həddi ilə bağlı Azərbaycanın tətbiq edilə bilən qanunu nəzərdə tutur ki, qadınların yaşı ən az 17, kişilərin isə ən azı 18 olmalıdır. Bundan əlavə, xüsusi hallarda və nikaha daxil olan tərəflər və onların valideynlərinin razılığı ilə bu yaş İcra Hakimiyyəti tərəfindən qızlar və oğlanlar üçün müvafiq olaraq 16 və 17 yaşadək azaldıla bilər. Erkən nikahların sayı artmaqdadır, bir çoxları inanırlar ki, son göstərilən yaş həddləri (16 və 17 yaş) rəsmi yaş həddləridir (yəni onlar üçün əsaslandırma tələb olunmur).

Azərbaycan qanunvericiliyində (Ailə Məcəllesində) nəzərdə tutulmuş nikah üçün minimum yaş həddinə yenidən baxılmalıdır və onlar həm kişi, həm də qadınlar üçün 18 yaşadək artırılmalıdır. Həmçinin bu yaş həddini azaltmaq səlahiyyəti rayon İcra Hakimiyyətlərindən alınıb aidiyyatı olan məhkəməyə verilməlidir. Nəhayət, nikah yaşının azaldılması səbəblərinin

siyahısı məhdudlaşdırılmalıdır, həmçinin digər səbəblərlə yanaşı, mövcud Azərbaycan qanunvericiliyində qeyd olunmuş işgüzar səfərlərin uzadılması və ya silahlı qüvvələrdə xidmətə çağırılması kimi səbəblər yetkinlik yaşına çatmazdan əvvəl nikaha daxil olmaq üçün əsaslı səbəb kimi hesab edilməməlidir.

Hansı yaşa qədər təhsilin icbari olmasını tənzimləyən Azərbaycan qanununda uyğunsuzluq var.  Azərbaycan Respublikasının Konstitusiyasına görə, 11 illik təhsil icbaridir, halbuki Təhsil Qanunu uşaq qarşısında 9 il təhsil almaq öhdəliyi qoyur. Sonuncu yaş həddi digər ölkələrlə müqayisədə müstəsna şəkildə aşağıdır[6]

Azərbaycan qanunvericiləri bu məsələ ilə bağlı Avropa standartlarını nəzərdən keçirməlidirlər. İcbari təhsilin bitirilməsi üçün aşağı yaş həddinin müəyyən edilməsi erkən nikahlar üçün əlverişli şərait yaradır. Təhsilin "başa çatdırılması" valideynlərdə belə yanlış təəssürat yaradır ki, onların uşağı artıq böyümüşdür və evlilik üçün hazırdır. Qanunvericilikdə dəyişikliklər müəllimlərin uşaqların məktəbdən kənarda qalması hallarını fəal monitorinq etməsilə müşayiət olunmalıdır.

2006-cı il Demoqrafik və Sağlamlıq Sorğusu evli qadınların yalnız 21%-nin işlədiyini göstərir.[7] Evlilik yaşı və icbari təhsil ilə bağlı qanunvericilikdə dəyişikliklərə ciddi ehtiyacla yanaşı gender baxımından balanslı iş bazarının müvafiq hüquqi müddəalarının olmasına da ciddi ehtiyac vardır. İşə qəbuletmə prosesində müsbət ayrıseçkilik tətbiq edilməlidir ki, yaşayış üçün gəlir əldə etmək istəyən qadınlar bunu edə bilsinlər. Gənc qadınlar üçün imkanlar genişləndirilməlidir ki, evlilik həyata davam etmək üçün yeganə vasitə olmasın. Təhsil, məktəbdənkənar fəaliyyətlər və peşə hazırlığı gənc qızlar arasında təşviq edilməlidir. Məktəblər və bələdiyyə orqanları bu məsələ ilə bağlı daha fəal mövqe tutmalıdırlar.

Mövcud qanunvericiliyə görə, erkən nikahlar cəza verilməsi baxımından diqqətdən kənarda qalmış bir sahədir. Bu məsələ mövcud mülki və ümumi hüquqla qadağan olunur, lakin eyni zamanda ənənəvi və dini qanun və praktikalar tərəfindən geniş şəkildə pozulur. Beləliklə, hüquq-mühafizə orqanları, təhsil və sosial institutlar bu təcrübə ilə mübarizədə daha fəal rol oynamalıdırlar.

Hüquq-mühafizə orqanları qeydiyyatsız nikah hallarının araşdırılmasında barışmaz və ardıcıl mövqe tutmalı, tərəflərdən birinin yaşının nikaha razılıq vermə üçün minimum yaş həddindən (16) aşağı olması halında baş verən erkən nikahlara görə isə yetkinlik yaşına çatanları bu yaşa çatmayanlarla cinsi əlaqəyə girdiklərinə görə cinayət məsuliyyətinə cəlb etməlidirlər. Bundan əlavə, Azərbaycan Respublikasının "Polis haqqında qanunu" "yetkinlik

6 Məsələn, Danimarkada, İtaliyada, İsveçrədə təhsil 7-16 yaşlı, Polşada isə 7-18 yaşlı uşaqlar üçün icbaridir

7 Demoqrafik və Sağlamlıq Sorğusu, Azərbaycan 2006, səh. 191.

yaşına çatmayan şəxslərin hüquqlarının pozulmasının qarşısının alınması" ilə bağlı bir sıra tədbir görmələrini polis işçilərindən tələb edir. Hüquq-mühafizə orqanlarının həm Cinayət Məcəllesinin, həm də Polis haqqında qanunun tətbiq olunmasında daha ciddi mövqe tutması vacibdir.

Bələdiyyə qurumları da yerlərdə erkən nikahların mənfi nəticələri və qeyri-qanuniliyi ilə bağlı məlumatlandırma kampaniyaları başlaya bilərdilər.

Dövlət həm regional, həm də rayon səviyyələrində erkən nikahın və məcburi qız oğurlanması hallarının qurbanlarına yardım göstərmək üçün psixo-sosial xidmətlər strukturunu yaratmalıdır. Bundan əlavə, oğurlanma və ailə zorakılığının qurbanları üçün sığınacaqlar regional səviyyədə təşkil olunmalıdır.

Erkən nikahların mənfi nəticələri barədə məlumatlılığın aşağı səviyyədə olması, eləcə də cütlüyün yaşından asılı olmayaraq evliliyin dəyəri barədə yanlış rəy və 20 yaşlarında olan qadınlarla müqayisədə yeniyetmə qızların daha məhsuldar olması barədə səhv fikir erkən nikah hallarının sayının artmasına səbəb olan amillərdir. Buna görə, erkən nikahların ana sağlamlığına və digər sahələrə mənfi təsiri barədə bilgiləri artırmaq üçün intensiv məlumatlılıq kampaniyası tələb olunur.

Bundan əlavə, erkən nikah problemi patriarxal ailə modeli və kişilərin üstünlük təşkil etdiyi cəmiyyətdən irəli gəlir, beləliklə, gender bərabərliyi və ailədə tərəfdaşlıq haqqında geniş ictimai kampaniya və debatların keçirilməsinə ehtiyac vardır.

Erkən nikah dağıdıcı sosial məfhumdur, lakin o, Azərbaycan cəmiyyətindən müvəffəqiyyətlə çıxarılıb atıla bilər. Bunun üçün qanunvericilikdə dəyişikliklərdən başlayaraq dövlət tərəfindən qadınların təşviq edilməsi fəaliyyətlərinədək geniş çeşidli əks tədbirlər həyata keçirilməlidir.

Əvvəllər ölkədəki insanlar savadsız idi və qızlar elmə və təhsilə maraq göstərmirdi. Onlar həyat yoldaşı və sevən ana olmağı arzulayırdılar. (FFG. 40-55, Lənkəran)

# 2. ÜMUMİ MƏLUMAT

Ailə və nikah institutu mürəkkəb sosial məfhumdur. Bu institutun forması iqtisadi, siyasi, mədəni və sosial amillər, eləcə də etnik mənsubiyyət, dini normalar, doqmalar, nəzəriyyələr və innovasiyaların qarşılıqlı təsirinin nəticəsində ortaya çıxır.

Müəyyən edilmiş ailə formalarında əsas fərqlilik ənənəvi **ailə** sistemi və müasir **fərdi** sistem arasında idi. Ənənəvi sistem geniş ailələr, birgə yaşayan ev təsərrüfatları, çoxsaylı cütləşmələr, **kişilərin rəhbərlik etdiyi** ailələrdə səlahiyyətdən avtoritar surətdə istifadə edilməsi, erkən yaşda evlilik, böyüklər tərəfindən tapılan ər və ya arvad, yeni evlənənlərin böyük ailəyə daxil edilməsi və qadın üçün ailədə heç bir aparıcı rolun və ya kimliyin olmaması ilə səciyyələnir. Sənayeləşmiş ölkələrdə norma olan **fərdi** sistemdə vəziyyət bunun tam əksidir. **Ailə** modelində məhsuldarlıq qızların cinsi yetkinliyə çatmasından dərhal sonra ərə verilməsilə maksimal həddə çatdırılır. Ailə iqtisadi istehsal vahididir və ailə üzvləri üçün yeganə və ya əsas rifah, sosial status və təhlükəsizlik mənbəyidir.[8] Azərbaycanda, **ailə** modeli keçmişdə üstünlük təşkil edirdi və indi də xeyli dərəcədə dominant bir modeldir.

> Ailə və nikah institutu, eləcə də bu kimi digər sosial məfhumların keçmişdə olan kökləri vardır. Azərbaycan tarixində üç dövr müasir ailənin formasına xüsusi təsir göstərmişdir. Onlar sovet dövründən əvvəlki müddət, sovet dövrü və post-sovet dövrü kimi müəyyən edilə bilər. Onlardan hər biri gender normalarına və qadınların cəmiyyətdəki statusuna fəal şəkildə yenidən baxılması ilə səciyyələnir.

Sovet dövründən əvvəlki dövrdə Azərbaycan qızları adətən 14-18 yaşlarında ərə gedirdilər, oğlanlar isə 18-22 yaşlarında evlənirdilər.[9] Kasıblar arasında 10-12 yaşlı qızların yaşlı kişilərə ərə verilməsi adi hal idi.[10] O zaman iki növ evlilik üstünlük təşkil edirdi: təşkil olunmuş nikahlar və qızların qaçırılması. Təşkil olunmuş nikahlar bəylə gəlinin ailələrini təmsil edən şəxslər arasında razılaşmaya əsaslanırdı. Bu zaman nə bəyin, nə də gəlinin bu nikahla bağlı rəy bildirmək hüququ yox idi və onlar sonda sadəcə bu nikaha razılıqlarını verirdilər. Qızın oğurlanmasına gəldikdə isə, iki növ qaçırılma var idi. Birinci, "istəyərək qoşulub qaçma" ənənəsi idi və bu zaman qızın razılığı olurdu, ikinci isə qızın (və bəzən onun valideynlərinin) razılığı olmadan həyata keçirilirdi. Evləndikdən sonra, kişi öz arvadı və uşaqları üzərində tam səlahiyyəti ələ keçirir, amma adətən yeni gəlin olmuş qadının gündəlik həyatını tənzimləyən və yönləndirən onun qayınanası və bəyin ailəsindən olan növbəti ən yaşlı qadın olurdu.[11]

---

8 Erkən nikah. Uşaq ər/arvad, UNICEF Innocenti Tədqiqat Mərkəzi, (2001), səh. 6.
9 Havilov H.A. (1991), Azərbaycanın etnoqrafiyası. Baku: Elm.
10 Həyat F., Azərbaycan qadınları keçid dövründə. Sovet və post-sovet Azərbaycan dövründə qadınlar, (2005), səh. 83.
11 Yenə orada, səh. 82.

Çoxlu sayda mənfi cəhətləri və qüsurlarına baxmayaraq, sovet dövründə müəyyən formada emansipasiya sistemi təbliğ edilir, qadınların təhsil alması vurğulanır və Azərbaycan qadınlarının sosial fəallığı təşviq edilirdi. 70 ildən çox sovet dövründə, müsəlman cəmiyyətində qadının statusunu müəyyən edən bir çox amil, məsələn **çarşab,** çoxarvadlılıq və erkən nikahlar demək olar ki, aradan qalxmışdı. Kütləvi savadsızlıq və qadınların siyasi və iqtisadi həyatdan təcrid olunması artıq tarixdə qaldı. Sovet dövrü ərzində Azərbaycan qadınlarının bilik səviyyəsi və sosial fəallığı xeyli dərəcədə artdı. Onu demək kifayətdir ki, 1999-cu ildə Azərbaycanda 15-24 yaşlı qadınlar arasında savadlılıq səviyyəsi 99.9% təşkil etdiyi halda, Türkiyədə bu səviyyə 70% təşkil edirdi.[12]

Azərbaycan cəmiyyətinin sovet dövründə yuxarıda qeyd edilmiş müasirləşməsi ənənəvi ailə institutunun müəyyən liberallaşmasına səbəb oldu. Buna baxmayaraq, bu liberallaşma **ailə** növ ailə modelinin patriarxal xüsusiyyətlərini tam əvəzləyə bilmədi. Razılaşdırılmış nikahlar, erkən nikahlar, geniş ailələrin mövcudluğu, qadının özünü ailəyə tam həsr etməsi, uşaq doğma və uşağa baxma sovet dövrünün müasir meyllərinə baxmayaraq, demək olar ki, eyni olaraq qaldı.

Bundan əlavə, sovet dövründə qadınların emansipasiyası bir qədər süni xarakter daşıyırdı. Baxmayaraq ki, Azərbaycanda sovetləşmə prosesi Sovet İttifaqının digər yerlərində olduğu kimi qadınların cəmiyyətin iqtisadi və siyasi sahəyə geniş şəkildə inteqrasiyasına səbəb oldu, peşəkar qadınlardan da ciddi cinsi standartlara əməl edilməsi gözlənilirdi (**namus** anlayışı) və onlardan ağır ev vəzifələrini yerinə yetirmək tələb olunurdu. "Evdə Azərbaycanlı, cəmiyyətdə Sovet" ifadəsi Azərbaycan qadınlarının həyatını tənzimləyən ziddiyyətli ideologiyanı və onların evdə və iş yerində ikili yük daşımalarını göstərir.[13]

Qadınların emansipasiyası olan sovet sistemi fərdlərin hərəkətliliyini artırdı, ailə modelini dezinteqrasiya etdi və "sosial yetimlər" adlı acı bir irs buraxdı. Azərbaycanda müxtəlif uşaq müəssisələrində təqribən 14,500 uşaq, o cümlədən əlilliyi olan uşaqlar yaşayır. Bu uşaqların bir hissəsi valideynsizdir. Onların çoxunun ən az bir sağ valideyni vardır, lakin müxtəlif səbəblər üzündən onların ailələri onlara baxa bilmir.

Bu uşaqlar Uşaq Hüquqları Konvensiyasında nəzərdə tutulmuş ailə mühitində yaşamaq hüququndan məhrumdurlar və çox vaxt etinasızlıq, sui-istifadə və istismara məruz qalırlar. 1995-ci ildən bu müəssisələrdəki uşaqların sayının daim artması müşahidə olunur (+30%)[14]. Ölkənin ÜDM-un 1995-96-cı illərdən başlayaraq artmasını görə bilərik və ona görə uşaqların dövlət himayəsinə verilməsinin tək səbəbi iqtisadi durum hesab edilməməlidir. Ailələrin dezinteqrasiyası və sovet dövründən qalan kollektiv rifah sisteminin

12 BMT-nin İnkişaf Proqramı (1994). Ümumdünya insan inkişafı hesabatı, Nyu York: Oksford Universitetinin Mətbuatı, səh.144.

13 Həyat F., Azərbaycan qadınları keçid dövründə, Sitat., səh. 4 və sonrakı.

14 Təfsilatlı təhlil üçün baxın QHT "İnkişaf üçün Təşəbbüs", Uşaqların hüquqları və əks-institusionlaşdırma islahatlarının mümkünlüyü. Azərbaycanda uşaq müəssisələrində olan uşaqlar üzrə tədqiqat, UNICEF təşkilatının dəstəyi ilə Azərbaycan Respublikasının Gənclik, İdman və Turizm Nazirliyinin himayəsi altında həyata keçirilmişdir, Bakı, 2005, səh. 11 və sonrakı.

dağılması bu meylə səbəb olan əsas amillərdən biri kimi hesab edilməlidir.[15]

Təqribən 1 milyon qaçqın və məcburi köçkün (onların 54.9%-i qadın idi), çoxlu sayda dul qadın və reproduktiv yaşlı kişilərin xeyli sayda həlak olması Ermənistanla olan müharibənin faciəvi nəticələri oldu. Post-sovet iqtisadi keçid dövrü kişilərin xarici ölkələrə miqrasiyasına səbəb oldu.

> Beləliklə, Azərbaycanın ən müasir tarixi geniş, patriarxal ailə dəyərlərini sosial və iqtisadi yardımı təmin edən model ilə əvəz etməyə vadar etdi.

Üzvlərinə sosial, iqtisadi və fiziki dəstək verən və "böyük yuva" tipli ailə konsepsiyası SSRİ-nin dağılmasından sonrakı ağır dövrdə daha da gücləndi.

Köhnə ənənələrə dönmə evə çörək gətirən kimi, kişilərin aparıcı rolunu gücləndirdi, qadınların məhdudlaşdırılmış vəzifəsini isə bir qədər də məhdudlaşdıraraq onların rolunu yalnız ev işlərinin görülməsinə endirdi. Erkən nikahların keçmişin qalığı olmasına baxmayaraq, bu günlərdə adi hal olmağa başlaması narahatlıq doğurur.[16] Araşdırma və müsahibələr **beşikdə göbəkkəsmə** kimi qədim ənənələrin mövcudluğunu aşkarladı.

Erkən nikahların İslamdan qaynaqlandığını eşitmək o qədər də qeyri-adi hal deyildir. Lakin populyar yanlış fikrə əks olaraq, Şəriət Qanunu nikah üçün dəqiq yaş müəyyən etmir. Bu qanun əqli yetkinlik və ya sağlam mühakimə standartını nəzərdə tutur. Cinsi yetkinlik və fiziki qüvvəyə çatmaqla digər şəxslə həyat qurma bacarığı arasında aydın fərq mövcuddur. Qurana görə, evlilikdə həm ər, həm də arvad maariflənmiş və kamil olmalıdır.[17]

Azərbaycan cəmiyyətinin son onilliklər ərzində çətinliklərlə üzləşdiyi aydındır və bu çətinliklərin öhdəsindən gəlmək üçün mexanizmlərin yaradılması təqdirəlayiqdir. Lakin bütün bu

---

15 Roccella C., Azərbaycanda uşaqları müdafiə sistemi. Vəziyyətin təhlili. Mövcud resurslar, göndəriş mexanizmləri, uşaq hüquqları perspektivindən görünən boşluqlar və risklər, UNICEF 2005, səh. 21

16 Qadınlar zorakılığa qarşı, Exo qezeti.: www.echo-az.com (4 noyabr, 2006); Day.Az. URL: http://www.day.az/news/society/111330.html (13 mart, 2008); Day.Az. URL: http://www.day.az/news/society/111565.html (March 15, 2008); Azyaşlı qızlar məktəbdən məcburi çıxarılır. – English translation. URL: http://www.ucnoqta.com/new/2008/04/04/anons=10 (April 4, 2008).

17 Bax Quranın ayələri: "Yetimləri nikah yaşına çatıncaya qədər sınayın. Əgər ağla dolduqlarını (həddi-buluğa çatdıqlarını) hiss etsəniz, mallarını özlərinə qaytarın. Böyüyəcəklər (böyüyən kimi mallarına sahib olacaqlar) deyə, o malları israf edib tələm-tələsik yeməyin. Zəngin olan (qəyyum) o mala toxunmasın, kasıb isə qəbul olunmuş qayda üzrə (ehtiyacı olduğu qədər, çəkdiyi zəhmətin əvəzi miqdarında) yesin. Yetimlərin mallarını özlərinə qaytardığınız zaman yanlarında şahid tutun! Haqq-hesab çəkməyə Allah kifayət edər!"[Ən-Nisə' (Qadın); 6-cı ayə]; İslamda uşaqlar. Onlara baxılma, onların inkişafı və müdafiəsi. Əl-Əzhar Universiteti Əhalinin Araşdırılması və Öyrənilməsi üçün Beynəlxalq İslam Mərkəzi, UNICEF, 2005, səh. 9.

mexanizmlər birmənalı qəbul edilmir. Bu hesabatda dəqiq araşdırılmış erkən nikahlar bu nikaha daxil olan şəxlər, onların uşaqları, ailə institutu və bütövlükdə cəmiyyətə yalnız mənfi təsir edir. Bu səbəbdən, gələcəkdə erkən nikahların baş verməməsi üçün bu halların səbəbləri öyrənilməlidir.

‘Erkən nikah’ yaşı 18-dən az olan uşaq və ya yeniyetmələrin evlənməsidir. Bu yaş 1989-cu il Uşaq Hüquqları Konvensiyasında uşaqların müdafiəsi ilə bağlı ən yuxarı yaş həddidir.[18]

2007-ci ilin yanvarında Azərbaycan hökuməti BMT-nin Qadınlara Qarşı Ayrı-seçkiliyin Bütün Formalarının Aradan Qaldırılması üzrə Konvensiyanın (CEDAW) yerinə yetirilməsi ilə bağlı hesabat təqdim edəndə ekspertlər erkən nikahların artan sayı ilə bağlı narahatlıq ifadə etmişdilər. Təəssüf ki, onların öz rəylərini təsdiq etmələri üçün statistik və ya tədqiqat əsasları yoxdur. İndiyədək Azərbaycanda erkən nikahların sistematik öyrənilməsi üçün çox az sayda cəhdlər edilmişdir. Bu məqsədlə Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsi, BMT-nin Uşaq Fondunun (UNICEF) Azərbaycandakı Nümayəndəliyinin dəstəyi və Sosial Tədqiqatlar üzrə Beynəlxalq Mərkəzlə (ICSS) əməkdaşlıq çərçivəsində Azərbaycanda erkən nikahlar, o cümlədən onların nə üçün hələ də baş vermələrini və bəzi bölgələrdə hətta sayının artdığını öyrənmək üçün araşdırma həyata keçirdi. Bu hesabatın sonunda narahatlıq doğuran sahələr müəyyən edilmiş və tövsiyə edilən tədbirlər qeyd edilmişdir.

18 Uşaq Hüquqları Konvensiyası, Maddə 1: Tətbiq edilə biləcək qanuna görə yetkinliyin daha gənc yaşdan başlaması nəzərdə tutulmamışdırsa, yaşı 18-dən az olan insan "uşaq" hesab edilir.

# 3. TƏDQİQATIN ƏHATƏ DAİRƏSİ VƏ MƏZMUNU

## 3.1 Tədqiqatın məqsədi və məramları

Bu tədqiqatın məqsədi Azərbaycanda erkən nikahların təbiətinin və vəziyyətin təhlilini təmin etmək, eləcə də onun səbəb və nəticələrini göstərməkdir.

Xüsusi olaraq tədqiqatın məqsədləri bunlardır:

1. Hədəf bölgələrdə erkən nikahların təbiəti, yayılması, səbəbləri və nəticələri haqqında əsas anlayışı təqdim etmək.
2. Hədəf bölgələrdəki şəhər və kənd icmalarında bu baxım təcrübənin öyrənilməsi.
3. Azərbaycanda erkən nikahın təbiətinə diqqəti cəlb etmək və bu praktikadan təsirlənmiş şəxslərə öz fikirlərini paylaşmaq üçün imkan yaratmaq.
4. Bu praktikanın gender baxımından cəhədlərini göstərmək və onun yerli səviyyədə sosial münasibətlərə təsirini təhlil etmək.
5. Erkən nikahlara reaksiya vermək və onların qarşısını almaq üçün mövcud olan hazırkı yönləndirmə mexanizmlərini və müdafiə sistemlərini, eləcə də mövcud sistemlərdəki boşluqları və ya çatışmazlıqları təhlil etmək.
6. Azərbaycanda erkən nikahın qarşısının alınması və ona qarşı tədbirlərlə bağlı qanunvericilikdə, siyasətdə və təcrübədə tələb olunan təkmilləşdirmə üzrə aydın tövsiyələr vermək.

# 3.2 Metodologiya

Araşdırma zamanı regionlar üzrə və bir neçə metodologiyadan və aşağıdakı üsullar daxil olan keyfiyyət yanaşmasından istifadə edilmişdir: fokus qrupları, əsas məlumat daşıyıcıları ilə yarımstrukturlaşdırılmış müsahibələr və erkən nikahlara daxil olmuş insanlar və ya onların valideynlərilə dərin məzmunlu müsahibələr.[19]

Fokus qruplarında olan şəxslərin, xüsusi məlumat mənbəyi olan şəxslərin, eləcə də erkən nikaha daxil olmuş şəxslərin və onların valideynlərinin ümumi sayı 488 idi.

Tərtib edilmiş metodologiyaya uyğun olaraq, məlumatlar aşağıdakı üsul və prosedurlar əsasında toplanmışdır:

4 hədəf bölgəsində 40 fokus qrupu formalaşdırılmış və müsahibədən keçirilmişdi: Bakı/Abşeron, Quba, Lənkəran və Ağstafa; hər bir bölgədə 10 fokus qrupu olmuşdur. Hər bir bölgədə gender üzrə bölgü aparılmış, fokus qruplarında məlumatlar aşağıdakı yaş qruplarından toplanmışdır: 13-15 yaş; 16-17 yaş; 18-20 yaş; 21-24 yaş; 40-55 yaş. Orta hesabla, hər bir fokus qrupu 8 iştirakçıdan ibarət idi; qruplarda iştirak edənlərin ümumi sayı 320 idi. Fokus qrupu iştirakçılarının cinsi və yaşından asılı olaraq qrupda müzakirə aparmaq üçün təqribi sual və mövzulardan ibarət siyahı hazırlanmışdı (bax Əlavə 1).

Əsas məlumat mənbələrinə malik olan şəxslərlə 78 müsahibə aparılmışdır, o cümlədən: 1) yerli icra hakimiyyəti; 2) QHT fəalları; 3) sosial tədqiqatçılar (sosioloqlar, gender tədqiqatçıları, psixoloqlar); 4) məktəb müəllimləri; 5) məktəb psixoloqları; 6) hüquqşünaslar; 7) səhiyyə işçiləri; 8) müvafiq nazirliklərin rəsmiləri; 8) polis; 9) dini liderlər (anketlər və müsahibə aparılan şəxslərin siyahısı üçün Əlavə 2-ə bax).

19 Tətbiq edilmiş metodologiyaların təfsirləri üçün Əlavə 4-ə baxın – Terminlər və anlayışlar.

Dörd bölgədə erkən nikaha daxil olmuş 51 şəxslə və erkən nikaha daxil olmuş şəxslərin valideynləri ilə 39 müsahibə aparılmışdır (anketlər və müsahibə aparılan şəxslərin siyahısı üçün Əlavə 3-ə bax).

Tətbiq edilən metodologiyaya görə, tədqiqat zamanı araşdırılan problemin təbiəti üzrə keyfiyyət xarakterli məlumatlarla təmin etməyə cəhd edilirdi. Müsahibələr yalnız məhdud sayda respondentlərlə aparılmışdır. Bu, o faktla əlaqədardır ki, tədqiqat zamanı insanların müzakirə etmək istəmədikləri həssas mövzulara toxunulurdu. Məlumatı almaq və eyni zamanda dərinə getməmək çətin idi. Əldə edilmiş məlumatı bütün ölkəyə şamil etmək olmaz. Lakin məlumatlar erkən nikah probleminin mürəkkəbliyini göstərir və burada bu məfhumun qarşısının alınması üçün yolların tapılmasına cəhd edilir.

Əsas məlumatlar Azərbaycanın 4 bölgəsində toplanmışdır: Bakı-Abşeron, Lənkəran, Quba, və Ağstafa. Bu bölgələr aşağıdakı səbəblərdən seçilmişdi:

a) Bakı-Abşeron: Bakı ölkənin paytaxtıdır, ən çox sənayeləşmiş və urbanizasiyaya uğramış şəhərdir; eyni zamanda Abşeron çox ənənəvi mədəniyyətli və dindar bir bölgədir. Bundan əlavə, bölgədə qaçqınlar və məcburi köçkünlər vardır və onların rəy və fikirlərini tədqiqata daxil edilməsi zəruri idi;[20]
b) Lənkəran, ümumiyyətlə, Azərbaycanın ən "ənənəvi" bölgələrindən biri sayılır və erkən nikahın praktikada ən çox yayıldığı yer kimi tanınır;
c) Quba özünün etnik və mədəniyyət müxtəlifliyi ilə səciyyələnir;
d) Ağstafa və Azərbaycanın digər qərb bölgələri, etnik baxımdan homogendir və burada dindarlıq səviyyəsi nisbətən aşağıdır.

20 Bakı-Abşeron, bir bölgə sayılmasına baxmayaraq, əhali baxımından kifayət qədər müxtəlifdir – bir tərəfdən onun tərkibində ölkənin ən iri şəhəri vardır (bəlkə də yeganə iri şəhəri) və burada insanlar daha liberal və zəngindirlər. Digər tərəfdən bu bölgə Abşeron yarımadasının şimal hissəsini əhatə edir. Bu hissə ənənəvi mədəniyyət, dindarlıq və yoxsul qaçqın və məcburi köçkün əhalisinin mövcudluğu ilə səciyyələnir. Cəmiyyətdə olan bu kəskin fərqlər bu bölgədən toplanmış məlumatların təhlili prosesində üzə çıxdı.

# 4. QANUNVERİCİLİK

Köhnə zamanlar geri qayıdır.
Bizim nənələrimiz 12-13 yaşında ərə gedirdilər.
Bu gün tarix təkrarlanır.
(FFG. 13-15. Lənkəran)

# 4.1 Beynəlxalq standartlar

Ümumdünya İnsan Hüquqları Bəyannaməsinin (1948) 16-cı maddəsində deyilir: "Yetkinlik yaşına çatmış kişilər və qadınlar, heç bir irqi, milli və ya dini məhdudiyyət olmadan bir-birilə evlənmək və ailə qurmaq hüququna malikdirlər". Lakin nikah yalnız "hər iki tərəfin azad və tam razılığı əsasında" baş verə bilər. Əgər nikaha daxil olmaq istəyən bir tərəf yetkinlik yaşında deyilsə və həyat yoldaşı haqqında məlumatlı qərar qəbul etmək iqtidarında deyilsə, bu cür razılıq "tam və azad" ola bilməz.

BMT-nin Qadınlara Qarşı Ayrı-seçkiliyin Bütün Formalarının Aradan Qaldırılması üzrə Konvensiyasında (CEDAW, 1979) deyilir ki, uşağın nişanlanması və evlənməsi qanuni qüvvəyə malik deyildir və evlənmək üçün yaş həddini müəyyən etmək məqsədilə bütün zəruri hərəkətlər, o cümlədən qanunverici hərəkətlər müəyyən edilməlidir. Həmin Konvensiyanın icrasına nəzarəti həyata keçirən BMT-nin Komitəsi tövsiyə edir ki, 18 yaş – şəxsin tam yetkin olması yaşıdır və bu zaman həyat üçün çox vacib olan evlilik kimi məsələdə şəxs məlumatlı qərar çıxarmaq iqtidarında olur.

Həmçinin Azərbaycanın 1992-ci ildə ratifikasiya etdiyi Uşaq Hüquqları Konvensiyasında nəzərdə tutulur ki, 18 yaş insanın yetkinliyə çatdığı yaşdır. Konvensiyanın 1-ci maddəsində deyilir ki, tətbiq edilə biləcək qanuna görə yetkinliyin daha gənc yaşdan başlaması nəzərdə tutulmamışdırsa, yaşı 18-dən az olan insan "uşaq" hesab edilir. Bundan əlavə, Konvensiya tərəflərdən tələb edir ki, uşağa təsir edən bütün məsələlərdə, uşaq öz rəyini ifadə etmək iqtidarındadırsa, onun bu fikri azad şəkildə ifadə etmək hüququ təmin olunsun. Uşağın fikir və rəyinə onun yaşı və yetkinliyindən asılı olaraq lazımi diqqət yetirilməlidir.[21]

Hazırkı beynəlxalq hüquqda evlənmə yaşının tənzimlənməsinə gəldikdə isə, onu qeyd etmək müvafiq olardı ki, BMT-nin 7 noyabr 1962-ci il[22] tarixli "Nikaha Daxil Olmağa Razılıq, Minimal Nikah Yaşı və Nikahların Qeydə Alınması haqqında" Konvensiyası Azərbaycan Respublikası tərəfindən 1996-cı il 31 may tarixində ratifikasiya olunmuşdur. Konvensiyada deyilir ki, Konvensiyaya imza atmış ölkələr öz ərazilərində erkən nikah hallarının qarşısını almalı və bu müddəaların pozulmasına qarşı tədbirlər görməlidirlər. Konvensiyanın 3-cü maddəsi təsdiq edir ki, nikahların bağlanması rəsmi orqan tərəfindən müvafiq qeydiyyat aparmaqla həyata keçiriləcək. Həmçinin Konvensiyada hələ 1954-cü il 17 dekabr tarixində BMT Baş Məclisi tərəfindən qəbul olunan Qətnamədə qeyd edilir ki, bəzi ölkələrin ailə və nikah ənənələri, təcrübəsi və adətləri İnsan Hüquqları Bəyannaməsi ilə ziddiyyət təşkil edir. Bu sənəddə vurğulanır ki, üzv ölkələr bu təcrübəyə son qoymaq üçün əllərindən gələni etməlidirlər.

21 Uşaq Hüquqları Konvensiyası, Maddə 12.

22 Konvensiyanın tam mətnini bu ünvandan tapa bilərsiniz: http://www2.ohchr.org/english/law/convention.htm

# 4.2 Milli qanunvericilik

Sorğu məlumatlarını kontekstə daxil etmək üçün tədqiqat zamanı erkən nikahlar və yeniyetmələrin müdafiəsi məsələsinin Azərbaycan qanunvericiliyində necə əks olunması öyrənildi.

## 4.2.1 Ərin/arvadın minimum yaşı

Azərbaycanın qanunvericiliyinə görə, yalnız rəsmi şəkildə bağlanmış nikahlar qanuni sayılır. Yaxın qohumlar, himayəçilər arasında nikahlara, eləcə də nikah bağlayan tərəflərdən biri artıq evli və ya ruhi xəstə olduğu halda nikaha icazə verilmir. Rəsmi nikahın bağlanması üçün iki əsas şərt vardır: nikah könüllü olmalı və nikah tərəflərinin yaşı qanunvericilikdə icazə verilmiş həddə olmalıdır. Azərbaycan Respublikası Ailə Məcəlləsinin 10-cu maddəsinə əsasən kişilər üçün nikah yaşı 18, qadınlar üçün isə 17-dir. Ailə Məcəlləsi tələb edir ki, bütün nikahlar rəsmi ərizə verilməsindən 1 ay sonra bağlanmalıdır.

Lakin Azərbaycan Respublikası Ailə Məcəlləsinin 10.2-ci maddəsində deyilir ki, "qanuni səbəblərə əsasən müvafiq icra hakimiyyəti orqanı evlənmək niyyətində olan, lakin nikah yaşına çatmayanların xahişi ilə nikah yaşı həddini maksimum 1 il azalda bilər". Eyni səbəblərə görə, ərizənin verilməsindən sonra keçməli olan məcburi 1 ay müddəti də qısaldıla bilər. Nikah hətta ərizənin verildiyi gün belə bağlana bilər.

Nikah yaşının və/və ya ərizənin verilməsi ilə nikah arasında olan müddətin azaldılmasına əsas verən qanuni səbəblər Azərbaycan Repsublikası Nazirlər Kabinetinin Vətəndaş Vəziyyətlərinin Qeydiyyatı İdarəsinin 31 oktyabr 2003-cü il tarixli 145 saylı qaydalarında göstərilmişdir. Bu prosedurların 3.9-cu maddəsində deyilir ki, uzunmüddətli işgüzar səfərlər, daimi yaşayış üçün getmə, ümumi uşaqlar, nikaha daxil olan qadının hamiləliyi, nikaha daxil olmaq istəyənlərin və ya onların qohumlarının ciddi xəstəliyi bu cür səbəblərdəndir. Bu səbəblər sübut edilməlidir (təminat, sağlamlıq arayışı, doğum şəhadətnaməsi və s.).

Qızlara 16 yaşında ərə getməyə imkan verən Ailə Məcəlləsi Azərbaycanın uşaq hüquqlarına sadiq olan qanunvericiliyi ilə ziddiyyət təşkil edir. "Uşaqların Hüquqları haqqında" Azərbaycan Respublikasının 19 may 1998-ci il tarixli qanununun 1-ci maddəsində bunlar deyilir: "Bu Qanunda müəyyən edildiyi kimi uşaqların hüquqları və vəzifələri yaşı 18-dən az olan şəxslərə tətbiq edilir". Digər sözlə, qanuni yaşı 18-dən az olanları uşaq hesab edir. Halbuki Ailə Məcəllesində nikah yaşı 17 kimi müəyyən edilmişdir və istisna hallarda bu hədd 16 yaşadək endirilə bilər. Ailə Məcəlləsinin özündə belə hüquqi ziddiyyətlər vardır – burada bir tərəfdən 18 yaşından aşağı yaş nikah yaşı kimi qəbul edilir, digər tərəfdən isə 49.1 maddəsində yaşı 18-dən az olan şəxslər uşaq hesab edilir.

### 4.2.2 Valideynlərin hüquq və vəzifələri

Tədqiqat açıq şəkildə göstərdi ki, valideynlərin erkən nikah probleminin yaranmasında və yayılmasında rolu danılmazdır. Valideynlərin qanunvericilikdəki hüquq və vəzifələrinə gəldikdə, Azərbaycan Respublikası Ailə Məcəlləsinin 60.1-ci maddəsi nəzərdə tutur ki, valideynlərin hüquqları uşaqların maraqları ilə münaqişədə ola bilməz. Həmçinin Məcəllənin 60.2-ci maddəsində göstərilir ki, öz hüquqlarından istifadə edərək valideynlər uşaqların mənəvi, fiziki və psixiki sağlamlığına zərər verəcək hərəkətlərdən çəkinməlidirlər. Uşaqlarla bağlı heç bir pis rəftara, təhqirə və ya alçaldılmaya, qəddar rəftara, kobudluğa və ya etinasızlığa yol verilməməlidir. Uşaqlarının hüquqlarını pozan valideynlər qanun qarşısında məsuliyyət daşıyırlar. Azərbaycan Respublikası Ailə Məcəlləsinin 64.01, 64.04 və 64.05-ci maddələrinə görə, valideyn öz vəzifələrindən lazımınca istifadə etmir, və ya onlardan sui-istifadə edirsə, öz uşaqları ilə qəddarcasına rəftar edir, və ya onlara fiziki və ya psixoloji təzyiq göstərirsə, həmin valideyn öz valideynlik hüquqlarından məhrum edilə bilər.

Azərbaycan qanunvericiliyi uşaqlara öz hüquq və maraqlarını müdafiə etməyə və digər məsələlərlə yanaşı, erkən nikah haqqında valideynlərinin verdikləri qərarlardan imtina etməyə əsas verir.

Ailə Məcəllesinin 51.5-ci maddəsində deyilir ki, uşağın maraq və hüquqları pozulduqda, o cümlədən valideynlər özlərinin tərbiyəvi və ya valideyn hüquqlarını yerinə yetirə bilmədikdə və ya onlardan düzgün istifadə etmədikdə, uşaq öz maraqlarını müdafiə etmək üçün müvafiq icra hakimiyyəti orqanına müraciət etmək hüququna malikdir (məsləhət və ya himayə orqanı). 14 yaşına çatmış yeniyetmə məhkəməyə apelyasiya şikayəti vermək hüququna malikdir. Lakin öz hüquqlarının qanuni yollarla təmin edilməsinə çalışan uşaqlar haqqında presedent hallar müşahidə edilməmişdir. Valideynlərin öz hüquqlarından düzgün istifadə etməməsi Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəllesində (İXM) inzibati qanun pozuntusu kimi müəyyən edilmişdir. Xüsusi olaraq İXM-in 51-ci maddəsi nəzərdə tutur ki, azyaşlı uşaqlarına qarşı öz vəzifələrini yerinə yetirə bilməyən valideynlərə xəbərdarlıq edilə bilər və ya onlar cərimə oluna bilərlər.

Uşaqların hüquqi statusuna gəldikdə, qəyyumluq və ya himayə orqanları məsələsinə toxunmaq vacibdir. Azərbaycan Repsublikası Ailə Məcəllesinin 136-cı maddəsində valideynsiz uşaqların tərbiyə edilməsi, onların böyüdülməsi, və beləliklə, hüquqlarının qorunması ilə bağlı olaraq qəyyumluq və himayəçiliyin tətbiq edilməsi barədə şərhlər yer alır. Ailə Məcəllesinin 135.2-ci maddəsində xüsusi olaraq qeyd edilir ki, qəyyumluq – yaşı 14-dən az olan, himayəçilik isə yaşı 14 -18 olan uşaqlara tətbiq edilir. Qəyyumluq və ya himayəçiliyin hüquqi prinsipləri Azərbaycan Respublikası Mülki Məcəllesinin 33, 34, 35, 36, 37 və 38-ci maddələrində müəyyən edilmişdir.

### 4.2.3 Təhsil hüququ

Azərbaycan Respublikasının 7 oktyabr 1992-ci il tarixli "Təhsil qanunun" 15-ci maddəsinə görə ümumi təhsilin üç pilləsi təsnif olunur: 1. ibtidai təhsil (I-IV siniflər); 2. əsas təhsil (V-VIII sinif); 3. orta təhsil (IX-XI sinif). Təhsil yaşına gəldikdə, qanunun 15.1-ci bəndində bu yaşın 6 olması nəzərdə tutulur, 15.5-ci maddədə isə icbari təhsil 8-ci sinfə qədərdir (bu indi 9-ci sinifdir). Beləliklə, bütün uşaqlar üçün 14 yaşına kimi təhsil icbaridir. Həmin qanunun 15.2-ci maddəsində bu məsələ haqqında daha dəqiq müddəa vardır. Orada deyilir ki, 14 yaşına çatan uşaqlar məktəbin nizamnaməsinə uyğun olaraq, oranı tərk edə bilərlər.

Lakin Azərbaycan Konstitusiyasına görə, orta təhsil (11-ci sinfədək) də icbaridir. Bu, o deməkdir ki, təhsil yaşı 17-dəkdir. Konstitusiyadakı müddəalar daxili qanunların hamısından üstündür, lakin Azərbaycanın qanunvericiləri bu məsələ ilə bağlı Konstitusiya ilə təhsil haqqında qanun arasında olan ziddiyyətləri aradan qaldırmağa çalışmalıdırlar.

Təhsilin dayandırıla biləcəyi 14 yaş çox aşağı yaşdır və bu hal erkən nikahlar üçün əlverişli şərait yaradır. Yeni qəbul edilmiş Təhsil haqqında Qanun 9 illik icbari təhsili rəsmiləşdirdi.

### 4.2.4 Məktəblər və müəllimlər

Məktəblər və müəllimlər erkən nikahlar ilə mübarizədə əhəmiyyətli rol oynaya bilər. Bu rol iki istiqamətdə müəyyən oluna bilər. Əvvəla, məktəblər erkən nikahlar ilə bağlı olaraq uşaqların məktəbi atmaları hallarını səmərəli şəkildə izləyə bilərdi. İkincisi, məktəbdən kənar fəaliyyətlər keçirməklə məktəblər uşaqların dünyagörüşünü genişləndirə və evliliyi bir nailiyyət kimi qələmə verən ənənəvi təcrübələrdən onları ayıra bilərdi.

Azərbaycan Repsublikası Nazirlər Kabinetinin qərarı əsasında təsdiq edilmiş İbtidai Məktəblər üzrə Nizamnamənin 41.1-ci maddəsində nəzərdə tutulur ki, məktəb öz səlahiyyəti çərçivəsində sosial çətinliklərlə üzləşən və məktəb dərslərindən yayınan yeniyetmələri müəyyən etməli və onlara ümumi təhsil almağa kömək etməlidir. Orta Məktəb Nizamnaməsinə görə, müəllimlər şagirdlərin dərsdənkənar fəaliyyətlərinə maraq göstərmək və onların sosial təhlükəsizliyini təmin etmək üçün müvafiq olan hallarda onlara kömək etmək hüququna malikdirlər.

Təşviqedici olmalarına baxmayaraq, qaydalar uşaqların məktəbi atmaları və nikahlara daxil olmalarına qarşı səmərəli tədbirlər görmək üçün kifayət deyildirlər.

### 4.2.5 Hüquq-mühafizə orqanları

Hüquq-mühafizə orqanları erkən nikah hallarının qarşısını almaq və bu hallara görə cəza vermək üçün yaxşı mövqeyə malikdirlər.

Azərbaycan polisinin hərəkətləri Azərbaycan Respublikasının "Polis haqqında" qanunu ilə tənzimlənir. Bu qanuna yeniyetmələrin hüquq və maraqlarının müdafiəsi ilə bağlı bəzi dəyişikliklər və əlavələr edilmişdir. 3 dekabr 2005-ci il tarixli dəyişiklikləri əks etdirmək üçün qanuna "yeniyetmələrin hüquqlarının pozulmasının qarşısının alınması məqsədi güdən hərəkətlər" adlı maddə daxil edilmişdir. Polis işçilərinin vəzifələrini müəyyən etmək üçün həmin qanunun 13-cü maddəsinə daha bir dəyişiklik edilmişdir. Beləliklə, polis işçisinin ümumi vəzifələrinin siyahısına "yeniyetmələrin hüquqlarının pozulmasının qarşısının alınması məqsədi güdən tədbirlər görmək" adlı maddə daxil edilmişdir. Bundan əlavə, yeniyetmələrin maraqlarını qorumaq üçün qanuna daha iki yeni maddə əlavə edilmişdir: Maddə 15.1 – "Yeniyetmələrin hüquqlarının pozulmasının qarşısının alınması ilə bağlı polis işçisinin vəzifələri" və Maddə 19.1 – "Yeniyetmələrin hüquqlarının pozulması ilə bağlı polis işçisinin hüquqları".

Maddə 19.1-də yeniyetmələrin hüquqlarının pozulmasının qarşısının alınması ilə bağlı polis işçisinin vəzifələri aydın şəkildə müəyyən edilmişdir:

1. yetkinlik yaşına çatmayanları cinayətkar fəaliyyətə, fahişəliyə və ya digər əxlaqsız əməllərə cəlb etmiş, yaxud yetkinlik yaşına çatmayanlar barəsində digər qanunazidd əməllər törətmiş şəxsləri, habelə yetkinlik yaşına çatmayanların tərbiyəsi, təhsili və saxlanılması üzrə öz vəzifələrini yerinə yetirməyən və ya lazımınca yerinə yetirməyən valideynləri və ya digər qanuni nümayəndələri, vəzifəli şəxsləri aşkar etmək, onlar barəsində öz səlahiyyətləri daxilində Azərbaycan Respublikasının qanunvericiliyi ilə nəzərdə tutulmuş tədbirlər görmək;
2. yetkinlik yaşına çatmayanlar tərəfindən hüquq pozuntularının törədilməsinə şərait yaradan səbəb və halların aradan qaldırılması üzrə öz səlahiyyətləri daxilində tədbirlər görmək, bu barədə müvafiq dövlət orqanlarına, idarə, təşkilat və müəssisələrə təkliflər vermək;
3. hüquq pozuntuları törətmiş yetkinlik yaşına çatmayanlar barəsində, habelə onların tərbiyəsi, təhsili və saxlanılması üzrə öz vəzifələrini yerinə yetirməyən və ya lazımınca yerinə yetirməyən və ya onların tərbiyəsinə mənfi təsir göstərən, yaxud onlarla qəddar rəftar edən valideynlər və ya digər qanuni nümayəndələr, yaxud vəzifəli şəxslər barəsində Azərbaycan Respublikasının qanunvericiliyi ilə nəzərdə tutulmuş qaydada tədbirlər görmək, habelə müvafiq təsir tədbirlərinin tətbiq edilməsi haqqında müvafiq dövlət orqanlarına təkliflər vermək;

Yeniyetmələrin müdafiəsi ilə bağlı polisin səlahiyyətləri kifayət qədər genişdir, lakin bu müddəaların icrası məhduddur.

### 4.2.6 Yeniyetmə ilə cinsi əlaqə cinayət kimi

Azərbaycan ərazisində bağlanan erkən nikahların əksəriyyətində yalnız gəlin yeniyetmə olur, bəyin yaşı isə 18-dən çox olur. Buna görə, bəy bu əməlinə görə məsuliyyət daşıyır. Azərbaycan Respublikası Cinayət Məcəllәsinin 152-ci maddəsinə görə, hər hansı bir yetkin şəxs yaşı 16-dan az olan şəxslə cinsi əlaqəyə girərsə və ya onunla cinsi təbiətə malik hərəkətlər edərsə, həmin şəxsi 3 il həbs cəzası gözləyir. Azərbaycan Respublikası Cinayət Məcəllәsinin 153-cü maddəsi yaşı 14-dən az olan şəxsə qarşı güc tətbiq etmədən mənəviyyatsız hərəkətlər etməyə görə müvafiq cəza nəzərdə tutur. Erkən nikahların çoxu rəsmi olaraq qeydə alınmadığından, nikahdakı qızın yaşı 16-dan az olduğu halda bu nikaha daxil olan yetkinlik yaşına çatmış şəxs yuxarıda qeyd olunmuş qanuna görə cinayət məsuliyyətinə cəlb oluna bilər.

Qanuna görə, hələ də ölkədə baş verən məcburi gəlin oğurlanması halları insan oğurlanması kimi qiymətləndirilir və Azərbaycan Respublikası Cinayət Məcəllәsinin 122.1 maddəsinə görə 5 ildən 10 ilədək həbs cəzası nəzərdə tutur. Bundan əlavə, Azərbaycan Respublikası Cinayət Məcəllәsinin 150.2.3-cü maddəsində deyilir ki, cinsi məqsədlərlə şəxsə və ya bir neçə şəxsə qarşı edilmiş hərəkətlər və ya pedofiliya hərəkətlərinə görə 5 ildən 8 ilədək həbs cəzası nəzərdə tutulur; əgər bu hərəkətlər yaşı 14-dən az olan şəxsə qarşı edilmişdirsə, Maddə 150.3.3-ə əsasən, 8 ildən 10 ilədək həbs cəzası nəzərdə tutulur.

> Baxmayaraq ki, yeniyetmə qız ilə evlənən şəxslərin cəzalandırılması üçün qanunvericilikdə vasitələr vardır, onların həqiqətən məsuliyyətə cəlb edilməsi hallarına rast gəlinmir.

### 4.2.7 Tənha və yeniyetmə ana

Erkən nikahların əksəriyyətinin qeydiyyatsız olması və çox vaxt tez dağılması tənha analar, aliment hüquqları və sosial yardım məsələlərini gündəmə gətirir. Azərbaycan Respublikası Ailə Məcəllәsinin 57-ci maddəsində yaşı az olan valideynlərin hüquqlarına istinad edilərək deyilir ki, onlar öz uşaqları ilə yaşamaq və onların tərbiyəsində iştirak etmək hüququna malikdirlər. Maddə 57.2-də nəzərdə tutulur ki, yaşı az olan cütlük evlənə bilmirsə, onlar müstəqil şəkildə ata və ana kimi yalnız 16 yaşa çatdıqda hərəkət edə bilərlər. Valideynlərinin yaşı 16-dan az olan uşaqların tərbiyə olunması üçün himayəçilik tətbiq oluna bilər. Yaşı az olan valideynlərin öz atalıq/analıq faktını müəyyən etmək üçün məhkəməyə müraciət etmə hüququ vardır.

### 4.2.8 Yetkinlik Yaşına Çatmayanların İşləri və Hüquqlarının Müdafiəsi üzrə Komissiya

Azərbaycanda Nazirlər Kabinetinin 25 iyul 2002-ci il tarixli 735 saylı qərarı əsasında Yetkinlik Yaşına Çatmayanların İşləri və Hüquqlarının Müdafiəsi üzrə Komissiyası təsis edilmişdir. Milli səviyyədə bu komissiyaya hal-hazırda Baş Nazirin müavini sədrlik edir. Komissiyanın səlahiyyətləri, iş prinsipləri və strukturu Yeniyetmələrin maraq və hüquqlarının müdafiə edilməsi komissiyasının 31 may 2002-ci il tarixli qanuna əsasən təsdiq edilmiş Əsasname ilə tənzimlənir.

Əsasnamənin 1-ci maddesində komissiyanın əsas məqsədləri yer alır. Bu məqsədlərə yeniyetmələrin təhsilinə tesir, onların hüquq və maraqlarının müdafiəsi, onların davranışına nəzarət, qeyri-qanuni hərəketlərə yol verilməməsi, eləcə də mərkezi və yerli hakimiyyət orqanlarının işinin əlaqələndirilməsi daxildir. Komissiya təkcə mərkəzi deyil, həmçinin regional və yerli səviyyələrdə işləyir. Yerlərdə komissiya yerli icra orqanlarına hesabat verir. Əsasnamənin 3-cü maddəsinə əsasən hər bir komissiyada üzv kimi psixoloq olmalıdır.

Komissiyaların məqsəd və məramları kifayət qədər qeyri-müəyyəndir, ona görə hazırkı formada komissiya erkən nikahlar məfhumuna qarşı səmərəli mübarizə aparan vasitə kimi hesab edilə bilməz.

Ölkə qanunvericiliyi həddən artıq ikimənalı, erkən nikahlar məfhumunun qarşısının alınması və ya ona qarşı mübarizə baxımından çox ziddiyyətlidir. Erkən nikahlar problemi ilə bağlı dövlət orqanlarının rolu daha aydın müəyyən edilməlidir.

Qanunvericilik müasir sosial problemlərə cavab verməklə yanaşı, həm də onun tam və düzgün icra olunmasına nail olmalıdır. Bununla bağlı olaraq digər qanunverici aktlar erkən nikahlar probleminin həll edilməsinə yardım edə bildikləri halda, tətbiq edilmirlər.

# 5. ERKƏN NİKAHLARIN ARTAN MEYLLƏRİ VƏ ONLARA QARŞI İCTİMAİ MÜNASİBƏT

> Bizim 10-cu sinfimizdə yalnız 2 qız nişanlamamışdır, 6-7 qız isə ailə qurmuşdur.
> (FFG.13-15. Abşeron)

# 5.1 Üstünlük təşkil edən meyllər

Məlumat verənlərin çoxu etiraf etmişdir ki, Azərbaycanda erkən nikah ilə bağlı məlumatlı deyillər. Bu, o faktla izah olunur ki, mövcud qanunvericiliyə görə, oğlanlar üçün ən aşağı 17, qızlar üçün isə 16 yaşdan aşağı erkən nikahlara icazə verilmir, ona görə bu cür məlumatlar nikaha daxil olanlar və onların valideynləri tərəfindən ciddi şəkildə gizlədilir. Dövlət qeydiyyatlı nikahları əvəz edən dini kəbinlər üzrə məlumat almaq mümkün deyildir. Bu məsələ ilə bağlı spesifik məlumatları təmin etməkdə çətinlik çəkdikləri üçün məlumat mənbələri təxminlər və şəxsi müşahidələr əsasında mühakimə yürüdürlər.

Dövlət Statistika Komitəsinin verdiyi məlumatlara əsaslansaq, erkən nikahların sayının artması ilə bağlı göstəricilərə rast gələ bilərik. Məsələn, son iki onillikdə 15-19 yaşlı qadınlarla 25-29 yaşlı qadınların uşaq doğma statistikası yerlərini dəyişmişdir. 25-29 yaşlı qadınlar arasında doğuşların sayı sistematik olaraq azalmış, 15-17 yaşlı qadınların doğuşlarının sayı isə davamlı şəkildə artmışdır.[23] 1980-1998-ci illər arasında 15-19 yaşlı qadınlar tərəfindən dünyaya gətirilmiş uşaqların sayı üç dəfə artmışdır. Kəbindən (rəsmi qeydiyyata alınmış) kənar doğulmuş uşaqların sayı artmışdır. Bütün diri doğuşlar arasında bu cür uşaqların nisbəti 1994-cü ildə 2.6%-dən 2007-ci ildə 11.8%-dək artmışdır. Bu isə, ailə institutunun əsaslarının zəifləməsinə və erkən nikahların nisbətinin artmasına birbaşa işarə edir.[24]

23 1997-ci ildə uşaqların doğum sayında kəskin artım var idi. Ölkənin iqtisadi və siyasi vəziyyətinin təhlili göstərir ki, 1996-1997-ci illər SSRİ-nin dağılması və 1991-ci ildə Azərbaycanın müstəqillik qazanmasından sonrakı illərlə müqayisədə, nisbətən sabit illər idi. Azərbaycan və Ermənistan arasında atəşkəs 1994-cü ilin 12 may tarixində imzalandı və Azərbaycanın siyasi mühiti Heydər Əliyevin qalib gəldiyi 1995-ci il prezident seçkilərilə sabitləşdi. ÜDM kimi iqtisadi göstəricilər 1996-cı ildən bu yana Azərbaycanda iqtisadi artımın olduğunu göstərir. Uşaqların dünyaya gəlməsi rəqəmlərində artım yalnız 15-17 yaşlı əhali qrupları arasında deyil, həmçinin 18-19 və 20-24 yaş qruplarında da müşahidə olunmuşdur. Əsas doğuşlar axırıncı iki yaş qrupunda olmuşdur. 20-24 yaş qrupunda doğulmuş uşaqların sayı, 1996-cı ildə 46,432-dən 1997-ci ildə 48,239-dək, 1998-cı ildə isə 45,467-dək artmışdı. Bax: Azərbaycanın demoqrafik göstəriciləri..., Sitat. səh.180.

24 www.azstat.org

Qrafik 1:
1995-2006-cı illərdə 15-17 yaşlı anaların dünyaya gətirdiyi diri uşaqların sayı




Mənbə: Azərbaycanın demoqrafik göstəriciləri 2007

Erkən nikahın əhatə dairəsinə gəldikdə, fokus qrupu iştirakçılarının fikirləri haçalandı. Bəziləri, erkən nikahların geniş yayıldığını, digərləri isə bunun nadir hal olduğunu hesab edirdi. Məlumat verənlər bu nikahların ümumi nikahların 3-5 faizdən 80 faizə kimi təşkil etdiyini bildirdilər.

Gender-yaş fokus qrupunun işini təhlil etsək görərik ki, 13-17 yaşlı qızlar erkən nikahların geniş yayıldığı qənaətindədirlər. Kişilər arasında 21-24 və 40-55 yaşlılar isə bu kimi halların nadir fikrindədirlər.

Eyni zamanda, bütün fokus qrupu iştirakçılarının hamısı razılaşdılar ki, onların yaşadıqları ərazilərdə erkən nikahlar baş tutur. Respondentlərin əksəriyyəti bu hallardan xəbərdardır – onlar öz fərdi təcrübələrindən və ya başqalarından eşitdikləri nümunələri misal gətirirdilər.

Fokus qrupunun qiymətləndirməsinə görə, bölgələr üzrə erkən nikahların ən böyük sayı Lənkəran və Abşeronda baş verir. Bundan sonra Quba gəlir, Ağstafa isə siyahıda sonuncudur. Qeyd olunmalıdır ki, Lənkəran və Abşerondan olan fokus qruplarının iştirakçıları erkən nikah hallarının geniş yayılmasından əmin idilər. Erkən nikahın yayılması ilə bağlı fikir ayrılıqları belə idi:

a) Ağstafa: fokus qrupu iştirakçılarının çoxu inanır ki, erkən nikahlar adi hal deyil.
b) Bakı-Abşeron: Bakıdan olan fokus qrupu iştirakçılarının çoxu hesab edirdi ki, erkən nikahlar adi hal deyil, Abşeron üzrə fokus qrupu iştirakçıları isə bunun əksini düşünürdü.
c) Quba: fikirlər haçalanmışdı; bəzi iştirakçılar erkən nikahların sayının artdığını hesab edirdi, digərləri isə bunun əksini fikirləşirdi.
d) Lənkəran: fokus qrupu iştirakçılarının çoxu hesab edirdi ki, erkən nikahlar adi haldır.

Qrafik 2:
Siz hesab edirsinizmi ki,erkən nikahlar Sizin bölgədə daha çox yayılmağa başlayır?




Məlumatlar 488 respondentin sorğusu əsasındadır

Məlumat verənlərin çoxu razı idi ki, erkən nikahlar kənd yerlərində daha çox yayılıb. Sorğu edilənlərin çoxu o fikirlə razılaşırdı ki, erkən nikahlar ölkənin cənub bölgələrində – İranla sərhəddə yerləşən Lerik, Yardımlı, Masallı, Lənkəranda, ucqar dağ kəndlərində, eləcə də Abşeron, Sabunçu, Nardaran, Qaradağ və Bakının Əzizbəyov rayonunda geniş yayılıb.

Lənkəran haqqında danışarkən, yerli QHT üzvü olan Arzu Cəfərli qeyd etdi ki, "erkən nikahlar ölkənin cənub bölgələrində mədəni və tarixi amillərə, eləcə də burada olan güclü dini təsirə görə geniş yayılıb. Bu cür qeyri-qanuni nikahlar bölgədəki nikahların 25%-ni təşkil edir.".

Eyni zamanda, bir çox mənbə vurğulamışdır ki, erkən nikahlar daha geniş əraziləri əhatə etməyə başlayır. Onlardan bəziləri qeyd edir ki, keçmişdə erkən nikahlar ölkənin yalnız bəzi bölgələrində baş verirdi, bu gün isə onların əhatə dairəsi xeyli genişlənib və yalnız kənd yerlərilə məhdudlaşmır.

Hal-hazırda qızların 50%-i məktəbi bitirmir və çox erkən ərə gedir. Bu, Bakı və rayonlar üçün səciyyəvidir.
Bakı ətrafından olan məktəb müəllimi

## 5.2 Erkən nikahlara olan münasibət

Xüsusilə kənd yerlərində yaşlı nəslin nümayəndələri erkən nikahları dəstəkləyirlər. Onlar bu barədə başqa cür belə fikirləşə bilmirlər. Onlar deyirlər ki, qız ərə getməlidir və əgər müəyyən yaşa qədər ərə getməsə, bu faciədir. Cəmiyyəti ümumilikdə götürdükdə, onun münasibəti nə müsbət, nə də mənfidir. Bu cür hallar baş verəndə cəmiyyətdə nəzərəçarpacaq reaksiya olmur. Lakin gənclərin bu məsələyə münasibəti daha mənfidir. Əgər qız, hətta qanunun icazə verdiyi 18 yaşında belə ərə gedirsə, bu hal gənclərin çoxu tərəfindən gülünc bir qərar hesab edilir. (FFG.21-24. Lənkəran)

Fokus qrup iştirakçıları və əsas məlumat verənlərin fikrincə ictimaiyyətin erkən nikahlara qarşı münasibəti bəzi ziyalı dairələrdə və şəhər əhalisi arasında mənfidən; kənd yerlərində, xüsusilə ölkənin cənub bölgəsindəki əhali arasında isə müsbət münasibətədək çeşidlənir. Kənd yerlərində ərə getməyə hazır olma anlayışı tətbiq edilə bilən qanunvericilikdəki müddəalardan çox fərqlənir. Kənd yerlərində ərə getməyə hazır olma anlayışı Azərbaycan zərbi-məsəli ilə daha çox uzlaşır: 'Qız təsərrüfat aparır və heyvana baxırsa, deməli evliliyə hazırdır'. Respondentlərin çoxu hesab edir ki, geniş ictimaiyyət bu probleme müsbət baxır, və ya ən azı ona biganədir və onu hər bir ailənin öz işi hesab edir. Fokus qrupunun gənc iştirakçıları hesab edirdilər ki, valideyn, qohum və qonşular erkən nikahlara müsbət yanaşırsa, müəllim və həmyaşıdlar bunu təqdir etmirlər.

Məlumatlar göstərir ki, erkən nikahların yer aldığı ailələrdə və, ümumiyyətlə, cəmiyyətdə bu hal, əsasən, xeyli dərəcədə məqbul sayılır. Qohum və tanışlar arasında yalnız çox az sayda adam (18%) bu cür nikahları pisləmiş, onların yarısından çoxu (55%) buna müsbət yanaşmış və dördde birindən çoxu (27%) bitərəf qalmışdır.

Erkən nikahların ümumi olaraq məqbul sayılması daha yüksəkdir. Respondentlərin əksəriyyəti (59%) əmindirlər ki, yerli əhali erkən nikahları məqbul sayır; onların yalnız 22%-i hesab edir ki, yerli əhali bu məfhuma mənfi baxır.

Qrafik 3:
Cəmiyyətdə erkən nikahların qavranması




Məlumatlar 488 respondentin sorğusu əsasındadır

Qrafik 4:
Cəmiyyətdə erkən nikahların mənfi qavranması




Regional perspektivdən baxdıqda erkən nikahların qəbul edilməsi səviyyəsi fərqli görünür. Bölgələrin bu məsələ ilə bağlı müqayisəsi göstərir ki, tədqiqat aparılan bölgələr arasında Quba bölgəsinin ictimaiyyəti erkən nikahlara ən az mənfi münasibət bildirən ictimaiyyətdir.

Respondentlərin böyük əksəriyyəti erkən nikahların müxtəlif mənfi nəticələrini qeyd etmişlər. Aydındır ki, bu nikahlar təkcə yeniyetmə qızlar və onların gələcək uşaqlarına deyil, həm də ailə institutuna və bütövlükdə cəmiyyətə mənfi təsir göstərir. Erkən nikahlar məfhumuna müsbət münasibət qaldıqca ona qarşı mübarizə aparmaq çətin olacaq. Hələ də, bu bilgilərə baxmayaraq, erkən nikahların təsdiq edilməsinin yüksək səviyyəsi göstərir ki, bu nikahların faydalı olması haqqında fikirlər hələ də güclüdür.

Yeniyetmə hamiləliyi, erkən uşaq doğma və erkən analığın mənfi sosial-iqtisadi və sağlamlıq nəticələrinin olduğu yaxşı bəllidir. Yeniyetmə anaların doğuş zamanı ağırlaşmalarla üzləşmə ehtimalı daha yüksəkdir, bu da həm onların, həm də uşaqlarının ölüm səviyyəsinin artması ilə nəticələnir. Bundan əlavə, yeniyetmə yaşlarında uşaq doğma əks sosial nəticələr verir. Bu, özünü xüsusilə qadınların təhsil almasında göstərir, çünki yeniyetmə yaşlarında ana olan qadınlar çox vaxt təhsili atırlar.[25]

25 Demoqrafik və Sağlamlıq Sorğusu, Azərbaycan 2006, Qadın məhsuldarlığı səh. 51.

# 6. NİKAH BARƏDƏ KİM QƏRAR VERİR?

Erkən nikahlar müxtəlif amillərin bir yerə toplanmasıdır. Bəzən nikah qızın istəyinə görə bağlanır, daha çox hallarda qızın valideynləri ona təzyiq göstərirlər və ya qız qaçırılır. Bu amillər təəccüblü şəkildə bir-birilə bağlıdır və qızın ərə getməsində motivasiya ilə qaçırılma və valideynlərin təkidi arasında sərhəd bəzən çox zərif olur.

## 6.1 Erkən nikahlar qızların öz istəkləri kimi

Biz bir-birimizi çox istəyirdik. Oğlan öz elçilərini göndərdi və mənim atamla anam razılıqlarını verdilər. Onlar bilirdilər ki, biz bir-birimizi istəyirik.
16 yaşında ərə getmiş gənc qadın (V18. Lənkəran, Daştalıqcar)

Elə hallar vardır ki, erkən nikah qızın istəyinin göstəricisidir: o, sevmiş və ərə getmək istəyir. Tədqiqatımız aşkarladı ki, erkən nikah hallarının 42%-i qızların azad istəyi və seçimi əsasında baş verir. Qərarlar onların valideynlərinin heç bir təzyiqi olmadan verilir.

Bu cür statistikalar ruhlahdırıcı ola bilər, lakin həqiqət, o dərəcədə də ürəkaçan deyil. İlk növbədə, qeyd etmək lazımdır ki, yeniyetmə qızın ərə getmək istədiyi, lakin onun valideynlərinin onun azyaşlı olması səbəbilə buna razı olmadıqları hallar demək olar ki, yox dərəcəsindədir. Valideynlərin müəyyən namizədlərə etiraz etdikləri hallar vardır, lakin onlar erkən nikahın özünə qarşı deyillər.

Valideynlər qorxurlar ki, qızın gələcəkdə istəyəni olmaya bilər və hesab edirlər ki, nikah uşaqlarının qismətidir. Digər qorxu qızın öz gələcək ərinə qoşulub qaçması ehtimalıdır ki, bu da, ailənin şərəfinə ləkə gətirə bilər.

Bundan əlavə, qızlar elə mühitdə böyüyürlər ki, orada ərə getmək və uşaq doğmaq həyatda əldə edilən ən böyük nailiyyət kimi qələmə verilir. Beləliklə, təəccüblü deyil ki, yeniyetmə qızlar ərə getmək fikrinə düşürlər. Respondentlərin böyük faizi qeyd etmişdir ki, qızların erkən ərə getmək fikrinə düşməsini emansipasiya kimi qiymətləndirmək olmaz, bu daha çox ənənəvi norma və dəyərlərə əməl etməkdir. Bu, o sosial inanca işarət edir ki, qızlar mütləq ərə getməlidirlər və qızın və onun ailəsinin şərəfi çox dəyərlidir.

## 6.2 Gəlinin qaçırılması

Fokus qrupu müzakirələrinin digər mövzusu azyaşlı qızların qaçırılması idi. Bu, gələcək ər tərəfindən qızın və ya qadının (çox vaxt könüllü olaraq) "qaçırılması" və ailənin namusunu qorumaq üçün sonradan (bir tərəfin və ya hər iki tərəfin) valideynləri bu nikahı qəbul etməyə məcbur etmək praktikasına aiddir. Bu məfhumun təbiəti və əhalinin ona münasibəti respondentlərlə müzakirələr zamanı bizdə xüsusi maraq doğururdu. İştirakçılardan çoxu inanırdı ki, qız qaçırma halları olur, lakin bu hallar onların bölgələri üçün səciyyəvi deyildir. Baxmayaraq ki, "qaçırılmaların" əksəriyyəti qızların razılığı ilə baş verir, məcburi qaçırmalar bütün halların yarısını təşkil edir. Respondentlər deyirdilər ki, qaçırılma hallarının səbəbi, qızların kiməsə ərə getmə istəyinə qızın və ya oğlanın valideynlərinin razı olmamasıdır; bəzən bunun səbəbi oğlanın ağır maliyyə durumu və onun toy etməyə imkanının olmamasıdır.

Erkən nikahların tərəfləri və onların valideynlərilə aparılan təfsilatlı müsahibələrin təhlili bu cür nikahların böyük hissəsinin (19%) qaçırılma ilə müşayiət olunduğunu göstərir.

> Mənim bu oğlandan çox xoşum gəldi və o da məni xoşladı. Mənim atam dedi ki, məni bu oğlana heç vaxt verməyəcəkdir. Mən onsuz yaşaya bilmirdim. Ona görə, mən onunla qaçdım.
> 15 yaşında könüllü olaraq qoşulub qaçmış gənc qadın (V21. Lənkəran)

Qrafik 5:
Evlilik gəlin qaçırma nəticəsindəmi olmuşdur?




Araşdırılmış halların yalnız 6 faizində qızın razılığı olmadan məcburi qaçırılma olmuşdu. Qızların razılığı olmadığı halda, bu qaçırmalar ata ilə razılaşdırılmış və ya qız, özünün və valideynlərinin istəyinə zidd olaraq qaçırılmışdır. Qohumlar razı, qız isə razı olmayanda, qızın mövqeyi xeyli zəif olur, çünki qız nə ailəsinə qarşı, nə də ictimai rəyə qarşı çıxaraq evə qayıda bilməz. Çox vaxt qınaq üzündən ona evə qayıtmaq qadağan edilir, çünki bu, biabırçılıq sayılır.

Bəzən qaçırılma valideynləri qızlarını hətta onun istəyinə zidd olaraq ərə verməyə məcbur edir. Qızın və ailənin namusunun ləkələnməsi qorxusundan onlar qızı onu oğurlayan oğlana verirlər. Qız oğurlanmağa razılıq verirsə və bu davranış qarşılıqlı sevginin nəticəsidirsə, bu birliyin xoşbəxt nəticələnəcəyinə hələ ümid etmək olar. Lakin qızın istəyinin əleyhinə olan qaçırılma hallarında bu cür evlilik onun mənəvi və fiziki sağlamlığı üçün fəlakətli ola bilər.

> Məni güclə qaçırdılar. (...) Mən 3 dəfə qaçmağa cəhd etdim, lakin onlar məni tutdular. Onlar məni qaranlıq otağa saldılar və ağzımı bağladılar. Mən orada 3 gün qaldım. Onlar mənim valideynlərimin ətraflarda məni axtardığını gördükdə, məni başqa yerə apardılar. Onlar məni bir ay ərzində müxtəlif yerlərdə dustaq kimi saxladılar. (...) artıq çox gec idi... Onlar toya hazırlığa başladılar.
> 15 yaşında məcburən qaçırılma qurbanı olan gənc qadın: (V30.Ağstafa).

Qızların qaçırılmasının nə qədər geniş yayılması üzrə dəqiq statistik məlumatlar yoxdur. Məlumat verənlər razılaşırdılar ki, bu məfhumun geniş yayılmasını ehtimal etmək üçün əsaslar yoxdur. Bu kimi hallar baş verirsə belə, onlar valideynlərin razılığını almaq və ya toy xərclərindən qaçınmaq üçün edilir.

Maraqlıdır ki, məcburi qaçırılmalar nadir hallarda olur, lakin onlar geniş müzakirə edilirlər. Bu hallar, yeniyetmə qızın valideynlərini onun ərə getməsini əsaslandırmağa məcbur edir. Onlar deyirlər ki, qızlarını uşaq ikən ərə verməklə onlar onu qaçırılmadan müdafiə edirlər.

> Mən başqa adamı istədiyim üçün valideynlərim məni istəmədiyim adama ərə verdilər. Bu qəddar və zorla edilmiş oğurluq idi.
> 16 yaşında zorla ərə verilmiş Ermənistan qaçqını (V32. Abşeron)

# 6.3 Valideynlərin təzyiqi ilə ərə getmə

Araşdırılmış erkən nikah hallarının yalnız 17%-də nikah qızların valideynlərinin razılığı olmadan baş vermişdi. Lakin yadda saxlamaq lazımdır ki, buraya qızların həm könüllü, həm də məcburi oğurlanması daxildir. Sonuncu hallar hesabatın aşağıdakı bölmələrində təhlil edilir.

Qrafik 6:
Valideynlər uşaqların nikahına razılıq veriblərmi?




Məlumatlar 488 respondentin sorğusu əsasındadır

Qızlarını yetkinlik yaşına çatmayanadək ərə vermək arzusunda olan valideynlərin yüksək faizi, erkən nikahların daha bir ümumi amilinə gətirib çıxarır – valideynlərin öz qızlarını mümkün qədər tez və onu birinci istəyənə verməlləri.

Valideynlərin öz qızlarını mümkün qədər tez ərə vermək faktına daha iki stereotip öz töhfəsini verir. Qızın evdə qarıyıb qalacağı qorxusu və qızın mütləq ərə getməsi ilə bağlı cəmiyyətdə olan inanc.

**'Qarımış yeniyetmələr'** Ən çox yayılmış səbəb o qorxu ilə bağlıdır ki, əgər qız yeniyetmə yaşında ərə getməsə, o heç vaxt ərə gedə bilməyəcək. Əgər qız orta məktəbi bitirdikdən

2-3 il sonra ərə gedə bilmirsə, ona artıq qarımış adı verilir. Ona görə qızlar birinci ərə getmə imkanından yararlanmalıdırlar və 9-10-cu sinifdə oxuyan qızın valideynləri elçiləri salamlayır və qızlarını ərə verməyə razılaşırlar.

> Bizim bölgənin camaatının köhnə adət və ənənələrinə görə qız 17 yaşınadək ərə getmirsə, deməli evdə qalıb.
> (V48. Abşeron)

**'Ərə getmə alın yazısıdır'** Valideynlər həmişə öz uşaqlarına bir sıra dəyərlər aşılayırlar. Azərbaycan cəmiyyətində qadının ərə getmə və analığa olan həyat göstərişi nəsil-dən-nəslə ötürülən rudimental dəyərdir. Ailənin patriarxal modelinə əməl edərək qızlar, o inancla böyüyürlər ki, ərə getmək onların həyatında ən böyük nailiyyət, yaş və təhsil səviyyələrindən asılı olmayaraq, onların can atmalı olduqları bir anlayışdır. Halların əksəriyyətində qızlar valideynlərinin onları erkən ərə vermək qərarlarına qarşı çıxmırlar və onların beyinləri yuxarıda qeyd edilmiş dəyərlərlə formalaşdırıldığı üçün onlar ərə getməni həyatın adi axarı kimi qiymətləndirirlər. Məlumat verənlərin dediyinə görə, əgər qız belə böyüdülübsə, onların cinsi yetkinliyə çatarkən təhsil haqqında deyil, bu haqda fikirləşmələri təbiidir. Bu cür tərbiyə forması nəzakətli şəkildə "məcburi" evliliyə sövq etmə kimi təsnif edilə bilər.

> Mənim valideynlərim məni ərə getmək üçün bir qədər məcbur etdilər. Lakin mən də onlara etiraz etmək üçün bir o qədər də qəti deyildim. Yeni həyat mənim üçün maraqlı idi. Mən hesab edirdim ki, ərə getmə mənim üçün maraqlı olacaqdır.
> (V15. Lənkəran, Sutamurdov)

Qızlara edilən təzyiq və ərə getməyə məcbur edilmə səviyyələri bir-birindən fərqlənirlər. Yuxarıda qeyd edildiyi kimi, bir çox hallarda bu cür tərbiyə qızı erkən nikaha daxil olmağa razı salmaq üçün kifayətdir. Lakin bu, bəzən qızı erkən ərə getməyə məcbur etmək üçün kifayət etmir. Bu hallarda, valideynlər, ya daha kəskin psixoloji təzyiq formalarına əl atır və ya qızın etirazlarına baxmayaraq, evliliyi reallaşdırırlar.

Bəzi hallarda valideynlər qızlarını qorxudurlar. Onlar deyirlər ki, əgər o, indi ərə getməsə onlar onun təhsilini dəstəkləməyəcəklər, qız daha heç vaxt ərə getməyəcək və o, cəzalandırılacaqdır. Bu cür rəftar həm də gender bərabərsizliyinə işarə edir, yəni qızlara özləri üçün qərar çıxara biləcək müstəqil fərdlər kimi baxmırlar, guya onların öz fikir, arzu və istəkləri yoxdur. Ərə getməyə məcbur edilmə qızların hüquqlarını pozur və patriarxal ailə modelini gücləndirir.

> Məsələ burasındadır ki. mənim etiraz etmə hüququm yoxdur. Hətta etiraz etsəm belə, bu heç nə ilə nəticələnməzdi.
> 15 yaşında ərə verilmiş qadın (V47, Abşeron, Nardaran)

Biz erkən nikaha daxil olanlar və onların valideynlərilə təfsilatlı müsahibələrimizdə bu cür nikahın qızın öz istəyi ilə olub-olmadığını mümkün qədər dəqiq öyrənməyə çalışırdıq. Erkən nikah hallarının 58%-də valideynlər qızlarına təsir göstərmişdilər. Təfsilatlı müsahibələr göstərdi ki, valideynlər tərəfindən təşkil edilmiş erkən nikahların 31%-də qızların buna razılığı olmamışdır. Qalan 27%-də erkən nikahlar valideynlərin təşəbbüsü əsasında təşkil olunmuşdu, lakin qızlar buna etiraz etməmiş və ya valideynlərinə qarşı çıxa bilmədikləri üçün razılaşmışdırlar.

Qrafik 7:
Evliliyi qız özümü istəmişdir?




Məlumatlar 488 respondentin sorğusu əsasındadır

Bu, mənim valideynlərimin etdiyi seçim idi. Onlar məni məcbur etmədilər. Mənim atam belə qərar verdi: 'Mən səni bu insana ərə verirəm. Belə olmalıdır.' Mən o vaxt uşaq idim və ailəmin necə olduğundan xəbərim yox idi. Atam dedi ki, bunu etmək lazımdır, mən də etdim.
17 yaşında ərə verilmiş qadın (V27. Abşeron)

Erkən nikahın bağlanması ilə əlaqədar kimi, qərar qəbul etməsi barədə daha təfsilatlı təhlil göstərdi ki, qızların 42%-i öz istək və arzuları ilə ərə getmişlər və bunların yalnız 23%-də onlar qərarı özləri vermişdilər. Qalan hallarda son qərarı verən qızın ailə üzvləri olmuşdur (qızların məcburi qaçırılması halları istisna olmaqla). Halların 54%-də bu qərarı ata vermişdi. Bu, orta Azərbaycan ailəsinin patriarxal ailə modeli olmasını göstərir. Burada ata ailənin başçısıdır və əsas ailə məsələlərində o qərar verir. Lakin elə hallar da var idi ki, qızın ərə verilməsi ilə bağlı qərarı onun anası və ya nənəsi/babası vermişdi. Bu, əsasən qızların atalarının olmaması ilə əlaqədardır, onlar ya ölmüş, ya da boşanmışlar.

Atamın dedikləri həmişə ən əsas idi. Valideynlərimiz həmişə deyirdilər ki, onlar bizim üçün nəyin yaxşı olduğunu daha yaxşı bilirlər. Və biz onlarla heç vaxt mübahisə etməzdik. Mənim atam qərar qəbul edəndə onun qərarını heç kimin dəyişməyə gücü çatmırdı...Mənim ərimin kim olması barədə qərar da mənim valideynlərim tərəfindən verilmişdi. (...) Mən də öz razılığımı verdim.
17 yaşında ərə verilmiş qadın (V12. Lənkəran)

Qrafik 8:
Qızın nikaha daxil olması barədə yekun qərarı vermək
hansı ailə üzvünün məsuliyyətidir?




Məlumatlar 488 respondentin sorğusu əsasındadır

Ümumilikdə, halların böyük əksəriyyətində qızın ailəsi onun ərə getməsilə bağlı yekun qərar verir. Beləliklə, valideynlərin öz qızlarını ərə verməklə bağlı qərarlarının səbəbləri bizim ciddi araşdırmamızın nəticəsi oldu. Bu təhlilin nəticələri hesabatın növbəti fəslində verilmişdir.

> Əsas səbəb o idi ki, oğlan halal pul qazanırdı.
> Onun imkanları qeyri-adi deyildi, lakin onun sabit gəliri var idi və o, ailə saxlamağa qadir idi.
> (V14. Lənkəran, Girdani)

# 7. ERKƏN NİKAHLARIN SƏBƏLƏRİ VƏ MOTİVLƏRİ

> Qız yükü, duz yükü.
> Azərbaycan zərbi-məsəli

> Əsas səbəb o idi ki, oğlan halal pul qazanırdı. Onun imkanları qeyri-adi deyildi, lakin onun sabit gəliri var idi və o ailə saxlamağa qadir idi.
> (V14. Lənkəran, Girdani)

Fokus qrupu müzakirələri, əsas məlumat verənlərlə aparılan müsahibələr, eləcə də erkən nikah iştirakçıları və onların ailələri ilə daha təfsilatlı müsahibələrin təhlili bu cür nikahların səbəblərini aydınlaşdırmağa imkan verdi. Onlar nə dərəcədə bir-birilə bağlı və mürəkkəb olsalar da, onları iki əsas qrupa bölmək olar. Qruplardan biri Azərbaycanın ənənələri və mədəniyyəti ilə, digəri isə Azərbaycan cəmiyyətinin sosial və iqtisadi vəziyyəti ilə bağlıdır. Hər iki qrup mürəkkəb və çoxşaxəlidir.

Qrafik 9:
Qızın ərə verilməsində valideynlərin motivasiyası nədir?




Məlumatlar 488 respondentin sorğusu əsasındadır

Diaqram göstərir ki, respondentlərin 45%-i ən çox rast gələnən valideyn motivi kimi, onların öz qızlarının qayğısına qalmağı idi. Respondentlərin 29%-i erkən nikah üçün əsas motivi

ənənələr kimi müəyyən etmişlər. Respondentlərin aşağı faizi (7%) ailənin zəif iqtisadi durumunu onların öz yeniyetmə qızlarını ərə vermələri üçün səbəb kimi göstərdi.[26]

Maraqlı olan odur ki, valideynlərin motivləri bölgədən bölgəyə fərqlənir. Ağstafa bölgəsində, respondentlərin əksəriyyəti erkən nikahların əsas səbələri kimi "iqtisadi problemləri" və "qızın erkən ərə getməyə razılıq verməsini" göstərdilər. Bakı-Abşeron zonasında motivlərin sıralanması tamamilə fərqli idi. Xüsusilə Abşeronun kənd və qəsəbə sakinlərinin böyük əksəriyyəti "ənənələrə əməl etməyi" valideynləri öz uşaqlarını erkən evləndirməyə sövq edən əsas səbəb kimi göstərmişlər. "Ənənələrə əməl etmə" Lənkəranda da bu məsələdə "qızın istəyi" kimi eyni dərəcədə əsas rol oynayır. Quba bölgəsində, "iqtisadi problemlər" qeyd edilməmişdi, lakin respondentlərin 82%-i qeyd etmişdir ki, "qızın gələcəyini təmin etmək üçün" erkən nikah ən yaxşı yoldur, bu isə dolayısıyla iqtisadi sabitlik deməkdir.

Məlumatlılıq kampaniyaları və erkən nikah məfhumunun azaldılması üçün xüsusi tədbirlər hazırlanarkən bu regional fərqlər dövlət qurumları və vətəndaş cəmiyyəti təşkilatları tərəfindən nəzərə alınmalıdır.

Azərbaycanda erkən nikahların qəbul edilməsilə valideynlərin sosial və iqtisadi durumunun bir-birindən asılılığı sübut olunmuşdur. Valideynlərin təhsil səviyyəsi nə qədər aşağı olursa, onların erkən nikahları qəbul etmə səviyyəsi də bir o qədər yüksək olur. Bu nikahlar "ənənələrə əməl etmə" və ya "qızın istəyinə hörmət edilmə" kimi qəbul edilir. Eyni vəziyyət ailənin diniliyinə də şamil edilir. Valideynlər nə qədər dindar olsalar, onların erkən nikahı "ənənələrə əməl etmə" kimi qavramaları bir o qədər güclü olur. Çətin iqtisadi durum valideynləri erkən nikaha razılıq verməyə sövq edir və bu nikah yoxsulluq və iqtisadi problemlərin həlli üçün tədbir kimi görülür.

# 7.1 Ənənə və mədəniyyət

### 7.1.1. Ərə getmək qadının alın yazısıdır

Ərə getmənin qadının alın yazısı olması fikri hesabatın əvvəlki fəsillərində xeyli müzakirə edilmişdir. (bax 5.2 Valideynlərin təzyiqi altında ərə getmə). Azərbaycan ailəsinin patriarxal konsepsiyasına əsasən ərə getmənin və uşaq böyütmənin qadının alın yazısı olması barədə cəmiyyətdə əminlik olduğu üçün valideynlər qızlarını böyük həyata lazımi şəkildə hazırlamağa məsuliyyət daşıdıqlarını hiss edirlər.

Azərbaycanda qadının ailə qurmamış hesab edildiyi yaşı həddən artıq aşağıdır. Birinci

26 Valideynlərin iştirakı və razılığı olmayan erkən nikahlar, valideynlərin xəbəri olmadan könüllü və ya məcburi qaçırma halları təhlil zamanı nəzərə alınmamışdır.

imkanda qızlarını ərə verməyəndə valideynlərdə belə bir qorxu yaranır ki, onların qızları heç vaxt ərə getməyəcək. Buna görə, onlar özlərinin yeniyetmə qızlarının erkən ərə getmələrini dəstəkləyirlər.

Bizim bölgədə qız bir qədər yaşlananda insanlar narahat olurlar ki, o, evdə qalıb və ərə getməyib. 18-19 yaşlı qız artıq qarımış hesab edilir. Buna görə, belə bir inanc vardır ki, insanlar evlilik təklifi ilə qapını bir və iki dəfə döyürlər. Üçüncü dəfə olmur. Ona görə deyirlər ki, kimsə qızınızı istəyirsə, deməli bu onun qismətidir, ərə verin getsin!
Lənkərandan fokus qrupu iştirakçısı (40-55 yaşında)

### 7.1.2 Ailənin namusu və qızın bakirəliyi

Azərbaycanlıların mentaliteti qızların nikahdan əvvəl cinsi əlaqəyə girməsinə qadağa qoyur. Nikahdan əvvəl bakirəlik yüksək dəyərləndirilir. Məlumat verənlər qeyd etmişdilər ki, valideynlər onların qızlarının cinsi həyata artan maraqlarından narahat olurlar. Beləliklə, onlar erkən nikahı qızlarını ərə getməzdən əvvəl cinsi əlaqəyə girməkdən qorumaq üçün bir vasitə kimi görürlər.

Evlilik, ümumiyyətlə, yetkinliyə qarşı atılmış bir addım kimi qəbul edilir, nikah isə cütlüyü, xüsusilə gənc qadını pis adətlər və şeytan əməllərindən "qorumalıdır".

Əgər qız ərə getməzdən əvvəl bakirəliyini itiribsə, onun ərə getmək imkanları xeyli aşağı enir. Bundan əlavə, bütün ailənin namusu ləkələnəcək və hətta kiçik qızların (əgər varsa) da təmizliyi sual altına alınacaqdır.

Valideynlərin öz qızlarının bakirəliyi ilə bağlı qorxuları bəzən o dərəcədə güclü olur ki, qız cinsi yetkinlik yaşına çatanda məktəbdə ola biləcək şimikləşmələr və təhlükələrdən onu qorumaq üçün qızı məktəbə göndərmək istəmirlər. Azərbaycanda icbari təhsil yaşı 14 olduğu üçün, valideynlər qızlarını məktəbə göndərməyəndə heç bir hüquqi məsuliyyət daşımırlar.

Bilirsinizmi nə üçün indi oğlanlar yeniyetmə, məktəbli qızlara üstünlük verirlər? Çünki onlar 25-26 yaşında qızlarla söhbət edəndə və biləndə ki, onların oğlan dostları və ya hansısa təcrübələri olub, reaksiyaları mənfi olur və heç vaxt belə qızlarla evlənmək istəmirlər. Bu səbəbdən, onlar oğlanlarla heç bir əlaqə təcrübəsi olmayan məktəbli qızlarla evlənməyə üstünlük verirlər. (FFQ.13-15. Lənkəran)

### 7.1.3 Mentalitet

Məlumat verənlərin bir hissəsi yerli və regional adətlərin və normaların erkən nikahlar üçün əlverişli şərait yaratmaq rolunu qeyd etmişdilər. Gender məsələləri üzrə mütəxəssis Yelena Qasımova izah edir ki, erkən nikahlar, müsəlman ənənələri çərçivəsində etik standartdır. Sovet dövründə uzun emansipasiya prosesi evlilik yaşını yüksəltdi və gənc nəslə təhsil almağa stimul verdi. SSRİ-nin dağılmasından sonra sovet mənəviyyatı və sosial standartları da dağıldı və yaddan çıxmış keçmiş adət-ənənələrə yer verdi. Məlumat verənlərin bir çoxunun fikrinə görə, ənənələr qadına cəmiyyətdə yeganə rol verir – "ev ocağının qoruyucusu". Buna görə qızlarını ərə verən valideynlər inanırlar ki, onlar qızlarına onun həyatdakı əsas missiyasını yerinə yetirməyə kömək edirlər: həyat yoldaşı, xanım və ana olmaq.

> Mən yenə də deyirəm ki. qızları erkən ərə vermək bizim kəndimizdə adətdir. Onlar nə təhsil alacaq, nə də işləyəcəklər. Onlar evdə nə edəcəklər? Qoy ərə getsinlər.
> (P34. Nardaran)

### 7.1.4 Din

Bir çox məlumat verənlər ənənə ilə dini dəyərlər arasında əlaqəni qeyd etmişlər. Sosioloq və qadın təşkilatı fealı Həqiqət Məmmədlinin sözlərinə görə: "Güclü dini amillər olan yerlərdə, məsələn, Masallı zonasında çoxlu sayda erkən nikahlar olur".

Lakin Azərbaycan cəmiyyətində dindarlıq dərəcəsi mübahisəli məsələdir. Sovet dövründə onilliklər ərzində Azəbaycan cəmiyyəti ateizmə və ya ən yaxşı halda aqnostisizmə meyl etmişdir. Buna görə, bir çox məlumat verənlər özü-özlüyündə dini amilləri erkən nikahlar üçün ikinci dərəcəli amil kimi hesab edirlər. Onlar qeyd edirdilər ki, adət-ənənələr erkən nikahların olmasına səbəb olan əsas amildir. Lakin insanlardan bu ənənələrin kökü haqqında soruşduqda onlar dinə istinad edirlər.

Digər tərəfdən, cəmiyyətin bəzi dairələrində dindarlığın artdığını müşahidə etmək olar. Bu, adətən, Azərbaycanın qərbləşməsi və köhnə dəyərlərin dəbdən düşməsinə cavab kimi baş verir. Bu cür dindarlıq və mühafizəkarlıq nadir hallarda əvvəlki nəsillərdən qalmış miras olur. Əksər hallarda, bunun səbəbi müasir cəmiyyətdə dəyərlərin ucuzlaşmasından qaçmaq cəhdidir.

Ümumi anlayış odur ki, İslam erkən nikahlara icazə verir. Bu, İslam və Şəriətin çox səthi və ənənəvi qavranmasını üzə çıxarır. Lakin Şəriət Qanunu nikah üçün dəqiq yaş müəyyən etmir. Bu qanun əqli yetkinlik və ya sağlam mühakimə standartını nəzərdə tutur. Cinsi yetkinlik və fiziki qüvvəyə çatmaqla digər şəxslə həyat qurma bacarığı arasında aydın fərq mövcuddur.

Qurana görə, evlilikdə həm ər, həm də arvad maariflənmiş və kamil olmalıdır. Bu isə erkən nikahlarda mümkün deyil.[27] Məlumat verənlərin çoxu qeyd etmişdi ki, İslamda təhsilə böyük önəm verilir və orada uşağın erkən evlənməsinə deyil, təhsil almasına çağırış vardır".

Mollaların yeniyetmələr üçün bağladığı kəbin haqqında sual verdikdə, məlumat verənlər İslam doqmalarının düzgün təfsir edilməməsini və mollaların nadanlığını günahlandırırdılar. Müsahibə götürülmüş teoloqlardan biri vurğuladı ki, İslamda kəbinlə bağlı xüsusi göstərişlər vardır və orada ərin öz ailəsinə görə məsuliyyət daşıdığı ciddi qeyd edilir. "Bu prinsipə görə kişi ömrünün qalan hissəsində arvadı və uşaqlarını dəstəkləməli və onlara baxmalıdır, lakin bu məsələlər kəbin kəsən mollalar tərəfindən nikaha daxil olanlara nadir hallarda çatdırılır."

> Azərbaycanda bir adət vardır ki, əgər qıza oğlan "toxunubsa" (yəni yaxın təmas, ünsiyyət və s.),qız həmin oğlana ərə getməlidir.
> (MFG.21-24. Abşeron, Kürdəxana)

> Elə ailələr vardır ki, onlar erkən nikahları mənfəət və pul əldə etmək vasitəsi hesab edirlər. Buna görə onlar qızlarını varlı, qızdan 10-15 yaş böyük adamlara ərə verirlər. Bu üsul maliyyə çətinliklərindən çıxmaq üçün bir yol hesab edilir.
> (FGF.21-24. Bakı)

### 7.1.5 Qadının ailədə tabeçiliyi

Yuxarıda qeyd edildiyi kimi Azərbaycanda ailə strukturu patriarxal modelə əsaslanır. Burada kişinin güclü dominantlığı və qadının dəqiq müəyyən edilmiş rolu vardır. Bu rola görə, qadından öz ərinə tam tabe olması tələb olunur. Beləliklə, qızın yeniyetmə yaşında əldə edə biləcəyi müstəqil "mən" hissi arzuolunan deyildir. Gəlin nə qədər cavan olsa, onu müvafiq tabeçi davranışa salmaq bir o qədər asan olar.[28]

---

27 Bax Quranın ayələri: "Yetimləri nikah yaşına çatıncaya qədər sınayın. Əgər ağla dolduqlarını (həddi-buluğa çatdıqlarını) hiss etsəniz, mallarını özlərinə qaytarın. Böyüyəcəklər (böyüyən kimi mallarına sahib olacaqlar) deyə, o malları israf edib tələm-tələsik yeməyin. Zəngin olan (qəyyum) o mala toxunmasın, kasıb isə qəbul olunmuş qayda üzrə (ehtiyacı olduğu qədər, çəkdiyi zəhmətin əvəzi miqdarında) yesin. Yetimlərin mallarını özlərinə qaytardığınız zaman yanlarında şahid tutun! Haqq-hesab çəkməyə Allah kifayət edər!"[Ən-Nisə' (Qadın); 6-cı ayə]; İslamda uşaqlar. Onlara baxılma, onların inkişafı və müdafiəsi. Əl-Əzhar Universiteti Əhalinin Araşdırılması və Öyrənilməsi üçün Beynəlxalq İslam Mərkəzi, UNICEF, 2005, səh. 9.

28 Erkən nikah. Uşaq ər/arvad..., səh. 7.

Azərbaycanda erkən nikahlar ilə bağlı sorğu aparılmış hallarda qızların orta yaşı 16.1, onların ərlərinin orta yaşı isə 24.4 (ərlərin yaşı 16-32 arası). Beləliklə, orta yaş fərqi 8.3 ildir. Halların 34%-də (sorğu edilmiş hər üç evlilikdə), ərlə arvad arasında yaş fərqi 9 yaşdan çox idi. Ərlə arvad arasında yaş fərqinin 5 ildən artıq olmadığı hallar yalnız 18% təşkil etmişdi.

Qeyd etmək lazımdır ki, ərlə arvadın arasındakı yaş fərqinin böyük olması bərabər partnyorluğa əsaslanan sabit münasibətlər üçün əlverişli deyil. Evlilikdə səlahiyyətlərin qeyri-bərabər bölünməsi ərlə arvadın yaş fərqinin böyük olduğu halda daha da dərinləşir.[29]

> Oğlanlar ona görə gənc qızlarla evlənirlər ki, öz dediklərini diktə etmək istəyirlər. (FFG.21-24. Abşeron)

# 7.2 Sosial və iqtisadi səbəblər

Müasir tarixdə SSRİ-nin dağılması, müstəqilliyin əldə edilməsi, iqtisadi sistemin dağılması və Ermənistanla müharibə yer almış Azərbaycan cəmiyyəti çox vaxt evliliyə ailə quruculuğu strategiyası və ya iqtisadi əməliyyat kimi baxır. Bu standartlara görə, evlilik iqtisadi şəraitin yaxşılaşdırılması və ya sosial iyerarxiyanın gücləndirilməsinə aparmalıdır. Hətta azyaşlı uşağın evləndirilməsilə buna nail olmaq planlaşdırılırsa, valideynlərin çoxu hesablanmış məqsədli evliliklərə razılıq verməkdə tərəddüd etmirlər.

## 7.2.1 Yoxsulluq

Məlumat verənlərin çoxunun dediyinə görə, çətin iqtisadi vəziyyət, xüsusilə qaçqın və məcburi köçkünlər arasında erkən nikahların xeyli artmasına töhfə verir.

Məlumat verənin sözlərinə görə "iqtisadi problemlər insanları iqtisadi sağqalma və uyğunlaşma strategiyası qurmağa məcbur edir. Bu cür evliliklər sağqalmanın ən effektiv üsullarından biridir. Yoxsul ailələr qızlarını saxlamaq və oxutmaq iqtidarında olmadıqları üçün onları mümkün qədər tez ərə verməyə çalışırlar.".

Yeniyetmə qızlar özlərini təmin edə bilmirlər, çünki yaşları az olduğundan onlar işləyə bilmirlər. Ona görə, yoxsulluqla mübarizə aparan valideynlər qızlarını mümkün qədər tez ərə verirlər ki, onların maliyyə məsuliyyəti yeni qurulmuş ailənin üzərinə düşsün.

29 Yenə orada.

Mənim səkkiz qızım var, lakin qızlarımı almaq üçün oğlan yoxdur; onların hamısı iş və daha yaxşı həyat axtarmaq üçün gediblər.
Biləsuvardan olan qadın

### 7.2.2 Qızın maliyyə gələcəyinin qeydinə qalınması

Erkən nikahların baş verməsinin ən çox yayılmış səbəbi təkcə dərin yoxsulluq deyildir. Bu səbəb valideynlərin öz qızlarını onun və ailənin gələcək rifahını təmin edəcək ən yaxşı oğlana ərə verməkdir.

"Əslində, evlilik öz tələb və təklif qaydaları olan bazarda bağlanmış sazişdir", - Əli Abbasov, gender məsələləri üzrə ekspert. "Valideynlər yaxşı imkanları olan ailə ilə qohum olmaq istəyirlər. Qızlarını ərə verəndə onlar iqtisadi məsuliyyəti yeni ailənin üzərinə qoyurlar. Bu, qızın qeydinə qalma və onun yaxşı gələcəyinin təmin edilməsi istəyi kimi izah edilir.

Gəlinlə bəyin ailələrinin maddi rifahının müqayisə edilməsi Azərbaycanda erkən nikahların müəyyən edilməsində iqtisadi amillərin oynadığı rola işıq salır.

Halların 37%-də qızların ərə getdikləri oğlanların ailələri daha varlı idi; 49%-də ailələrin vəziyyəti eyni idi və yalnız 14% hallarda qızın ailəsinin durumu oğlanınkından daha yaxşı idi. Beləliklə, erkən nikahlar daha böyük ehtimalla daha varlı olan oğlanlarla daha kasıb olan yeniyetmə qızlar arasında olur.

Valideynlər iddia edirlər ki, onların yeganə amalı qızlarının xoşbəxtliyidir və ənənəvi qadın xoşbəxtliyi yaxşı rifahı olan ailədə yaşamaqdır. "Əsas ideya valideynlərin öz uşaqlarının həyatını yaxşı təşkil etmələridir. Ailə başçısının əsas vəzifəsi uşaqların maddi rifahını təmin edəcək ən yaxşı yol tapmaqdır" - Arzu Cəfərli, Lənkərandan QHT fealı.

Diqqət yetirin ki, azyaşlı qızlar ərə gedərkən çox vaxt iqtisadi motivlərlə hərəkət edirlər. Buna baxmayaraq, dolayısıyla belə müəyyən olundu ki, evliliklər azad seçim nəticəsində baş verəndə qızlar daha çox imkanı olan oğlanları seçirdilər (21%-ə qarşı 47%).

Qrafik 10:
Bəyin ailəsinin iqtisadi vəziyyəti




Məlumatlar 488 respondentin sorğusu əsasındadır

Oğlanlar elə qızlarla evlənmək istəyirlər ki, onlarla gələcəkdə problemləri olmasın. Oğlanlar belə hesab edirlər ki, öz proqressiv düşüncələri olan, müstəqil fikirləşən və öz fikrini ifadə edən qızla yaşamaq çətin olacaq
(FFG.18-20. Lənkəran)

İndi iqtisadi imkanı yaxşı olan ailələr vardır. Lakin onlar öz azyaşlı qızlarını ərə getməyə məcbur edirlər. Onlar qızlarını öz dostları və ya yoldaşlarının ailələrinə vermək istəyirlər. Bu yolla, onlar öz sosial şəbəkələrini genişləndirmək istəyirlər. Onlar öz qızlarını erkən ərə verməklə təsir sahələrini genişləndirmək istəyirlər.
(FFG, yaş qrupu: 21-24, Bakı)

### 7.2.3 Demoqrafik problemlər

Məlumat verənlərin böyük əkseriyyəti demoqrafiyanın təsirini qeyd etmişdir.

Azərbaycanda baş verən iqtisadi keçid prosesi kişilərin və qadınların yerdəyişmə imkanları arasında kəskin fərqləri aşkar etdi. Qeyri-sabit əmək bazarı və kənd yerlərində az iş imkanları kişilərin böyük hissəsinin Rusiya və digər ölkələrə getməsinə səbəb oldu. Buna görə, kənd yerlərində kişilərin sayı kəskin aşağı düşdü və hal-hazırda yaşı 25 və daha çox olan kişilərin sayı qadınların sayından azdır. Beləliklə valideynlər qızlarını ərə vermək üçün əllərindən gələni edirlər.

Bu vəziyyətdə, ümumi qavrayışa görə, qızın uzun müddət gözlədiyi oğlanı seçmək imkanı olmur. O, qapını birinci döyənə razılığını verməli olur, çünki ona evlənmə təklif edəcək başqa bir adamın olması ehtimalı çox azdır.

> Mənim ərə getməm valideynlərimin bizə yaxın olan ailə ilə qohum olma istəyindən irəli gəldi.
> 14 yaşında ərə verilmiş qadın (V34. Abşeron)

### 7.2.4 “Böyük yuvanın” vacibliyi

Məlumat verənlər yekdil olaraq qeyd edirlər ki, Azərbaycan ailələrində evlilik həmişə birinci yerdə durur və bu, sosial baxımdan həm valideynlər, həm də uşaqlar (xüsusilə qızlar üçün) çox vacib bir hadisədir. Ərə getdikdə gənc qadın guya öz sosial və fərdi statusunu artırır; qadın nə qədər tez ərə getsə, onun statusunun artması da bir o qədər tez baş verər.

Müsahibələrin təfərrüatlı təhlilləri göstərir ki, bir çox hallarda valideynlərin öz qızlarını dost və tanışlara ərə verməklə qohum olmaq arzusu qızları qohum və ya həmyerli ilə ailə qurmağa vadar edir.

Gender məsələləri üzrə ekspert Yelena Qasımovanın dediklərinə görə, "Erkən nikahlar, xüsusən yeniyetmə qızların ərə verilməsi ailənin sabitliyi və hətta rifahı üçün göstərici kimi qələmə verilir. Bu ailəyə isə "böyük yuva" deyə istinad edilir. İyerarxik şəkildə qurulmuş "ailə səviyyələri" olan bu patriarxal ailə növü və uzaq qohumlarla əlaqələr Azərbaycan üçün səciyyəvidir. Bu, qohumbazlıq və klan tipli münasibətlər üçün əsas yaradır. Hal-hazırda, evlilik istəyi yeni evlənənləri "böyük yuvanın" imkanları hesabına sosial zəmanətlərlə təmin etmək və onların həyatlarının yeni tikilmiş binalarda ev almaqdan tutmuş ali təhsil almağa və ya layiqli iş tapmağa qədər müxtəlif tərəflərini daha da asanlaşdırmaq imkanları ilə müəyyən olunur".

> Mənim ərim qızımızı ərə verməyə razı deyildi. Nikahın təşkilatçısı mən idim. Biz məcburi köçkünlər idik. Bizim 4 uşağımız var idi. Yalnız mənim ərim işləyirdi və bizim çoxlu sayda maliyyə çətinliklərimiz var idi. Mən fikirləşdim ki, erkən evlilik bizim yükümüzü azalda bilər.
> (P22. Abşeron, Xırdalan, məcburi köçkün)

# 8. ERKƏN NİKAHLARIN NƏTİCƏLƏRİ

Bir azyaşlı qız Sutamurdov kəndində ərə verilmişdi. Qız hamilə qaldı. Müayinə göstərdi ki, onun əkiz uşağı olacaq. Tezliklə onun ailəsi gördü ki, qız ağrıya dözə bilməyəcək, onun bəzi qan damarları artıq partlamışdı. Qızı Bakıya götürdülər, lakin həkimlər onu qəbul etmədilər və o, Lənkərana döndü. Bir gün qız qan gölməçəsinin içində tapıldı. O, uşaqlarını dünyaya gətirə bilmədi. Onun ailəsi yas içində idi.
(FFG. 40-55. Lənkəran).

Tez evlənənlə tez oyanan uduzmaz.
Azərbaycan atalar sözü

## 8.1 Ana və gələcək uşağın sağlamlığının zədələnməsi

Bir çox digər ölkələrdə olduğu kimi, Azərbaycanda ərə getdikdən sonra tezliklə uşaq dünyaya gətirmək qadının sosial statusu üçün çox vacibdir. Ailə tezliklə uşaq dünyaya

gətirməklə bağlı yeni evlənənlərə güclü təzyiq göstərir. Erkən nikahlar da bu baxımdan fərqlənmir.

Erkən hamiləlik və uşaq doğmanın təhlükələri müvafiq şəkildə sənedləşdirilmişdir: artan ölüm, erkən doğuş, doğuş zamanı ağırlaşmalar, uşağın az çəkili olması və yeni doğulan uşağın sağ qalma ehtimalının az olması ilə bağlı təhlükələr.[30]

Bütün dünyada 15-19 yaşlı qızlar arasında ölüm hallarının əksəriyyəti hamiləliklə bağlıdır (ərdə və ərdə olmayan). Bu yaşda olan qadınların 20-24 yaşda olan qadınlarla müqayisədə hamiləlikdən ölmək ehtimalı 20-200% daha çoxdur. Yaşı 15-dən az olan qadınlar isə 20 yaşlarında olan qadınlara nisbətən 5 dəfə daha çox ölüm ehtimalı ilə üzləşirlər.[31]

Sübutlar göstərir ki, Azərbaycanda çox genc anaların körpələri arasında ölüm səviyyəsi onların bir qədər daha çox yaşı olan həmcinslərinə nisbətən bəzən iki dəfə daha çox olur (İcraçı xülasəyə bax).[32] Yeniyetmə analarda daha yaşlı analardan fərqli olaraq, körpələrin azçəkili olma ehtimalı daha yüksəkdir. Az çəkili körpələrin ölüm ehtimalı normal çəkili körpələrə nisbətən 5-30 dəfə çoxdur.[33] Əgər ananın yaşı 18-dən azdırsa, onun uşağının ilk il ərzində ölmə ehtimalı yaşı 19-dan çox olan ananın doğduğu uşaqla müqayisədə 60% çoxdur.[34]

Baxmayaraq ki, statistika erkən hamiləlik və uşaq doğmanın mənfi nəticələrini və təhlükələrini aydın şəkildə göstərir, Azərbaycan cəmiyyətində yeniyetmələrin uşaq dünyaya gətirməsi ilə bağlı bir çox stereotiplər vardır. Burada inanırlar ki, cinsi yetkinlik və yeniyetməlik uşaq dünyaya gətirmək üçün yetkin yaş dövründən daha yaxşıdır.

Tədqiqat zamanı əsas məlumat verənlər, məsələn həkimlər, məktəb psixoloqları və müəllimlər erkən nikah təcrübəsini dəstəkləyən çox yayılmış və yanlış (tibb nöqteyi-nəzərdən) stereotiplərin geniş yayıldığını qeyd etdilər. Belə inanc vardır ki, erkən ana olmaqda heç bir mənfi cəhət yoxdur, əksinə – yeniyetmə qızlar, məsələn 25 yaşlı qızlara nisbətən, daha məhsuldar və ana olmaq üçün daha əlverişli hesab edilirlər. Məlumat verənlər həmçinin qeyd etmişdilər ki, əhalinin əksəriyyətinin erkən nikahların mənfi təsirləri haqqında çox az məlumatı vardır.

Yeniyetmələr arasında uşaq doğma haqqında məlumatlar, eləcə də yaşı 18-dən az olan analar və onların körpələrinin ölüm səviyyəsi haqqında məlumatlar azdır. 2001-2006-cı illər ümumi körpə ölümü səviyyəsi hər 1000 diri doğuşa 43 nəfər idisə, 2007-ci ildə ana

30 Senderowitz, Judith (1995), Adolescent Health: Reassessing the Passage to Adulthood, World Bank Discussion Paper no. 272,Vaşinqton.
31 'Adolescent Sexuality', Safe Motherhood Fact Sheet (2000), ÜST Cenevrə.
32 BMT (1989), Adolescent Reproductive Behavior: Evidence from Developing Countries, Vol. II., BMT-nin Əhali Tədqiqatı No. 109/Add.1., Nyu York.
33 Second World Situation Report (1992), ACC/SCN, Cenevrə.
34 UNICEF (1994), Too Old for Toys, Too Young for Motherhood, Nyu York.

ölümü səviyyəsi hər 1000000 diri doğuşa 35.5 nəfər idi. Bundan əlavə, son bir neçə il ərzində ölüm göstəricilərinin artım meylləri var, baxmayaraq ki, ölkədə iqtisadi artım və nisbi siyasi sabitlik hökm sürür. Yeniyetmələr arasında uşaq doğma hallarının artması Azərbaycanda körpə və ana ölümü səviyyəsinin artmasının bir səbəbi ola bilər. AzDSS məlumatlarına görə, Azərbaycanda, ilk ad günü qeyd edilənədək körpənin ölüm ehtimalı yaşı 20-dən az olan anaların uşaqları üçün yaşı 20-29 olan anaların uşaqlarına nisbətən daha yüksəkdir.

Bundan başqa, ölkədə müşahidə olunan əhəmiyyətli iqtisadi artım və nisbi siyasi sabitliyə baxmayaraq son bir neçə il ərzində ölüm göstəricilərinin artması nəzərə çarpır. Yeniyetmə qızlar arasında uşaq dünyaya gətirmək hallarının artması Azərbaycanda körpə və ana ölümünün artmasının bir səbəbi kimi səciyyələndirilə bilər.

Kənd yerlərində uşaq doğan yeniyetmələrin faizi 4, şəhər yerlərində isə 10 təşkil edir. Bölgələr üzrə yeniyetmələrin uşaq doğma səviyyəsi müxtəlifdir və Bakı-Abşeronda 3%-dən Lənkəranda 12%-dək çeşidlənir.[35]

Qrafik 11:
Azərbaycanda uşaq ölümü səviyyəsi, 2000-2007




Mənbə: DSK www.azstat.org

35 Demoqrafik və Sağlamlıq Sorğusu..., Sitat., səh. 51.

Qrafik 12:
Azərbaycanda ana ölümü səviyyəsi, 2000-2007




Mənbə: DSK www.azstat.org

# 8.2 Azalmış təhsil alma hüququ

Erkən nikah şübhəsiz ki, yaşlı uşaqların təhsil hüququnu pozur. Bu təhsil isə onların şəxsi inkişafı, böyük həyata hazırlaşması və onların öz ailələrinin və cəmiyyətin rifahına səmərəli töhfə vermələri üçün vacibdir.[36] Yeniyetmə qızlar ərə gedən kimi ya dərhal məktəbi atırlar, ya da yalnız hal-hazırda oxuduqları təhsil səviyyəsini bitirirlər. Ərdə olan qızların yalnız 2%-i təhsilinə davam edir. Məktəbi atmanın yüksək səviyyəsinin qız və qadınlar üçün mənfi nəticələri vardır, çünki bu cür vəziyyət onların sosial uyğunlaşma imkanlarını azaldır və onları valideynlərindən və ya ərlərindən tamamilə asılı vəziyyətə salır. Bunun həm də cəmiyyət üçün mənfi təsiri vardır, belə ki, cəmiyyətin təhsil səviyyəsinin aşağı olması onun inkişafına və rifahına mane olur.

36 Early marriage. Child spouses..., Sitat., səh. 11.

Qrafik 13:
Ərə getdikdən sonra qızlar təhsillərini davam etdirirlərmi?




Məlumatlar 488 respondentin sorğusu əsasındadır

Erkən nikah hallarının böyük əksəriyyətində (86%) göründüyü kimi qadınlar ərə getdikdən sonra öz təhsillərini davam etdirmirlər. Ərə gedən vaxt onlardan bəziləri artıq təhsillərini başa vurmuş olurlar, halbuki onlardan çoxu təhsildən imtina etməli olmuşdu. Bir çox hallarda, gənc xanımlar orta məktəb təhsillərini dayandırmalı olmuş, bəzi hallarda isə texniki və ya ali təhsillərini tamamlaya bilməmişlər.

Lakin Azərbaycan cəmiyyətinin bəzi təbəqələrinin ümumi qavrayışında qızların təhsil alma vacibliyi fikrinə bir qədər xələl gəlmişdir.

> Anam deyir ki, mənə ərə getmək lazımdır. Məktəbə getməyimə mənə icazə vermir. O deyir ki, oxumuş qızların şəhərdə həddən artıq çox azadlığı olur və onlar pis hərəkətlər edirlər. Ona görə, müvafiq oğlan olsa, o, məni ərə verəcək.
> (FFG.13-15. Ağstafa).

Bir çox valideynlərin qızın ev işləri görmə bacarığını onun məktəbdə aldığı təhsilindən üstün dəyərləndirirlər. Müəyyən mənada bu, o faktla bağlıdır ki, Azərbaycan cəmiyyəti patriarxaldır, qadının ərə getməsi və ana olması mütləqdir, vacib işdir və qız bu işə müvafiq olaraq hazırlanmalıdır. Digər tərəfdən, qızın bakirəliyinə görə qorxu o dərəcədə güclüdür ki, valideynlər məktəb mühitini qadın paklığı üçün birbaşa təhlükə hesab edir. Onlar qızın həyatını mümkün qədər məhdud çərçivəyə salmaq və sonra ərə verməyə çalışırlar.

Xüsusən Abşeron və Lənkərandan olan fokus qrupu iştirakçılarının çoxu (13-17 yaşlı qızlar) inanırlar ki, valideynləri onları oxutdurmaq əvəzinə ərə verməyə üstünlük verirlər. Evlənəndə oğlan və qızların təhsil səviyyəsini müqayisə edəndə onların təhsil almalarına tətbiq edilən ikili sosial standartlar tam aşkar olur. Erkən nikaha daxil olan qızların yalnız üçdə biri orta təhsilini bitirmişdi, bəziləri isə yalnız ibtidai sinfi bitirmişdi (6-cı sinif). Eyni zamanda, yeniyetmə qızla evlənən oğlanların 70%-dən çoxu orta təhsilini bitirmişdi.

Qrafik 14:
Erkən nikah zamanı qadın və kişilərin təhsil səviyyəsi




Məlumatlar 488 respondentin sorğusu əsasındadır

Ərlə arvad arasında böyük təhsil fərqi partnyorluq və bərabərlik əsasında olan münasibətlərin qurulması üçün əlverişli deyildir. Bundan əlavə, ərlə arvad arasında olan qeyri-bərabərlik bir çox nikahlarda onların arasında olan yaş fərqinin çox olması ilə daha da dərinləşir. Təhsili olmayan yeniyetmə ev xanımları məişət zorakılığına məruz qalır və onlar peşəkar baxımdan inkişaf etmədən məhrum olurlar.

2006-cı ildə keçirilmiş Azərbaycan Demoqrafik və Sağlamlıq Sorğusunda verilmiş məlumatlara görə, qadının təhsili nə qədər yüksək olarsa, onun zorakılığa məruz qalma ehtimalı bir o qədər aşağı enir. Məsələn, ibtidai və ya bundan az təhsil səviyyəsi olan qadınların 18%-i, orta ixtisas təhsilindən daha yüksək təhsili olan qadınların isə yalnız 9%-i fiziki zorakılığa məruz qalmışlar.[37]

# 8.3 Kişilərin dominantlıq etdiyi ailə modeli və evlilik nəzarəti

2006-cı il Azərbaycan Demoqrafik və Sağlamlıq Sorğusunun (AzDSS) bir hissəsi kimi Qadının Gücləndirilməsi və Demoqrafik və Sağlamlıq Nəticələri üzrə tədqiqat zamanı aydın oldu ki, ailə məsələləri ilə bağlı qərar qəbul edilməsi baxımından 15-19 yaşlı qadınlar ən çox məhdudiyyətli qadınlardır. Qadın respondentlərdən özlərinin sağlamlığı, ev üçün əsas əşyaların alınması və ailəvi dostlar və ya qohumların evlərinə qonaq getməklə bağlı qərar qəbul edib-etməmələri soruşulmuşdu. 15-19 yaşlı qadınların yalnız 21%-i bu cür məsələlərin həllində qərar qəbul edilməsi prosesində iştirak etmişlər. [38]

> Bəzi qızlar oxumurlar, əvəzində onlar ərə getmək istəyirlər.
> (FFG.13-17. Lənkəran)

37 Demoqrafik və Sağlamlıq Sorğusu, Azərbaycan 2006, Evdə Zorakılıq, Sitat., səh. 213.
38 Demoqrafik və Sağlamlıq Sorğusu, Azərbaycan 2006, Qadınların gücləndirilməsi, səh. 197.

Qrafik 15:
Qərar qəbul edilməsində qadınların iştirakı




Mənbə: 2006 Azərbaycan Demoqrafik və Sağlamlıq Sorğusu

Gənc qadınların qərar qəbul etmə prosesində bu cür məhdudlaşdırılması təkcə onların gücləndirilməsi baxımından deyil, həmçinin onların sağlamlığı baxımından da mənfi haldır. Tədqiqatçılar qadınların qərar qəbul edilmə prosesində iştirakı ilə onların evdə zorakılığa məruz qalması arasında bağlılığın olduğunu müəyyən etmişlər. Qərar qəbul edilməsində az iştirak edən qadınlar, onların ərləri tərəfindən məruz qaldıqları zorakılığa daha da tolerant idilər.[39] Bundan əlavə, qərar qəbul edilməsində iştirak etməyən qadınlar çox güman ki, reproduktiv sağlamlıq baxımından da az lazımi qulluq görürlər.

Qrafikdə təsvir edildiyi kimi, qərar qəbul edilməsində iştirak etməyən qadınlar (15-19 yaşlı qadınların 79%-i) çox az hallarda lazımi reproduktiv tibbi xidmətlə əhatə olunurlar. Bu isə ana və uşaq sağlamlığı üçün çox vacibdir.

Növbəti bəndlərdə cinsi yetkinliyə yeni qədəm qoymuş ananın uşaq dünyaya gətirməsinin ana və uşaq üçün nə dərəcədə təhlükəli olması təsvir edilir. Hətta bu yeniyetmə qızların öz ərləri tərəfindən ayrıseçkiliyə məruz qalmasını və müvafiq reproduktiv sağlamlıq xidmətindən məhrum edilməsini bilmədən belə, bu təhlükələr həddən artıq ciddi təhlükələrdir.

Evlilikdə zorakılıq barədə ilk göstərici evlilik zamanı nəzarətin dərəcəsidir. Kişilər tərəfindən qadınları ciddi nəzarət altında saxlamaq və onları izləmək cəhdi ən vacib erkən işarələrdən biridir, eləcə də münasibətlərdə zorakılıqla güclü surətdə mütənasibdir. Nəzarət davranış-

39 Demoqrafik və Sağlamlıq Sorğusu, Azərbaycan 2006, Qadınların gücləndirilməsi, səh. 206.

Qrafik 16:
Qadınların qərar verməde iştirakına görə reproduktiv sağlamlıq xidmətlərindən istifadəsi




Mənbə: 2006 Azərbaycan Demoqrafik və Sağlamlıq Sorğusu

ları özünü həddən artıq sahibkarlıq hissində, qısqanclıqda və qadını onun ailəsindən və dostlarından təcrid etmə cəhdlərində büruzə verir.

Azərbaycan Demoqrafik və Sağlamlıq Sorğusu (AzDSS) üçün aparılmış tədqiqat 15-19 yaşlı qadınların evlilik nəzarətinə ən çox məruz qaldıqlarını aşkar etdi. Məsələn, bu qadınların 89.4%-i qeyd etmişdir ki, partnyorları hər zaman onların harada olduqlarını bilməyi israr edir.

Ərlərin öz arvadlarını nə dərəcədə nəzarətdə saxlamalarını müəyyən etmək üçün ərdə olan və ya rəsmi olaraq ərdə olan qadınlardan AzDSS zamanı onların ərlərinin aşağıdakı nəzarət davranışlardan hansının həyata keçirdiyi barədə sual soruşulmuşdu: (1) başqa kişi ilə danışanda qısqanır və ya qəzəblənir; (2) sədaqətli olmamaqda günahlandırır; (3) qız dostları ilə görüşməyə icazə vermir; (4) ailəsilə ünsiyyəti məhdudlaşdırmağa çalışır; (5) həmişə harada olduğunu bilmək istəyir; və (6) ona pul etibar etmir. Bu davranışların toplu halda təzahürü onların ayrı-ayrılıqda təzahüründən daha vacib olduğu üçün ərləri tərəfindən ən az üç bu cür davranışa məruz qalan qadınlar aşağıda göstərilmişlər.[40]

40 Sitat., səh.217.

Qrafik 17:
Ərlər tərəfindən nəzarətin səviyyəsi




Mənbə: 2006 Azərbaycan Demoqrafik və Sağlamlıq Sorğusu

Gənc qadınların yalnız az bir hissəsi (4.2%) heç bir evlilik nəzarətinə məruz qalmamışdı, amma yaşı 15-19 olan qadınların ikisindən biri yuxarıda qeyd edilmiş davranışların ən azı üçü ilə üzləşmişdi. Məsələni daha da pisləşdirən odur ki, yeniyetmə qadınlar çox güman ki, cinsi yaxınlıq zamanı da güc və zorakılıqla üzləşirlər.[41]

41 Sitat., səh. 214.

# 8.4 Təcrid, ailədə zorakılıq, atılma

Evliliklərində problemlərlə üzləşən qadınlar kəskin tənhalıq və təcriddən əziyyət çəkirlər. Ənənəvi ailə sistemi üzündən qızlar qohumlarından ayrı düşürlər və ərlərinin ailəsi ilə yaşamağa məcbur edilirlər. Buna görə əgər qadın evliliyində problemlə üzləşirsə və ya ailə daxilində zorakılığa məruz qalırsa, ona dəstək verən çətin ki, bir nəfər olsun.

Bundan əlavə, yeniyetmə qadınlar onların vəziyyətinə dəstək verən insanlarla əhatə olunmurlar.[42] Ən təsviri nümunə arvadın döyülməsinə olan sosial münasibətdir. 2006-cı ildə Azərbaycan Demoqrafik və Sağlamlıq Sorğusu arvadın döyülməsinə qadın və kişilərin münasibəti barədə məlumat toplamışdır. Kişilərdən və qadınlardan soruşulmuşdu ki, aşağıdakı bir sıra vəziyyətlərdə ərin arvadını döymək haqqı varmı: əgər arvad yeməyi yandırıbsa, onunla mübahisə edirsə, ona demədən harasa gedirsə, uşaqlara pis baxırsa və ya cinsi əlaqəyə girməkdən imtina edirsə. Aşağıdakı qrafikdə zorakılığı əsaslandırmaq üçün yuxarıda göstərilmiş əsasların ən azı birilə razılaşan qadınların və kişilərin sayı göstərilir. Yaşlı qadınlara nisbətən 15-19 yaşlı qadınlar kişinin istənilən halda arvadını döyməyə haqqı olmadığını bildirmişlər, amma eyni yaşda olan kişilər, eləcə də 20-24 və 25-29 yaşında olan kişi qrupları (həmin qadınların ərləri) belə hallarda kişinin arvadını döymə haqqı olduğunu qeyd etmişlər.[43] Yaşı 19-dan çox olan qadınlar arasında ərin zorakı davranışlarına bəraət qazandıranların sayının artdığına görə belə fikirləşmək olar ki, qayınanalar öz oğullarının gəlinlərinə qarşı olan zorakılıqlarına bəraət qazandırırlar.

> Onun seçimi yoxdur. Onun xoşbəxt və ya razı olmasından asılı olmayaraq o, ərinin ailəsilə yaşamalıdır. Bizdə boşanma sözü yoxdur.
> (P34. Abşeron, Nardaran).

Cəmiyyətin fikri belədir ki, ərə getmiş qız əsas həyat məqsədinə nail olur və etməli olduğu işləri həyata keçirir: analıq və ailə üzvlərinə qulluq etmək. Ona görə ailə həyatlarından razı olmasalar belə, yeniyetmə qızlar hələ də ərdə qalırlar. Bu hallar tədqiq edilmiş halların 11%-ni təşkil edirdi.

42 Erkən nikahlar. Uşaq ər/arvad, Sitat., səh. 9
43 Demoqrafik və Sağlamlıq Sorğusu, Azərbaycan 2006, Qadınların gücləndirilməsi, Sitat., səh. 199-201.

Qrafik 18:
Xüsusi səbəblərə görə arvadını vuran və ya döyən kişilərə beraət qazandıran respondentlərin faizi




Mənbə: 2006 Azərbaycan Demoqrafik və Sağlamlıq Sorğusu

Ailə zorakılığı hallarının həqiqi miqyasını müəyyən etmək çətindir. Qadınlar ailədə zorakılıq hallarını açıqlamaya bilərlər. Bu cür həssas məsələlər barədə məlumat toplamaq üçün müsahibə aparanla respondent arasında etibar yaradılmalıdır, bu isə həmişə mümkün deyildir.[44] Bu problemin ətrafında olan gizlilik səviyyəsini başa düşmək üçün onu demək kifayətdir ki, fiziki və ya cinsi zorakılığa məruz qaldıqlarını etiraf etmiş qadınların 42%-i bu haqda heç vaxt heç kimə məlumat verməmişlər və onların 57%-i heç vaxt kömək axtarmamışdır.

Qohumları və icmaları tərəfindən qəbul ediləcəyini bilsəydilər, qadınların çoxu öz ərlərini xeyli əvvəl tərk etmiş olardılar. Onların yalnız psixoloji deyil, həm də maddi yardıma ehtiyacları var. Yuxarıda qeyd edildiyi kimi, yeniyetmə yaşında ərə gedən qadın aşağı təhsilli olduğuna görə sosial uyğunlaşma problemləri yaşayır.

44 Demoqrafik və Sağlamlıq Sorğusu, Azərbaycan 2006, Evdə zorakılıq, Sitat., səh. 211.

Mənim bacım ərindən 15 yaşında ayrılanda onun artıq 2 uşağı var idi. İlk uşağını doğanda onun 13 yaşı var idi.
(FFG.21-24. Abşeron)

Eynilə erkən nikahlar qeyri-sabitdir, boşanma və ya qadının atılması ilə nəticələnir, bunun isə təkcə qadın üçün deyil, həm də bu birlikdən dünyaya gəlmiş və sonradan tənha ananın böyütdüyü uşaqlar üçün mənfi nəticələri olur. Dünya üzrə aparılmış tədqiqatlar sübut edir ki, boşanmış cütlüklərin uşaqlarının sosial uyğunlaşması çətinləşir, beləki, uşaqlıqda əldə etdikləri mənfi təcrübə böyüyəndə onların özlərinin qurduqları ailələrə kölgə salır.

Boşanmağı mən istədim. Dediyim kimi mən sevmədiyim adama getmişdim. Bu insanla yaşadığım 11 il ərzində mən çoxlu sayda zorakılıq və təhqirlə üzləşmişdim. Mənim uşaqlarım normal həyatdan məhrum idilər.
17 yaşında ərə getmiş qadınla müsahibə (V43. Bakı)

Boşanma ilə nəticələnən erkən nikahların həqiqi sayını müəyyən etmək çətindir, çünki bir çox nikah birlikləri qızların yeniyetmə yaşında olmasına görə rəsmən qeydiyyata alınmamışdır.

Evliliklərin çoxu ilk uşaq dünyaya gələndən sonra qeydiyyata alınır. Baxmayaraq ki, sorğu aparılan zaman halların çoxunda (81%) cütlüklər artıq evlənmiş və artıq birlikdə yaşayırdılar, tədqiq edilmiş evliliklərin təqribən 18%-i boşanma ilə nəticələnmişdi.

Qeydiyyata alınmamış evliliklərin beziləri yerli mollaların yerinə yetirdikləri dini kəbin əsasında qurulmuşdu. Baxmayaraq ki, dövlətlə məscid arasında əldə olunmuş razılığa əsasən mollalar kəbini kəsməmişdən əvvəl bəylə gəlindən rəsmi nikah şəhadətnaməsini və ya yaşlarını təsdiq edən sənədləri tələb etməlidirlər, adətən, dini nikah mərasimində nişanlanan şəxslərin yaşlarının sənədləşdirilməsi həyata keçirilmir.

Bizim evliliyimiz molla tərəfindən kəbin vasitəsilə qurulmuşdu. O, mənim istəyimi soruşmadı. Onlar mənə bir kağız verdilər və onu imzalamağımı dedilər... Ərə gedəndən sonra mən ərimlə hətta bir il belə yaşamadım. Mənim oradakı həyatım çox pis idi.
15 yaşında məcburi qaçırılmış qız ilə müsahibə (V30. Ağstafa, kənd)

Qrafik 19: Uşaq nikahlarında boşanma tezliyi




Məlumatlar 488 respondentin sorğusu əsasındadır

Boşanmaların müsahibə olunanların inanclarına əsasən təhlili göstərir ki, erkən nikahlar ən çox Bakı-Abşeron zonasında baş verir (28%). Ağstafa, Lənkəran və Quba bölgələrində əldə edilmiş rəqəmlər müvafiq olaraq 20%, 13% və 0% təşkil edir. Heç şübhəsiz, bu rəqəmlər erkən nikahlarda həqiqi boşanma hallarının sayını əks etdirmir, lakin erkən nikahların Bakı-Abşeron və Ağstafa bölgələrində, Lənkəran və Quba bölgələrinə nisbətən daha dayanıqsız olduğu qənaətinə gəlməyə imkan verir.

> Mən cavan gəlin idim. Çox az şey bilirdim və çox təcrübəsiz idim. Yoldaşımın ailə üzvləri məni yaman incidirdilər. Onun yaşlı anası və bacıları məni qul kimi istismar edirdilər və əgər hansısa işin öhdəsindən gələ bilmirdimsə, məni hətta döyürdülər. Onlar məni çox bərk döyürdülər, xüsusilə başıma zərbələr vurudular.
> 15 yaşında qoşulub qaçmış gənc qadın (V16. Lənkəran).

Ailə birliklərinin dağılmasının əsas səbəbi evdə zorakılıqdır. Gənc qadınlar həm partnyorları, həm də qayınana və baldızları tərəfindən kobud rəftara məruz qalırlar.

Boşanma və ya atılma qadınları çox vaxt yoxsulluqa düçar edir, çünki, adətən, qadın uşaqlar üzərində himayəyə sahib olur. Əgər qız erkən ərə gedibsə, onun təhsil səviyyəsi aşağı olur və onun gəlir əldə etmə bacarıqları az olur. Beləliklə də, onun yoxsulluğu çox kəskin ola bilər.[45]

Evlilik rəsmi qeydiyyata alınmamış olanda vəziyyət hətta daha da çətinləşir və evlilik dağıldıqda ana uşaqları və özü üçün aliment tələb edə bilmir.

Ona görə, hal-hazırda sayının artması müşahidə olunan erkən nikahlar hallarını azaltmaq, həm də evlilik dağıldıqda ana və uşağı müdafiə etmək məqsədilə evliliklərin qeydiyyata alınması ilə bağlı daha ciddi qanunverici tələblər lazımdır (həmçinin dini kəbin əsasında olanlar üçün).

> Boşanmanı mənim ərim təklif etdi. (...) Bundan sonra mən uşaqlarımla birgə anam, qardaşım və bacımla bir yerdə qalırdım. Bizim vəziyyətimiz əvvəlki kimi yaxşı deyildi. Atam rəhmətə getdi və bizim gəlirimiz əvvəlkindən azdır.
> 16 yaşında ərə verilmiş gənc qadın. (V47. Abşeron, Nardaran)

45 Erkən nikahlar. Yeniyetmə ər/arvad..., Sitat., səh. 12

# 9. AZƏRBAYCAN ERKƏN NİKAHLARI: YEKUN VƏ TÖVSİYƏLƏR

Çoxlu sayda qüsurlarına baxmayaraq, sovet dövründə Azərbaycanda müəyyən formada gender bərabərliyi və emansipasiya sistemi təbliğ edilirdi. Təəssüf ki, ölkədə baş vermiş inkişaf və gedən demokratikləşmə prosesləri zamanı bu nailiyyətləri əldə saxlamaq mümkün olmamışdır, ailə institutuna olan köhnə münasibətlərə imkan verilmiş və mənfi sosial olan erkən nikahların yenidən yaranmasına zəmin yaradılmışdır.

Aparılmış tədqiqat məlumatları üzrə işləyərək demək olar ki, Azərbaycanda erkən nikahlar adlı fenomen xeyli yayılmışdır. Buna baxmayaraq, əldə edilmiş məlumatlar bu halın miqyasını dəqiq müəyyən etməyə imkan vermir. Əldə olan məlumatlar bu praktikanın xüsusilə Abşeron kəndlərində (təkcə yerli əhali deyil, həm də qaçqın və məcburi köçkünlər arasında), eləcə də cənubda (Lənkəranda) və şimalda (Qubada) yerləşən bölgələrdə geniş yayıldığını deməyə imkan verir. Qərb bölgəsi (Ağstafa) bundan daha az təsirlənmişdir.

Azərbaycan cəmiyyətində erkən nikahların yayılmasına təkan verən amillər müxtəlif mənşəyə və fərqli əhəmiyyətə malik olmasına baxmayaraq, bir-birilə sıx əlaqəlidir və bir-birindən qaynaqlanandırlar. Bu amillər iki qrupa bölünə bilər: mədəni-psixoloji və sosial-iqtisadi.

Birinci qrup amillər ailə institutu və gender məsələlərinə aşağıdakı ənənəvi yanaşmalardan ibarətdir: qadının evliliyinin mütləqliyi, qızın bakirəliyinin və ailənin namusunun vacibliyi. İnsanlar yanlış başa düşülən dini normalara və güclü patriarxal ailə modelinə əməl etməyə məcburdurlar. İnsanları öz övladlarını mümkün qədər erkən evləndirməyə və hətta buna can atmağa məcbur edən amilləri öyrənərkən, tam və kompleks sosial və iqtisadi səbəblər ortaya çıxmışdır. Ölkədə baş verən müasir iqtisadi və sosial keçid prosesləri,

eləcə də Ermənistanla olan müharibə və Çeçenistandan qaçqınların ölkəyə gəlməsi bu səbəblər arasında göstərilə bilər. Erkən nikahlar vasitəsilə insanlar öz yoxsulluqlarına son qoymaq və ya daha yaxşı iqtisadi və sosial status əldə etməyə çalışırlar. İqtisadi qeyri-müəyyənlik, qohumbazlıq və hörmət (ənənəvi rüşvət sistemi) insanları yaxın qohumlarında və keçmişə xas olan sosial normalarda dəstək axtarmağa vadar edir.

Erkən nikahların yayılmasının bir-birilə bağlı səbəblərinin bu cür mənzərəsi heç bir halda bunun əsaslandırılması kimi hesab edilə bilməz. Erkən nikahların mənfi nəticələri hamıya bəllidir. Onlar yeniyetmə anaların və onların uşaqlarının sağlamlığına zərbə vurur. Erkən nikahların qeyri-sabitliyi və ailə institutunun zədələnməsinə səbəb olması sübut olunmuşdur. Onlar qadın təhsilinin səviyyəsini aşağı salır və nəticədə cəmiyyətin ümumi təhsil səviyyəsi aşağı enir, bu isə, öz növbəsində, cəmiyyətin inkişafına mane olur. Beləliklə, erkən nikahların yayılmasının qarşısını almaq üçün müvafiq əks tədbirlərin planlaşdırılması və həyata keçirilməsi məqsədilə bu yayılmanın dəqiq səbəblərinin aydın başa düşülməsi lazımdır.

# 9.1 Tövsiyələr – qanunvericilik

## Evlənənlərin minimum yaş həddi ilə bağlı qanunun dəyişdirilməsi

Evlənən cütlük üçün minimum yaş həddi ilə bağlı Azərbaycanda tətbiq edilə bilən qanunda qadınlar üçün bu yaş 17, kişilər üçün isə 18 nəzərdə tutulmuşdur. Bundan əlavə, xüsusi şərtlər altında və digər tərəflərin və ailələrinin razılığı ilə bu yaş hədləri İcra Hakimiyyəti tərəfindən qızlar üçün 16, oğlanlar üçün isə 17 yaşadək azaldıla bilər. Erkən nikahların artımı müşahidə olunduğu üçün bir çoxları hesab edir ki, sonuncu yaş həddləri rəsmi həddlərdir.

BMT-nin Qadınlara Qarşı Ayrı-seçkiliyin Bütün Formalarının Aradan Qaldırılması üzrə Konvensiyasında (CEDAW) deyilir ki, 18 yaş şəxsin tam yetkin olması yaşıdır. Bundan əlavə, Konvensiya tövsiyə edir ki, evlilik üçün minimum yaş həddi həm kişi, həm də qadınlar üçün 18 olmalıdır. Orada belə bir şərh verilir: "Kişi ilə qadın evləndikdə onlar ciddi məsuliyyət qəbul edirlər. Deməli, onlar tam yetkinliyə çatmamış və müstəqil hərəkət etmək iqtidarında olmamış evliliyə icazə verilməməlidir."[46] Həmçinin, kişi və qadınlar üçün müxtəlif nikah yaşı ilə bağlı CEDAW Komitəsi qeyd etmişdir ki, "bu cür müddəalar səhvən qadınla

46 Uşaq Hüquqları Konvensiyasının tətbiqi üzrə Vəsait, UNICEF, 1998, Nyu York-Cenevrə, səh. 11

kişinin əqli inkişaf səviyyəsində fərq olmasını və ya onların evlilik yaşında olan fiziki və əqli inkişafın önəm daşımadığını nəzərdə tutduğu üçün bu müddəalar aradan qaldırılmalıdır."[47]

Azərbaycanın qanunverici orqanı olan Ailə Məcəlləsində nəzərdə tutulmuş evlilik üçün minimum yaş həddinə yenidən baxılmalı və həmin yaş həm kişi, həm də qadınlar üçün 18 yaşadək artırılmalıdır. Həmçinin gələcək ərlə arvadın evlilik üçün icazə verilən yaşını yerli səviyyədə azaltmaq səlahiyyəti olan orqan icra hakimiyyətindən rayon məhkəmələrinə dəyişdirilməlidir. Axırıncı, lakin sonuncu olmayaraq, nikah yaşını azaltmağa imkan verən səbəblər məhdudlaşdırılmalıdır. Vaxtı uzadılmış işgüzar səfər və hərbi mükəlləfiyyət yetkinlik yaşına çatmazdan əvvəl nikah bağlanması üçün kifayət edən səbəblər deyil.

## İcbari təhsil

Hansı yaşadək təhsilin icbari olması ilə bağlı Azərbaycan qanunvericiliyində uyğunsuzluq mövcuddur. Azərbaycanın Konstitusiyasına görə, təhsil 17 yaşınadək icbaridir, halbuki "Təhsil haqqında Qanun"a görə uşaqdan yalnız 14 yaşınadək icbari təhsil almaq tələb olunur. Sonuncu yaş həddi digər ölkələrdəki norma ilə müqayisədə, məqbul olmayacaq dərəcədə azdır.

Azərbaycan qanunvericiləri bu məsələ ilə bağlı Avropa standartlarını nəzərdən keçirməlidirlər. İcbari təhsil üçün yaş həddinin aşağı olması erkən nikahlar üçün əlverişli şərait yaradır. "Tamamlanmış təhsil" uşaq və onun valideynlərində yanlış bir təsəvvür yaradır ki, uşaq artıq yetkindir və beləliklə, evliliyə hazırdır.

## Qadınlar üçün əlverişli əmək bazarı

Evliliklərin, o cümlədən erkən nikahların qadınlar üçün həyatlarına davam etmək baxımından yeganə yol olmasının hesab edilməsinin səbəblərindən biri onların çox məhdud iş və iqtisadi müstəqillik imkanlarının olmasıdır. 2006-cı il Demoqrafik və Sağlamlıq Sorğusu onun keçirilməsindən əvvəlki 12 ay ərzində evli qadınların yalnız 21%-nin işlədiyini göstərir. 15-19 yaşlı qadınların iş səviyyəsi yalnız 2% təşkil edirdi.[48]

Buna görə gender baxımından həm dövlət, həm də özəl müəssisələrdə balanslı iş imkanlarının müvafiq hüquqi müddəaları mümkün qədər tez tətbiq edilməlidir. "Gender kvotalarının" və kişilərin çoxluq təşkil etdikləri sektorlarda qadınların işləməsi üçün müsbət addımların tətbiqi nəzərdən keçirilməlidir.

47 Uşaq Hüquqları Konvensiyasının tətbiqi üzrə Vəsait, UNICEF, 1998, Nyu York-Cenevrə, səh. 11.

48 Sağlamlıq və Demoqrafiya Sorğusu, Azərbaycan 2006, Qadınların Gücləndirilməsi və Demoqrafik və Sağlamlıq Nəticələri, səh.191.

# 9.2 Tövsiyələr – institutlar

## Məktəbi atma hallarının monitorinqi

Qızların yalnız 2%-nin ərə getdikdən sonra təhsillərini davam etdirdiklərini nəzərə alaraq məktəblərin atılması hallarının sistematik montorinqi zəruridir, çünki bu, erkən nikahların yayılmasını göstərən ən həssas göstəricidir.

Müəllimlər dərslərə gələn uşaqlar barədə yaş və gender üzrə xüsusi hesabatlar hazırlamalıdırlar. Toplanmış məlumatlar yaş və gender üzrə spesifik və aşağıdakılar üçün istifadə edilə bilən olmalıdırlar:

1. Erkən nikahlar ilə mübarizə aparan müvafiq yerli orqanları məktəbi atma halları haqqında məlumatla təmin etmək
2. Problemin miqyası haqqında Təhsil Nazirliyinə məlumat vermək, nazirliyə adekvat əks tədbirlər hazırlamağa imkan vermək
3. Geniş ictimaiyyətə məktəbi atma hallarının miqyası haqqında məlumat vermək və bu vəziyyəti qınaq obyektinə çevirmək.

> Biz ailə quranda mən institut tələbəsi idim. Əvvəlcə mənim ərim mənim təhsil almama qarşı idi, o, hətta məni institutdan çıxarmağı qərara almışdı. Lakin mən ondan dəfələrlə xahiş etdim ki, mənə təhsili davam etdirib diplom almağıma icazə versin. Nəhayət o, aşağıdakı şərtlər altında mənə icazə verdi: o, məni instituta aparıb gətirəcək və oranı bitirdikdən sonra mən işləməyəcəyəm. Mən razılaşdım, çünki başqa çarəm yox idi. Məni artıq ona vermişdilər və mən ona tabe oldum.
> (V13. Lənkəran, Siyavar)

## Qızlar üçün təqaüdlü təhsil proqramları və orta və ali təhsilin təbliği

Təhsil erkən nikahların ən effektiv mübarizə üsullarından biri olduğundan, təhsilin xüsusilə qızlar arasında təbliği həyat prioritetlərinin genişləndirilməsi və yeniyetmə qızların dünyagörüşünün genişləndirilməsi üçün əsas əhəmiyyət kəsb edir. Bunun baş verməsi üçün təhsili təbliğ edən və təhsil imkanları və faydaları haqqında məlumat verən kampaniyaya başlanılmalıdır.

Bundan əlavə, qız universitet tələbələri və orta məktəb qız şagirdləri üçün dövlətin maliyyələşdirdiyi təqaüdlü təhsil proqramları yaradılmalıdır. Bu təqaüdlərin iki istiqamətdə rolu ola bilər: onlar qızlar arasında təhsili təbliğ edə və maddi imkanları olmadıqlarına görə məktəbi atmalı olan ən yoxsul ailələrin uşaqlarına maliyyə cəhətdən yardım edə bilər.

## Məktəblərin erkən nikahlar hallarına olan reaksiyasının miqyasını və keyfiyyətini artırmaq

Məktəbin ailələrin rəyinə əhəmiyyətli dərəcədə təsiri olan bir qurum olduğunu nəzərə alaraq, erkən nikahların qeyri-qanuni olması və mənfi nəticələri haqqında şagirdlər və onların valideynlərinin məlumatlılığının artırılmasına yönəlmiş təhsil və məlumat şəbəkələşməsi işini məktəblərdə gücləndirmək zəruridir.

Məktəblərin müdiriyyətləri əldə olan bütün resurslardan istifadə edərək çoxlu sayda qızların məktəbi atması hallarının qarşısını almalı və valideynlərin öz qızlarını erkən ərə vermə cəhdlərinə mane olmalıdırlar.

Valideyn-Müəllim Assosiasiyası (VMA) erkən nikahlar ilə mübarizədə və oğlan və qızlar üçün təhsilin nə dərəcədə vacib olmasını təbliğ etmə işində daha fəal rol oynamalıdırlar. VMA-lar həmçinin elə ailələri müəyyən etməlidirlər ki, orada qızın erkən ərə verilməsi problemin yeganə həll yoludur. Bu ailələrə sosial yardım təmin olunmalıdır.

Rayon təhsil şöbələri, icra hakimiyyətləri və hüquq-mühafizə orqanları ilə əməkdaşlıq təkidlə tövsiyə olunur.

## Gənclər təşkilatlarının rolunun gücləndirilməsi

Qızlar həyatlarında digər perspektivlər olmadığı üçün erkən ərə getməyə razılıq verdiklərinə görə gənclərin düşüncə tərzinin formalaşmasında vacib rol oynayan gənclər təşkilatlarının gücləndirilməsi mühüm əhəmiyyət kəsb edir. Bu təşkilatlarda gənclər öz dünyagörüşlərini genişləndirə, yeni perspektivlər, hobbilər tapa, öz həmyaşıdları ilə azad şəkildə ünsiyyət qura və məktəbdənkənar mühitdə müxtəlif bacarıqlara yiyələnə bilərlər. Skautlar kimi təşkilatlar ailələrin daha müasir inkişafına kömək edə bilərdi. Yəni bu müasirlik təhsili başa vuran kimi (hətta bir az da əvvəl) ərə getmənin qaçılmaz addım olmadığını və həyat yoldaşının məlumatlı şəkildə seçilməsini təbliğ edir.

## Bu məsələ ilə mübarizə edən dövlət və bələdiyyə qurumları

Azərbaycanda erkən nikahlar cəza verilməsi baxımından diqqətdən kənarda qalmış bir sahədir.[49] Mövcud mülki və ümumi hüquqa görə, bu nikahlar qadağandır, lakin eyni zamanda onlar ənənəvi və dini qanunlar tərəfindən geniş şəkildə tətbiq edilir.

Baxmayaraq ki, erkən nikahlar mövcud qanunvericiliyin pozulması deməkdir, bu qanunun səmərəli şəkildə icra edilməsi və ya onu pozan şəxslərin cəzalandırılmaları üçün müvafiq mexanizm və ya qurum yoxdur. Bələdiyyə qurumlarının öz ərazilərində doğum və nikahların qeydiyyatı prosesinə daha feal cəlb olunmasına ehtiyac vardır.

İlk növbədə, hüquq-mühafizə orqanları qeydiyyatsız nikah hallarının araşdırılmasında barışmaz və ardıcıl mövqe tutmalı, tərəflərdən birinin yaşının nikaha razılıq vermə üçün minimum yaş həddindən (16) aşağı olması halında baş verən erkən nikahlara görə isə yetkinlik yaşına çatanları bu yaşa çatmayanlarla cinsi əlaqəyə girdiklərinə görə cinayət məsuliyyətinə cəlb etməlidirlər. Azərbaycan Respublikasının Cinayət Məcəllesi yetkin şəxsin yaşı 16-dan az olan şəxslə cinsi əlaqəyə girməsi və onunla cinsi təbiətə malik hərəkətlər etməsinə görə 3 il həbs cəzası nəzərdə tutur.

Bundan əlavə, Azərbaycan Respublikasının "Polis haqqında" Qanunu "yetkinlik yaşına çatmayan şəxslərin hüquqlarının pozulmasının qarşısının alınması" ilə bağlı bir sıra tədbir görmələrini polis işçilərindən tələb edir. Hüquq-mühafizə orqanlarının həm Cinayət Məcəllesinin, həm də Polis haqqında Qanunun tətbiq olunmasında daha ciddi mövqe tutması vacibdir.

Bələdiyyə qurumları da yerlərdə erkən nikahların mənfi nəticələri və qeyri-qanuniliyi ilə bağlı məlumatlandırma kampaniyaları başlaya bilərdilər.

> Mən həyatımdan çox narazıyam. Bəlkə də mən dünyanın ən bədbəxt insanıyam. Mənim həyatım qulluqçuluqdan başqa bir şey deyil. Gecələr mən iki xəstə uşağıma, ögey anama və ərimə baxıram. Nə deyə bilərəm? Bəxtim qaradır. İndi qərar qəbul edə bilsəydim, başqa cür hərəkət edərdim.
> 16 yaşında könüllü qoşulub qaçmış gənc qadın (V29. Ağstafa)

49 Erkən nikahlar. Uşaq ər/arvad..., Sitat., səh.7

### Bələdiyyə qurumları ilə yerli dini liderlərin yaxın əməkdaşlığı

Azərbaycan cəmiyyətində dindarlığın yayılması yəqin ki, yaxın illərdə bir qədər də artacaq. Ona görə dövlətlə məscid arasında əməkdaşlıq üçün yaxşı əsas yaratmaq vacibdir. Xristianlıqdan fərqli olaraq, İslam mollaları və dini liderlərinin mərkəzləşdirilmiş qurumu olmadığı üçün yalnız yerlərdə əməkdaşlıq vasitəsilə nəticələr əldə etmək olar.

Yerli orqanlar və mollalar razılığa gəlməlidirlər ki, dini kəbinlər kəsilməmişdən əvvəl (əgər cütlük belə kəbin istəyirsə) rəsmi qeydiyyatlı kəbin kəsilməlidir. Bu cür yanaşma cütlüyün minimum yaş həddinə əməl olunmasını və bütün kəbinlərin qeydiyyata alınmasını nəzərdə tutur.

Dini liderlərin də nikahın rolu və cütlük üzvlərinin bərabərliyini vurğulamaq baxımından güclü mövqeyə malikdirlər. Bu cür bərabərlik və rol barədə Quranda və Şəriət qanununda çoxlu nümunələr vardır. Dini söhbətlər vasitəsilə mollalar təkcə cavanlara deyil, onların valideynlərinə təsir edə bilərlər, çünki valideynlər nikah məsələsində son qərar qəbul edən şəxslərdir.

> Mənim uşaqlarım 15 ildir ki, mənimlə yaşamırlar. Ərim onları mənim əlimdən zorla aldı. Mən özümü öldürmək istəyirdim. Mən 189 həb atdım. Özümü öldürməyə üç dəfə cəhd etmişəm. Uşaqlarımı itirməyimlə heç cür barışa bilmirəm.
> 17 yaşında ərə verilmiş gənc qadın (V43. Bakı).

### Erkən nikahlar və məcburi qız qaçırmalarının qurbanlarının dəstəklənməsi üçün psixo-sosial məsləhət yardımı

Sorğu müəyyən etmişdir ki, erkən nikahlar və qız qaçırılma halları qızlara psixoloji zərbə vurur. Hal-hazırda bu cür problemləri olan qızların xüsusi psixo-sosial yardım ala biləcəyi qurum və təşkilatların sayı çox azdır. Buna görə erkən nikahlar və qız qaçırılma hallarının qurbanları üçün psixo-sosial məsləhət yardımı xidmətlərinin yaradılması vacibdir. Psixoloqlar, sosial tədqiqatçılar, hüquqşünaslar və yerli qadın hüquqları fəallarından ibarət bu xidmətlər erkən nikahlar və qız qaçırılma hallarının qurbanlarına lazımi yardım göstərə bilər. Yerli sosial müdafiə şöbələri yerləşdikləri bələdiyyələrin ərazilərində bu cür psixo-sosial yardım xidmətlərinin yaradılmasına görə cavabdeh olmalıdırlar. Sosial işçilərə qaçırılma və ailədə zorakılıq qurbanları olan yeniyetmələr üçün məsləhət vermək üzrə bələdiyyə səviyyəsində əlavə təlim keçirilməlidir.

Bundan əlavə, qaçırılma və ailədə zorakılıq qurbanları üçün sığınacaqlar regional səviyyədə yaradılmalıdırlar. Sığınacaqlar həm partnyoru tərəfindən incidilən qadınlar, həm də uşaqları olan tənha analar üçün yer təmin edə bilməlidirlər. Bütün ölkə üzrə bu cür regional

sığınacaqlarda işləmək üçün peşəkar və müvafiq məsləhət verə bilən sosial işçilər götürülməlidirlər.

# 9.3 Tövsiyələr – məlumatlılığın artırılması

## Məlumatlılığın artırılması kampaniyaları

Erkən nikahların miqyasının genişlənməsinə təsir edən danılmaz amillər bu nikahların mənfi təsirləri haqqında az biliyin olması, cütlüyün üzvlərinin yaşından asılı olmayaraq evliliyin vacibliyi barədə yanlış fikirlər və 20 yaşında olan qadınlara nisbətən yeniyetmə qızların cinsi baxımdan daha məhsuldar olması barədə səhv təsəvvürlərdir.

Buna görə erkən nikahların ana sağlamlığına mənfi təsiri və digər mənfi nəticələri haqqında məlumatlılıq səviyyəsini artırmaq üçün intensiv kampaniyanın aparılması lazımdır. Kampaniyanın platforması və vasitələri diqqətlə seçilməlidir. Bu məsələ ilə bağlı əksər hallarda valideynlərin təşəbbüs göstərmələrinə və hətta çox vaxt qızları məcbur etmələrinə görə, onlar bu kampaniyanın əsas hədəfi olmalıdırlar.

Erkən nikahlar barədə qərar çıxarılarkən şəhər və kənd yerlərinin əhalisi müxtəlif amillərə görə hərəkət etdikləri üçün kampaniya həmiçinin müxtəlif auditoriyalara uyğunlaşdırılmalıdır.

KİV-nin bu cür kampaniya üçün əsas platforma olmasına baxmayaraq, erkən nikahların 42%-də qızların nikaha daxil olma barədə qərarı könüllü və azad olaraq qəbul etdiklərini əsas götürərək, məlumatlılığın artırılması üzrə mühazirələr məktəb proqramlarına daxil edilməlidir.

### Gender bərabərliyinin təbliğ edilməsi

Erkən nikah problemi patriarxal ailə modeli və kişilərin dominantlıq etdiyi cəmiyyətdən qaynaqlanır. Qadınların rolu yenə də ev təsərrüfatına və uşaqlara baxmağa bağlanır. Tabe olan və qulluq edən arvad rolu hal-hazırda yenə dəbdədir. Buna görə gender bərabərliyi və evlilikdə tərəfdaşlıq üzrə daha geniş ictimai kampaniya və debata ehtiyac vardır.

> Qızlar həyatlarını analıq və ya paltar yumaq kimi işlərə həsr etməlidirlər. (FFG.18-20. Lənkəran)

# Əlavə 1

## Fokus qruplar barədə məlumatlar

Fokus qrup tədqiqat üçün maraq kəsb edən (bizim tədqiqatda erkən nikahların səbəbləri, yayılma dərəcəsi və nəticələri) problem və ya sualların qruplarda müzakirələr zamanı toplanmasına yönəlmiş nadir keyfiyyət tədqiqatı metodudur.

Fokus qrupların keçirilməsinin konkret məqsədləri:

a. Erkən nikahlar və qız qaçırılması, onların yayılma dərəcəsi, erkən nikahların səbəbləri və nəticələri, gender təsəvvürləri, ailə münasibətlərinə baxış və cinslərarası qarşılıqlı münasibətlər barədə insanların qavrama və təsəvvürlərinin öyrənilməsi.

b. Müxtəlif yaş-cins qruplarına aid olan insanlar tərəfindən erkən nikahlara amil kimi təsir göstərən sosial kontekstlərin (valideynlərin, cəmiyyətin, yerli ənənələrin təsiri və s.) izahı barədə şərh və qiymətləndirmələri tədqiq etmək.

c. Erkən nikahlar və qız qaçırılması ilə bağlı belə davranış modellərinin təkcə təsviri deyil, həm də dərkinə kömək edə biləcək qrup məntiqinin tədqiqi.

Azərbaycanın yuxarıda göstərilən regionlarının (Bakı-Abşeron, Lənkəran, Quba, Ağstafa) hər birində 10 fokus qrup olmaqla, cəmi 40 fokus qrup keçirilmişdir. 4 regionun hər birində ayrıca kişi və qadınları əhatə edən aşağıdakı yaş kateqoriyaları üzrə fokus qruplar keçirilmişdir: 13-15 yaş, 16-17 yaş, 18-21 yaş, 21-24 yaş, 40-55 yaş. Fokus qrup iştirakçıların cins və yaşlarından asılı olaraq, qruplarda müzakirə üçün sualların təqribi siyahısı müəyyənləşdirilmişdir (fokus qrupların rayonlar üzrə siyahısı və müzakirə olunmuş sualların yığımı Əlavə 1-də göstərilmişdir).

Fokus qruplarda, hərəsində orta hesabla 8 iştirakçı olmaqla, ümumilikdə 320 nəfər iştirak etmişdir. 7 saylı cədvəldə fokus qrupların kodları ilə rayonlar, yaş və cins göstəriciləri üzrə bölgüsü daxil edilmişdir.

ƏLAVƏLƏR

Cədvəl 7. Keçirilmiş fokus qrupların siyahısı

| FQ # | Yaş | Cins | Region |
|---|---|---|---|
| 1 | 13-15 | Qadın | Ağstafa |
| 2 | 16-17 | Qadın | Ağstafa |
| 3 | 18-20 | Qadın | Ağstafa |
| 4 | 21-24 | Qadın | Ağstafa |
| 5 | 40-55 | Qadın | Ağstafa |
| 6 | 13-15 | Kişi | Ağstafa |
| 7 | 16-17 | Kişi | Ağstafa |
| 8 | 18-20 | Kişi | Ağstafa |
| 9 | 21-24 | Kişi | Ağstafa |
| 10 | 40-55 | Kişi | Ağstafa |
| 11 | 13-15 | Qadın | Bakı/Abşeron |
| 12 | 16-17 | Qadın | Bakı/Abşeron |
| 13 | 18-20 | Qadın | Bakı/Abşeron |
| 14 | 21-24 | Qadın | Bakı/Abşeron |
| 15 | 40-55 | Qadın | Bakı/Abşeron |
| 16 | 13-15 | Kişi | Bakı/Abşeron |
| 17 | 16-17 | Kişi | Bakı/Abşeron |
| 18 | 18-20 | Kişi | Bakı/Abşeron |
| 19 | 21-24 | Kişi | Bakı/Abşeron |
| 20 | 40-55 | Kişi | Bakı/Abşeron |
| 21 | 13-15 | Qadın | Quba |
| 22 | 16-17 | Qadın | Quba |
| 23 | 18-20 | Qadın | Quba |
| 24 | 21-24 | Qadın | Quba |
| 25 | 40-55 | Qadın | Quba |
| 26 | 13-15 | Kişi | Quba |
| 27 | 16-17 | Kişi | Quba |
| 28 | 18-20 | Kişi | Quba |
| 29 | 21-24 | Kişi | Quba |
| 30 | 40-55 | Kişi | Quba |
| 31 | 13-15 | Qadın | Lənkəran |
| 32 | 16-17 | Qadın | Lənkəran |
| 33 | 18-20 | Qadın | Lənkəran |
| 34 | 21-24 | Qadın | Lənkəran |
| 35 | 40-55 | Qadın | Lənkəran |
| 36 | 13-15 | Kişi | Lənkəran |
| 37 | 16-17 | Kişi | Lənkəran |
| 38 | 18-20 | Kişi | Lənkəran |
| 39 | 21-24 | Kişi | Lənkəran |
| 40 | 40-55 | Kişi | Lənkəran |

## Fokus-qruplarda müzakirə edilmək üçün sualların ümumi siyahısı

### Azərbaycanda erkən nikahlar

GİRİŞ: Mən bugünkü görüşə gələnlərin hamısına təşəkkürümü bildirmək istəyirəm. Mənim adım ____________. Mən Azərbaycanda erkən nikahlar probleminin öyrənilməsi üzrə xüsusi araşdırma üçün müsahibələr və qrup halında müzakirələr aparıram. Bu sorğular Azərbaycan Respublikasının Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsi və UNICEF tərəfindən aparılır. Biz belə hesab edirik ki, bu problemin Sizinlə birgə müzakirəsi erkən nikahlar barəsində cəmiyyətdə mövcud fikirləri və bu hadisəyə münasibəti daha yaxşı öyrənməkdə bizə kömək edər. Onu da demək istəyirəm ki, burada səhv və ya düzgün cavablar problemi yoxdur. Bizi yalnız Sizin fikriniz maraqlandırır. Ona görə də özünüzü tam sərbəst hiss edin və bu məsələ barəsində nə düşünürsünüzsə, onu bildirin. Məndə Sizinlə birgə müzakirə etmək istədiyim sualların siyahısı var, lakin müzakirənin gedişində Siz yeni mövzular və Sizin fikrinizcə müzakirə etdiyimiz mövzuya aidiyyəti olan məsələlər qaldıra bilərsiniz. Müzakirənin gedişində mənim köməkçim qeydlər aparmaqda və bizim müzakirəni diktofona yazmaqda mənə kömək edəcəkdir. Sizi əmin etmək istəyirəm ki, bu qeyd və yazılara baxmayaraq, bizim müzakirə tamamilə məxfi qalacaq, gələcəkdə Sizin adlarınız kodlaşdırılacaq və gizli saxlanacaqdır. Xahiş edirəm, özünüzü sərbəst hiss edin, elə təsəvvür edin ki, müntəzəm surətdə ünsiyyət saxladığınız dostlarınızın arasındasınız. Son olaraq onu da deyim ki, buradakı insanların hər birinin fikri bizim üçün vacibdir. Ona görə də burada iştirak edənlərin hər birinin öz fikrini söyləməsinə və bugünkü görüşün bütün iştirakçıları ilə ünsiyyət saxlamasına imkan verməyinizi xahiş edirəm. Bizim bugünkü müzakirəni başlamazdan əvvəl kimin nə sualı var?

### «Buzun əridilməsi»:

Yəqin ki, biz bir-birimizlə tanış olmalıyıq. Təklif edirəm ki, Siz növbə ilə özünüzü təqdim edəsiniz, adınızı və məşğuliyyət növünüzü bildirəsiniz.

Bizim bugünkü müzakirənin mövzusu - erkən nikahlar məsələsidir. Dəqiqlik üçün əlavə edim ki, erkən nikahlar dedikdə, 18 yaşa qədər bağlanmış nikahlar nəzərdə tutulur. Beləliklə, başlayaq.

## Fokus qrupları (18-21, 21-24 və 40-55 yaş arasında)

### I. Sizin regionda erkən nikahların yayılma dərəcəsi

1. Siz öz kəndinizdə (şəhərinizdə, rayonunuzda) erkən (18 yaşa qədər) nikahların yayılma dərəcəsini bütövlükdə necə qiymətləndirərdiniz? Sizin qohumlar, tanışlar, qonşular, həmkarlar arasında erkən nikahların təxmini faiz dərəcəsini söyləyə bilərsinizmi?
2. Sizin yaşayış məntəqəsində tanışlar və qohumlar arasında erkən nikahlar haqqında şəxsən Sizin məlumatınız varmı? Əgər varsa, bu barədə bir qədər ətraflı danışa bilərsinizmi?
3. Son 5-6 ildə erkən nikahların sayı artmaqda, yoxsa azalmaqdadır? Siz nə üçün belə hesab edirsiniz?

### II. Erkən nikahların səbəbləri və nəticələri

4. Son illərdə Sizin regionda erkən nikahların əsas səbəbləri və belə halların yayılmasının əsas amilləri hansılardır (sosial, iqtisadi, mədəni-psixoloji amillər)?

5. Adətən erkən nikahlar praktikası hansı ailələrdə tətbiq edilir (ailənin iqtisadi vəziyyəti, sosial statusu, tərkibi, təhsil səviyyəsi, məşğuliyyət növü, dindarlıq)?
6. Sizin fikrinizcə, bəzi valideynlər öz qızlarını nə üçün tez, hətta onlar yetkinlik yaşına çatmamış ərə verməyə çalışırlar?

## III. Erkən nikahlara, yetkinlik yaşına çatmamış qızların qaçırılmasına münasibət

7. Sizin fikrinizcə, kişilər və qadınlar üçün nikaha daxil olmağın optimal və minimal yaşları neçə olmalıdır?
8. Sizin fikrinizcə, yerli əhali erkən nikahlara necə münasibət bəsləyir? Onlar bunu normal hal hesab edir, yoxsa pisləyir?
9. Sizin fikrinizcə, erkən nikahların müsbət cəhətləri varmı? Əgər varsa, nədən ibarətdir?
10. Sizin fikrinizcə, erkən nikahların mənfi cəhətləri varmı? Əgər varsa, nədən ibarətdir?
11. Valideynlər öz qızlarının erkən yaşında nikah bağlamasını təşviq etməli, bunu qadağan etməli, yoxsa bitərəf qalmalıdırlar?
12. Siz öz kəndinizdə (şəhərinizdə, rayonunuzda) yetkinlik yaşına çatmamış qızların qaçırılması hallarının yayılma dərəcəsini bütövlükdə necə qiymətləndirirsiniz?
13. Sizin fikrinizcə, belə hallar, adətən, qızların razılığı ilə baş verir, yoxsa zorakılıqla?
14. Sizin fikrinizcə, insanları yetkinlik yaşına çatmamış qızları qaçırmağa sövq edən əsas səbəblər hansılardır?
15. Şəxsən Siz öz yaşayış məntəqənizdə yetkinlik yaşına çatmamış qızların qaçırılması halları barədə eşitmisinizmi? Əgər eşitmisinizsə, bu barədə bir qədər ətraflı danışın.

## Fokus qrupları (13-17 yaşlı qızlar)

## I. Respondentlərin erkən nikahlar problemi barədə məlumatlılığı

1. Bizim həyatda erkən nikahlar deyilən hadisə Sizə məlumdurmu? Əgər məlumdursa, bunu haradan eşitmisiniz: qonşulardan, rəfiqələrinizdən, valideynlərinizdən, qəzetdən, radiodan, televiziyadan?
2. Sizin fikrinizcə, kəndinizdə (şəhərinizdə, rayonunuzda) bu cür nikahlar çoxdurmu?
3. Sizin tanışlarınızın, rəfiqələrinizin 18 yaşa çatmamış ərə getməsi halları Sizə məlumdurmu? Əgər məlumdursa, bu hadisə barədə bir qədər ətraflı danışın. Onlar özləri bu nikahı istəyirdimi? Onların ərlərinin neçə yaşı vardı? İndi onlar necə yaşayır? Ərləri, onların valideynləri bu qızlara necə münasibət bəsləyir? Onlar birgə yaşamağa davam edirlərmi?

## II. Respondentlərin fikrincə, onların qohumları, məktəb, bütövlükdə yerli cəmiyyət erkən nikahlara necə münasibət bəsləyir

4. Sizin fikrinizcə, bu gün valideynlər qızlarının gələcək təhsili çox maraqlandırır, yoxsa onlar daha çox qızlarını mümkün qədər tez ərə vermək haqqında düşünürlər?
5. Sizin fikrinizcə, valideynlər istəyirlərmi ki, qızları məktəbi qurtarsınlar? Onlar istəyirlərmi ki, qızları orta məktəbi qurtarandan sonra ali məktəbə daxil olsunlar?
6. Adətən, valideynlər qızlarının istəyini və razılığını almadan onu ərə verə bilərlərmi?
7. Onlar bunu qızın 18 yaşı tamam olana qədər edə bilərlərmi?
8. Onlar qızlarını yaşca ondan çox böyük olan kişiyə zorla ərə verə bilərlərmi?
9. Əgər Siz məktəbi qurtarana qədər Sizi ərə versəydilər, qohumlarınız, müəllimləriniz, dostlarınız və tanışlarınız buna necə münasibət bildirərdi?
10. Siz məktəbi atıb nikah bağlamaq istəsəniz, valideynləriniz, müəllimləriniz, dostlarınız və tanışlarınız buna necə münasibət bildirərdi?

### III. Respondentlərin özlərinin erkən nikahlara münasibəti

11. Qızların 18 yaşa çatmamış ərə getməyini normal hesab edirsinizmi? Qızlar 18 yaşa çatmamış ərə getmək istəyirlərmi? Əgər istəmirlərsə, nə üçün? Əgər istəyirlərsə, nə üçün?
12. Əgər qızın valideynləri onu istəyinə zidd olaraq ərə vermək qərarına gəlsələr, Sizin fikrinizcə, o, necə hərəkət edər?

### IV. Gələcək üçün arzular və planlar

13. Əgər cavan qız seçim qarşısında qalsa, Sizin fikrinizcə, nəyə üstünlük verər: məktəbi atıb ərə getmək, yoxsa məktəbdə təhsil almağa davam etdirmək və bundan sonra işə düzəlmək və ya təhsili institutda davam etdirmək? Nə üçün qız bu variantı seçərdi?

### V. Nikahda cinslərin rolu barədə təsəvvürlər

14. Siz özünüzün ərə getməyiniz üçün hansı yaşı ən münasib yaş hesab edirsiniz? Sizin gələcək ərinizin təxminən neçə yaşı olmalıdır?
15. Sizin fikrinizcə, nikahda xoşbəxt olmaq üçün ilk növbədə nə tələb olunur?

### VI. Yetkinlik yaşına çatmamış qızların qaçırılması

16. Siz yetkinlik yaşına çatmamış qızların qaçırılması hallarının yayılma dərəcəsini bütövlükdə necə qiymətləndirirsiniz?
17. Siz necə fikirləşirsiniz, belə hallar, adətən, qızların razılığı ilə olur, yoxsa zorakılıqla?
18. Sizin fikrinizcə, insanları yetkinlik yaşına çatmamış qızları qaçırmağa daha çox sövq edən səbəblər hansılardır?
19. Şəxsən Siz öz yaşayış məntəqənizdə yetkinlik yaşına çatmamış qızların qaçırılması hallarını bilirsinizmi? Əgər bilirsinizsə, bu barədə bir qədər ətraflı danışın.

## Fokus qrupları (13-17 yaşlı oğlanlar)

### I. Respondentlərin erkən nikahlar problemi barədə məlumatlılığı

1. Həyatımızda erkən nikahlar hallarının mövcud olması Sizə məlumdurmu? Əgər məlumdursa, bu barədə nə bilirsiniz və haradan bilirsiniz: qonşulardan, dostlardan, valideynlərdən, qəzetlərdən, radio və televiziyadan?
2. Sizin fikrinizcə, kəndinizdə (şəhərinizdə, rayonunuzda) bu cür nikahlar çoxdurmu?
3. Siz tanışlarınızın, dostlarınızın 18 yaşa çatmamış evlənməsi və ya ərə getməsi barədə bilirsinizmi? Əgər bilirsinizsə, bu hadisənin necə baş verməsi barədə bir qədər ətraflı danışın. Onlar özləri bu nikahı istəyirdimi? Onlar necə yaşayırlar? Onlar birgə yaşamağa davam edirlərmi?

## II. Respondentlərin fikrincə, erkən nikahlara qohumların, məktəbin, bütövlükdə yerli cəmiyyətin münasibəti necədir?

4. Sizin fikrinizcə, Sizinlə bir sinifdə oxuyan qız daha məktəbə getmirsə və onu ərə verirlərsə, bu fakta məktəb müəllimlərinin münasibəti necə olar?
5. Sizin qohumlarınız, qonşularınız, tanışlarınız və dostlarınız buna necə münasibət bildirərdi?
6. Sizin fikrinizcə, öz qızlarını onların razılığı olmadan ərə verə biləcək valideynlər çoxdurmu?
7. Sizin valideynləriniz istəyiniz və razılığınız olmadan Sizi evləndirə bilərlərmi?
8. Onlar bunu Sizin 18 yaşınız tamam olana qədər edə bilərlərmi?
9. Sizin erkən nikah bağlamaq qərarınıza valideynləriniz, müəllimləriniz, dostlarınız və tanışlarınız necə yanaşardı?

## III. Respondentlərin özlərinin erkən nikahlara münasibəti

10. Əgər qızın 18 yaşı olmamış onu ərə verirlərsə, Sizin yaşıdlarınız bunu normal hal hesab edərlərmi?
11. Əgər oğlanın valideynləri onu iradəsinə zidd olaraq evləndirmək qərarına gəlsəydi, Sizin fikrinizcə, o, necə hərəkət edərdi?

## IV. Gələcək üçün arzu edilən məqsədlər və planlar

12. Siz yaxın 5-6 ildə hansı məqsədlərə və vəzifələrə nail olmağı planlaşdırırsınız?

## V. Nikahda cinslərin rolu haqqında təsəvvürlər

13. Siz nikah üçün hansı yaşı daha münasib hesab edirsiniz? Sizin gələcək həyat yoldaşınızın təxminən neçə yaşı olmalıdır?
14. Sizin fikrinizcə, nikahda xoşbəxt olmaq üçün ilk növbədə nə lazımdır?

## VI. Yetkinlik yaşına çatmamış qızların qaçırılması

15. Yetkinlik yaşına çatmamış qızların qaçırılması hallarının yayılma dərəcəsini və onun əhatə dairəsini Siz bütövlükdə necə qiymətləndirərdiniz?
16. Sizin fikrinizcə, belə hallar, adətən, qızların razılığı ilə baş verir, yoxsa zorakılıqla?
17. Sizin fikrinizcə, yetkinlik yaşına çatmamış qızları qaçırmağa insanları çox vaxt hansı səbəblər sövq edir?
18. Şəxsən Siz öz yaşayış məntəqənizdə yetkinlik yaşına çatmamış qızların qaçırılması halları barədə bir şey bilirsinizmi? Əgər bilirsinizsə, bu hallar barədə bir qədər ətraflı danışın.

# Əlavə 2

## Əsas məlumat verən şəxslərlə yarımstrukturlaşdırılmış müsahibələr barədə məlumatlar

Yarımstrukturlaşdırılmış müsahibə keyfiyyət analizi üçün məlumatların toplanmasının daha geniş yayılmış metodudur. Əsas məlumat verən şəxslərlə yarımstrukturlaşdırılmış müsahibə təkcə erkən nikahların yayılma dərəcəsinə dair deyil, həm də ailə və icmalara məxsus rəy və istiqamətlərin toplanmasına imkan yaradır.

Əsas məlumat verən şəxslərlə yarımstrukturlaşdırılmış müsahibənin keçirilməsinin məqsədi erkən nikahları doğuran sosial kontekstlər barədə daha dəqiq təsəvvürlərə malik olmaq təşkil edir. Əsas məlumat verən şəxslərlə sorğu-müsahibə aşağıdakı amil və göstəricilərə əsasən həyata keçirilir:

1. Erkən nikahların yayılma dərəcəsinin qiymətləndirilməsi;
2. Uşaq və erkən nikahların əsas səbəblərinin təhlili;
3. Mövcud hallara münasibət və onların qiymətləndirilməsi;
4. Mövcud vəziyyətin yaxın və uzaq gələcəkdə dəyişdirilməsinin proqnozlaşdırılması, onun inkişaf perspektivlərinin qiymətləndirilməsi;
5. Təcrübi tövsiyələr.

Həmçinin: 1) həkimlər; 2) müəllimlər, məktəb psixoloqları, sosial işçilər; 3) hüquqşünaslar; 4) yerli icra hakimiyyəti orqanları və QHT nümayəndələri, müxtəlif yönlü dövlət və qeyri-dövlət orqanları mütəxəssisləri, din xadimləri üçün xüsusi modullar nəzərdə tutulmuşdu. Bu müsahibələr üçün aşağıda göstərildiyi kimi xüsusi sual kitabçaları işlənmişdi.

Həmçinin, 1) yerli icra hakimiyyəti nümayəndələri; 2) QHT fəalları; 3) sosial tədqiqatçılar (psixoloqlar, sosioloqlar, gender üzrə mütəxəssislər; 4) məktəb müəllimləri və məktəb psixoloqları; 5) həkimlər; 6) hüquqşünaslar; 7) din xadimləri; 8) nazirliklərin nümayəndələrini əhatə edən 78 yarımstrukturlaşdırılmış müsahibə keçirilmişdir. Onlardan 49-u Bakı və Abşeronda, digərləri isə respublikanın 5 regionunda (Ağstafa, Şəmkir, Lənkəran, Quba, Gəncə) keçirilmişdir. Məlumat verən şəxslərin siyahısı təqdim olunur.

### Cədvəl 8. Mütəxəssis və əsas məlumat verən şəxslərin kateqoriyalar üzrə bölgüsü

| # | Mütəxəssis və əsas məlumat verən şəxslərin kateqoriyası | sayı |
|---|---|---|
| 1 | Təhsil işçiləri, müəllimlər, pedaqoqlar, məktəb psixoloqları, metodistlər | 15 |
| 2 | Səhiyyə sistemi işçiləri, həkimlər | 9 |
| 3 | Gender sahəsi üzrə mütəxəssislər, sosioloqlar, psixoloqlar | 11 |
| 4 | Nazirlik, idarə, digər dövlət təşkilatları nümayəndələri | 5 |
| 5 | Yerli icra hakimiyyəti orqanları nümayəndələri | 7 |
| 6 | QHT nümayəndələri (qadın, gənclər, uşaq, təhsil sahəsində çalışan) | 21 |
| 7 | Hüquqşünaslar, hüquq müdafiəçiləri | 5 |
| 8 | Din xadimləri | 5 |
| 9 | Cəmi | 78 |

Cədvəl 9. Məlumat verən şəxslərin siyahısı

| # | Adı | İşlədiyi yer/ixtisası | Region |
|---|---|---|---|
| İ_1 | Novella Cəfəroğlu | D.Əliyeva adına Qadın Hüquqlarını Müdafiə Cəmiyyətinin sədri | Bakı |
| İ_2 | Xosrov Orucov | Azərbaycan Dövlət İqtisad Universitetinin "Politologiya və Sosiologiya" kafedrasının dosenti | Bakı |
| İ_3 | Elçin Abdullayev | Hüquqşünas | Bakı |
| İ_4 | Nazir Quliyev | "Uşaq hüquqları" klinikasının direktoru, hüquqşünas | Bakı |
| İ_5 | Gündüz İsmayılov | Azərbaycan Respublikası Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin şöbə müdiri | Bakı |
| İ_6 | Mətanət Müslümqızı | Media Hüquqları Mərkəzinin sədri | Bakı |
| İ_7 | Sədaqət Paşayeva | QHT İctimai Vəkil | Bakı |
| İ_8 | Səbirə Əlizadə | Həkim | Bakı |
| İ_9 | Elnur Sultanov | Həkim | Bakı |
| İ_10 | Aqil Ələsgəroğlu | Dinşünas | Bakı |
| İ_11 | Qaraəxməd Yusifov | Həkim | Ağstafa |
| İ_12 | Darvin Şirinov | Ağstafa rayon İcra hakimiyyətinin nümayəndəsi | Ağstafa |
| İ_13 | Xanlar Mehdiyev | Poylu kənd orta məktəbinin müəllimi | Ağstafa |
| İ_14 | Alim Şamanadze | Din adamı (molla) | Ağstafa |
| İ_15 | Aynur xanım | Quba rayon İcra hakimiyyətinin nümayəndəsi | Quba |
| İ_16 | Hacı Naib | Din adamı (molla) | Quba |
| İ_17 | Çimnaz xanım | Həkim | Quba |
| İ_18 | Telman müəllim | Orta məktəb müəllimi | Quba |
| İ_19 | Elnur Sultanov | Psixoloq | Quba |
| İ_20 | Hikmət müəllim | Hüquqşünas | Quba |
| İ_21 | Fatma Ağamirzəyeva | QHT Quba Xalçaçı Qadınlar Assosiasiyası | Quba |
| İ_22 | Natəvan xanım | Rayon Təhsil Şöbəsi | Quba |
| İ_23 | Yusif Bəkirov | QHT "Uşaq hüquqları müdafiə liqası" | Bakı |
| İ_24 | Məlahət Həsənova | Milli Məclisin üzvü | Bakı |
| İ_25 | Arzu Cəfərli | QHT "İqtisadi və hüquqi maarifləndirmə mərkəzi" | Lənkəran |
| İ_26 | Rəfiqə Məlikova | Həkim – ginekoloq | Şəmkir |
| İ_27 | Elmira Məhərrəmova | Orta məktəb müəllimi | Bakı |
| İ_28 | Elçin müəllim | Hüquqşünas | Şəmkir |
| İ_29 | Roza Fərzəliyeva | Respublika Uşaq Təşkilatının Sədr Müavini (QHT) | Bakı |
| İ_30 | Nigar Mənsimova | "Ümid Yeri" Uşaq Sığınacağı və Reabilitasiya Mərkəzi, sədr | Bakı |
| İ_31 | Zemfira Mehdizadə | Pedaqoji Elmlər Namizədi, Beynəlxalq Tibb Korpusunun Təhsil Proqramlarının Rəhbəri | Bakı |
| İ_32 | Firdovsi Aslanov | Rayon Təhsil Şöbəsinin Metodkabinetinin Direktoru (Psixoloq) | Şəmkir |
| İ_33 | Cahan müəllim | Yerli İcra hakimiyyətinin nümayəndəsi | Bakı |
| İ_34 | Bahar Hacıyeva | Məktəb psixoloqu | Ağstafa |
| İ_35 | Fikrət Əfəndiyev | Fəlsəfə elmləri doktoru | Bakı |
| İ_36 | Xatirə Məhərrəmova | Daxili İşlər Nazirliyinin Cinayət Statistikası Şöbəsinin Baş İnspektoru | Bakı |

| # | Adı | İşlədiyi yer/ixtisası | Region |
|---|---|---|---|
| İ_37 | Aysəba Mirzəyeva | Beynəlxalq Tələbələr Klubunun Sədri, Avropa Şurasının SMUS Tələbə Şəbəkəsinin Azərbaycan üzrə Milli Nümayəndəsi | Bakı |
| İ_38 | Mətanət Qaraxanova | Azərbaycan Qızıl Aypara Cəmiyyətinin tibb bölməsinin rəhbəri, Respublika Həkimləri Təkmilləşdirmə İnstitutunun həkimi | Bakı |
| İ_39 | Cəmilə xanım | Türkan kəndi qadın məsləhətxanasının ginekoloqu | Abşeron |
| İ_40 | Afaq İsgəndərova | "Yuva" humanitar mərkəzində yoxsulluğun aradan qaldırılması layihəsinin koordinatoru | Bakı |
| İ_41 | İlhamə Sultanova | Psixoloq, psixologiya elmləri namizədi | Bakı |
| İ_42 | Rəhilə Quliyeva | WAQ işçisi | Bakı |
| İ_43 | Mehriban Zeynalova | "Təmiz Dünya" Qadınlara Yardım İctimai Birliyinin Sədri | Bakı |
| İ_44 | Dilarə xanım | Xırdalan məcburi köçkünlər icmasının lideri və məktəb müəllimi | Abşeron |
| İ_45 | Yelena Qasımova | Azərbaycan Gender İnformasiya Mərkəzi, sədr | Bakı |
| İ_46 | Pərvaz Rəhimova | Lənkəran Tibbi Yardım Mərkəzi, həkim | Lənkəran |
| İ_47 | Aygün Cənməmmədova | Hüquqşünas | Lənkəran |
| İ_48 | Məlahət Hacıyeva | Lənkəran Gənclər və İdman Şöbəsi, müdir müavini | Lənkəran |
| İ_49 | Rüfət Əskərov | QHT "İqtisadi və hüquqi maarifləndirmə mərkəzi" | Lənkəran |
| İ_50 | Rahim Seyfullayev | Yerli QHT üzvü, Liman qəs. bələdiyyə işçisi | Lənkəran |
| İ_51 | Ziya İsmayılov | Ombudsmanın Cənubi Regional Mərkəzinin rəhbəri | Lənkəran |
| İ_52 | Esmira Turhida | İnsan Hüquqları Cənubi Resurs Mərkəzinin direktoru və orta məktəb müəllimi | Lənkəran |
| İ_53 | Anonim müsahibəçi | Lənkəran şəhəri icra hakimiyyətinin işçisi | Lənkəran |
| İ_54 | Tural Şiriyev | Kənd orta məktəb müəllimi | Lənkəran |
| İ_55 | Hacı Gani Sədi | Qafqaz Müsəlmanları İdarəsinin Lənkəran Nümayəndəsi, axund | Lənkəran |
| İ_56 | Sevinc Allahyarova | Bakı Dövlət Universiteti, Gender kafedrası | Bakı |
| İ_57 | Elnura Eynalova | Məktəb psixoloqu | Bakı |
| İ_58 | Aida Musayeva | Bakı Dövlət Universiteti, psixoloq | Bakı |
| İ_59 | Oksana Əzimova | Azərbaycan Gənc Hüquqşünaslar Birliyinin üzvü | Bakı |
| İ_60 | Əli Abbasov | Azərbaycan Milli Akademiyasının Fəlsəfə İnstitutu, şöbə müdiri, genderoloq, fəlsəfə elmləri doktoru | Bakı |
| İ_61 | Ülviyyə Mikayılova | Təhsildə İnnovasiya Mərkəzi | Bakı |
| İ_62 | Müşfiq Cəfərov | QHT "Gələcəyə körpü", sədr | Gəncə |
| İ_63 | Həqiqət Məmmədli | Qadın Hüquqları Müdafiə Mərkəzi | Bakı |
| İ_64 | Minaya Vəliyeva | Müəllim-psixoloq | Ağstafa |
| İ_65 | Yuliya Əliyeva | Gender problemləri üzrə mütəxəssis, sosioloq | Bakı |
| İ_66 | Səcidə Əbdulvağabova | Qadın Problemləri Araşdırma İnstitutu, direktor | Bakı |
| İ_67 | Ülviyyə Məmmədova | Beynəlxalq qadın proqramı əlaqələndiricisi, Açıq Cəmiyyət İnstitutu – Yardım Fondu/Azərbaycan | Bakı |
| İ_68 | Qəmər Cavadlı | Qafqaz Müsəlmanları Baş İdarəsi | Bakı |
| İ_69 | Rühəngiz Hüseynova | Qadınlar arasında həmrəylik QHT-si, sədr | Bakı |
| İ_70 | Aytəkin Əliyeva | Orta məktəb müəllimi | Bakı |
| İ_71 | Sevil Allahverdiyeva | Qadın Problemləri Araşdırma Mərkəzi | Bakı |

| # | Adı | İşlədiyi yer/ixtisası | Region |
|---|---|---|---|
| İ_72 | Rüstəm Ələsgərov | Həkim – ginekoloq | Bakı |
| İ_73 | Fidan Fərəcova | Qərb Universiteti nəzdində Gender Tədqiqatları Mərkəzi, fəlsəfə elmləri namizədi | Bakı |
| İ_74 | Dilarə Mehdi | Qadınların Vətəndaş Cəmiyyəti uğrunda Birliyi, sədr | Bakı |
| İ_75 | Rəna Tahirova | Avropa Şurası İnsan Hüquqları proqramı, milli trener | Bakı |
| İ_76 | Adilə xanım | Pirəkəşkül qəsəbəsi bələdiyyəsinin sədri | Abşeron |
| İ_77 | Brilyant xanım | Xırdalan məcburi köçkünlər icmasında fəaliyyət göstərən "Gənc Liderlər" klubunun rəhbəri | Abşeron |
| İ_78 | Əhməd Qəşəmoğlu | Azərbaycan Milli Elmlər Akademiyasının Fəlsəfə İnstitutu, Sosiologiya şöbəsi, fəlsəfə elmləri namizədi | Bakı |

## Mütəxəssislər üçün sorğu vərəqəsi

Hörmətli ___________________ !

Sizə bildirmək istəyirik ki, Azərbaycan Respublikasının Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsi və UNICEF "Azərbaycanda erkən nikahlar probleminin öyrənilməsi" adlı layihə həyata keçirir. Layihənin əsas məqsədi erkən nikahların qarşısının alınmasında səylərin gücləndirilməsidir. Layihə çərçivəsində mütəxəssis sorğusu keçirilir. Sizdən bu sorğuda iştirak etməyi xahiş edirik.

### I. Erkən nikahların yayılma dərəcəsi

1. Siz Azərbaycanda (Sizin rayonda) erkən nikahlar (18 yaşa qədər) hadisəsinin yayılma dərəcəsini bütövlükdə necə qiymətləndirərdiniz? Erkən nikahlar təxminən neçə faiz təşkil edir?
2. Son 5-6 ildə erkən nikahların sayının dəyişmə meyli necədir - bu göstərici artır, yoxsa azalır?
3. Sizin fikrinizcə bu hadisə hansı rayonlarda, regionlarda daha geniş yayılmışdır? Kənd yerlərində, yoxsa şəhərlərdə?

### II. Erkən nikahların səbəbləri:

4. Azərbaycanda (Sizin regionda) son illərdə erkən nikahların yayılmasının əsas səbəbləri və amilləri hansılardır (sosial, iqtisadi, mədəni-psixoloji amillər)?
5. Adətən erkən nikahlar praktikasına hansı ailələrdə yol verilir (ailənin iqtisadi vəziyyəti, sosial statusu, tərkibi, təhsil səviyyəsi, məşğuliyyət növü, dindarlıq)?
6. Sizin fikrinizcə, nə üçün bəzi valideynlər öz qızlarını tez ərə verməyə çalışırlar?
7. Bu hadisənin yayılmasında din amilinin rolu nədən ibarətdir?
8. Bu hadisənin yayılmasında milli və yerli ənənələr necə rol oynayır?
9. Erkən nikahların yayılmasında ailənin iqtisadi vəziyyəti necə rol oynayır?
10. Sadaladığınız səbəblərdən hansını əsas səbəb kimi ayırardınız?

### III. Qiymətləndirməyə münasibət

11. Siz erkən nikahların müsbət tərəflərini görürsünüzmü? Əgər görürsünüzsə, onlar nədən ibarətdir?
12. Siz erkən nikahların mənfi tərəflərini görürsünüzmü? Əgər görürsünüzsə, onlar nədən ibarətdir?
13. Sizin fikrinizcə, yerli əhali erkən nikahlara necə münasibət bəsləyir? Əhali bunu normal hal hesab edir, yoxsa pisləyir?
14. Yetkinlik yaşına çatmayan qızların qaçırılması hallarının yayılma dərəcəsini və əhatə dairəsini bütövlükdə necə qiymətləndirərdiniz? Bunun səbəblərini nədə görürsünüz?

### Modul 1. (Həkimlər üçün):

15. Erkən nikahlar onların iştirakçılarının ümumi və reproduktiv sağlamlığına və psixoloji vəziyyətinə necə təsir göstərir?
16. Bu cür nikahlar gənc ananın və onun övladının sağlamlığına necə təsir göstərir?
17. Gənc qızlar və oğlanlar nikahın intim tərəfi barədə nə dərəcədə məlumatlıdırlar?
18. Erkən nikahların qarşısının alınmasında, əhalinin erkən nikahların sağlamlıq üçün mənfi nəticələri barədə maarifləndirilməsində tibb müəssisələrinin rolu nədən ibarətdir?

### Modul 2. (Müəllimlər, məktəb psixoloqları, sosial işçilər üçün):

19. Sizin fikrinizcə, erkən yaşda nikaha daxil olmaq bu insanların təhsilini davam etdirməsinə və başa çatdırmasına necə təsir göstərir?
20. Erkən nikahlar peşə öyrənmək və işə düzəlmək imkanlarına necə təsir göstərir?
21. Məktəb öz şagirdlərinin erkən nikahın bağlaması halların adətən necə münasibət bildirir?
22. Məktəbli qızın valideynləri onu ərə verdikdə məktəb (direktor, müəllimlər) hər hansı tədbirlər görürmü (hansı tədbirlər)?
23. Siz erkən nikahların profilaktikasında və onların qarşısının alınmasında məktəbin rolunu necə qiymətləndirərdiniz?

### Modul 3. (Hüquqşünaslar üçün):

24. Bu sahədə qanunvericilik bazası nə vəziyyətdədir? Sizin fikrinizcə, erkən nikahlar ilə bağlı vəziyyəti yaxşılaşdırmaq üçün hansı qanunvericilik təşəbbüsləri göstərilməlidir?
25. İnsanlar nikah qanunvericiliyi, uşaq hüquqları və insan hüquqlarının müdafiəsi sahəsində mövcud qanunlar barədə nə dərəcədə məlumatlandırılmışlar?
26. Siz uşaqların müdafiəsi, erkən nikahlar praktikasının qarşısının alınması baxımından mövcud qanunvericilik bazasının hansı nöqsanlarını görürsünüz?
27. Siz öz təcrübənizdə erkən nikahların hansı hüquqi nəticələri ilə üzləşmisiniz?
28. Erkən nikahlar praktikasını minimuma endirmək üçün nə etmək lazımdır?

Modul 4. (Yerli icra hakimiyyəti, qeyri-hökumət təşkilatları və mütəxəssislər üçün):

29. Siz bu istiqamətdə müxtəlif dövlət və qeyri-dövlət təşkilatlarının fəaliyyətini necə qiymətləndirirsiniz?
30. Sizin fikrinizcə, dövlət strukturlarının və ictimai strukturların bu problemlə əlaqədar fəaliyyətinin üstün istiqamətləri nədən ibarət olmalıdır?
31. Bu sahədə vəziyyəti yaxşılaşdırmaq, onun pisləşməsinə yol verməmək üçün hansı konkret tədbirlər (proqramlar, layihələr) həyata keçirilə bilər və keçirilməlidir?
32. Yaxın və uzaq gələcəkdə bu sahədə vəziyyətin dəyişməsini necə proqnozlaşdırırsınız, onun inkişaf perspektivlərini necə qiymətləndirirsiniz?
33. Sosial siyasətdə mövcud problemlərə, böyüməkdə olan nəsil ilə işə, o cümlədən erkən nikahlar və erkən nikahlar problemlərinə dövlətin diqqətini necə artırmaq olar?

Modul 5. (Din xadimləri üçün):

34. Sizin fikrinizcə, yaşı 18-dən aşağı olan qızlarla nikah bağlamaq olarmı?
35. Ümumiyyətlə, din xadimlərinin erkən nikahlara münasibəti necədir?
36. Müsəlman adətlərinə görə, bu məsələyə münasibət necədir?

# Əlavə 3

## Ətraflı müsahibələr barədə məlumatlar

Ətraflı müsahibə erkən nikahlar iştirakçıları və ya onların valideynləri ilə keçirilmişdir. Bu müsahibələrin məqsədi erkən nikahlara daxil olanların sosial (təhsil, gəlir səviyyəsi, sosial status və s.) və psixoloji (şəxsi xüsusiyyətlər, ailədaxili münasibətlər, dəyərlər, rol və qavrama və s.) göstəricilərini daxil etməklə sosial və psixoloji portretinin yaradılması təşkil edirdi.

Cəmi 90 ətraflı müsahibə keçirilmişdir ki, bunların 51-i erkən nikahların iştirakçıları, 39-u isə onların valideynləri ilə baş tutmuşdur. Müsahibə götürülənlərin (respondentlərin) yaş və regionları göstərilməklə kodlaşdırılmış siyahısı aşağıda təqdim olunur.

Müsahibələr Bakı şəhərində, Abşeron, Lənkəran, Quba və Ağstafa rayonlarında keçirilmişdir. Respondentlərin tapılmasında göstərilən regionlarda keçirilən fokus qrup iştirakçılarının, həmçinin yerli sakinlər, məktəb əməkdaşları, yerli qeyri-hökumət təşkilatları və respondentlərin özlərinin verdikləri məlumatlardan istifadə olunmuşdur. Müsahibələr tam könüllülük və məxfilik əsasında aparılmışdır.

Müsahibədə iki kateqoriya respondentlər – erkən nikahların iştirakçıları və onların valideynləri üçün tərtib olunmuş yarımstrukturlaşdırılmış açıq suallardan ibarət sual kitabçasından istifadə olunmuşdur. Bununla yanaşı, anket elə tərtib olunmuşdur ki, nəticədə hər iki kateqoriya respondentlərdən alınmış məlumatların böyük hissəsini vahid məlumatlar bazasında birləşdirmək mümkün olsun.

Yerlərdə işləri yekunlaşdıqdan sonra bütün 90 müsahibənin transkripsiyası düzəldilmişdir ki, buradan da keyfiyyət məlumatlarının iki kompüter bazası tərtib edilmişdir, bunlardan biri erkən nikah iştirakçılarının, digəri isə valideynlərindir. Bəzi mümkün kəmiyyət təhlili almaq məqsədi ilə 4 seçilmiş regionda 90 erkən nikah hallarını əhatə edən məlumatların hər iki kateqoriyadan olan respondentlər üçün SPSS proqramında vahid bazası yaradılmış və müvafiq suallara olan cavabların kodlaşdırılması prosesi həyata keçirilmişdir. Əlbəttə, 90 hal tədqiq olunan halların seçilmiş regionlarda və bütövlükdə ölkənin əhatə olunmasını təmin edə bilməz. Bu mənada toplanmış kəmiyyət məlumatlarının təhlili Azərbaycanda erkən nikahların səbəblərini, yayılma dərəcəsini və nəticələrini izah etməsi üçün özündə kifayət qədər əhəmiyyət daşımır. Hərçənd, biz əminik ki, belə təhlil keyfiyyət təhlili ilə birgə tədqiqat nəticələrini daha etibarlı və əsaslandırılmış etməyə imkan verir.

### Erkən nikah iştirakçıları olan qızların valideyn ailələrinin sosial-demoqrafik xarakteristikası

Ətraflı müsahibə vasitəsilə əldə olunmuş 90 erkən nikah halları seçilmiş regionlar üzrə aşağıdakı şəkildə paylanmışdır:

### Cədvəl 10. Region

| | Say | Faiz |
|---|---|---|
| Quba | 15 | 16,7 |
| Ağstafa | 10 | 11,1 |
| Lənkəran | 25 | 27,8 |
| Bakı-Abşeron | 40 | 44,4 |
| Cəmi | 90 | 100,0 |

Erkən nikaha daxil olan qadınların ailələrinin yaşayış məntəqəsinin tipləri üzrə tədqiq olunanlar aşağıdakı qaydada paylanmışdır:

### Cədvəl 11. Yaşayış məntəqəsinin tipi

| | Say | Faiz |
|---|---|---|
| Şəhər | 26 | 28,9 |
| Kənd | 31 | 34,4 |
| Qəsəbə | 33 | 36,7 |
| Cəmi | 90 | 100,0 |

Əlavə olaraq, erkən nikah fenomeninin Azərbaycanın məcburi köçkün kateqoriyasından olan əhalisi üçün nisbi məlumat toplamaq məqsədi ilə Bakı-Abşeron zonasında məcburi köçkün ailələri ilə 12 müsahibə keçirilmişdir.

Tədqiqatın məqsədli regionları etnik azlıqların sıx yaşadıqları yerləri əhatə etdiyindən, 15 erkən nikah halının tədqiqi zamanı qadınların valideynlərindən biri və ya hər ikisi etnik azlıq nümayəndəsidir. Bunlardan 6-nın hər iki valideyni talış, 2-nin ləzgi, 2-nin buduqdur. Digər 5 halda qarışıq ailələrdən olan qızlarla müsahibə keçirilib.

12 və 13 saylı cədvəllər tədqiq olunan erkən nikaha daxil olan qadınların valideynlərinin təhsil səviyyəsini göstərir:

### Cədvəl 12. Ananın təhsili

| | Say | Faiz |
|---|---|---|
| Ortadan aşağı | 18 | 20,0 |
| Ümumi orta | 63 | 70,0 |
| Orta ixtisas | 3 | 3,3 |
| Ali | 6 | 6,7 |
| Cəmi | 90 | 100,0 |

Qrafik A:
Ananın təhsili




Məlumatlar 488 respondentin sorğusu əsasındadır

Cədvəl 13. Atanın təhsili

| | Say | Faiz |
|---|---|---|
| Ortadan aşağı | 13 | 14,4 |
| Ümumi orta | 54 | 60,0 |
| Orta ixtisas | 5 | 5,6 |
| Ali | 18 | 20,0 |
| Cəmi | 90 | 100,0 |

14 saylı cədvəl erkən nikaha daxil olan qadınların nikaha daxil olduqları zaman ailələrinin iqtisadi vəziyyətini nümayiş etdirir:

Qrafik B: Atanın təhsili




Məlumatlar 488 respondentin sorğusu əsasındadır

**Cədvəl 14. Qızın valideyn ailələsinin maddi vəziyyəti**

| | Say | Faiz |
|---|---|---|
| Pis | 26 | 28,9 |
| Orta | 52 | 57,8 |
| Yaxşı | 12 | 13,3 |
| Cəmi | 90 | 100,0 |

15 saylı cədvəl tədqiq olunmuş erkən nikah hallarının müxtəlif sayda uşaqları olan ailələr üzrə bölgüsünü göstərir:

Cədvəl 15. Valideyn ailələrində uşaqların sayı

| Uşaqların sayı | Say | Faiz |
|---|---|---|
| 1 | 1 | 1,1 |
| 2 | 16 | 17,8 |
| 3 | 29 | 32,2 |
| 4 | 24 | 26,7 |
| 5 | 7 | 7,8 |
| 6 | 5 | 5,6 |
| 7 | 4 | 4,4 |
| 8 | 4 | 4,4 |
| Cəmi | 90 | 100,0 |

16 saylı cədvəl tədqiq olunmuş halların baş vermə zamanına görə bölgüsünü göstərir. Cədvəldən görünür ki, tədqiq olunmuş 11 hal 1972-ci ildən 1991-ci ilədək olan dövrə, yəni sovet dövrünə aiddir.

Cədvəl 16. Tədqiq olunmuş erkən nikahların baş vermə zamanına görə bölgüsü

| | Say | Faiz |
|---|---|---|
| 1972 - 1991 | 11 | 12,2 |
| 1992 - 1996 | 11 | 12,2 |
| 1997 - 2000 | 15 | 16,7 |
| 2001 - 2004 | 31 | 34,4 |
| 2005 - 2007 | 22 | 24,4 |
| Cəmi | 90 | 100,0 |

Nəhayət, 17 saylı cədvəl tədqiq olunan erkən nikah hallarında nikaha girən zaman qızların yaş həddinin bölgüsünü göstərir.

Cədvəl 17. Tədqiq olunmuş erkən nikah hallarında nikaha girən zaman qızların yaş həddi üzrə bölgüsü

| Yaşı | Say | Faiz |
|---|---|---|
| 14 | 3 | 3,3 |
| 15 | 10 | 11,1 |
| 16 | 49 | 54,4 |
| 17 | 28 | 31,1 |
| Cəmi | 90 | 100,0 |

Cədvəl 18. Ətraflı müsahibələrdə respondentlərin siyahısı

| # | Müsahibənin kodu (P = valideyn, V = qızın özü) | Respondentin yaşı | Respondentin yaşayış yeri |
|---|---|---|---|
| 1 | P1 | 35 yaş | Ağstafa, Poylu kəndi |
| 2 | P2 | 50 yaş | Quba |
| 3 | P3 | 45 yaş | Quba |
| 4 | P4 | 55 yaş | Quba, 1-ci Nügədi kəndi |
| 5 | P5 | 50 yaş, İradə | Ağstafa |
| 6 | P6 | 42 yaş, Ziba | Abşeron, Pirəkeşkül qəsəbəsi |
| 7 | P7 | 45 yaş | Ağstafa |
| 8 | P8 | 43 yaş | Lənkəran |
| 9 | P9 | 36 yaş | Ağstafa, Poylu kəndi |
| 10 | P10 | 46 yaş | Məştağa qəsəbəsi |
| 11 | V1 | 22 yaş | Quba, Mizəmməd kəndi |
| 12 | V2 | 16 yaş | Quba, 1-ci Nügədi kəndi |
| 13 | V3 | 18 yaş | Quba |
| 14 | V4 | 23 yaş | Quba, 1-ci Nügədi kəndi |
| 15 | V5 | 17 yaş | Quba, 1-ci Nügədi kəndi |
| 16 | V6 | 16 yaş | Quba |
| 17 | V7 | 16 yaş | Quba, Zərdabi kəndi |
| 18 | V8 | 21 yaş | Quba, Zərdabi kəndi |
| 19 | V9 | 28 yaş | Quba, Yenikənd kəndi |
| 20 | V10 | 23 yaş | Lənkəran |
| 21 | V11 | 24 yaş | Lənkəran |
| 22 | V12 | 20 yaş | Lənkəran |
| 23 | V13 | 22 yaş | Lənkəran, Siyavar kəndi |
| 24 | V14 | 19 yaş | Lənkəran, Girdani kəndi |
| 25 | V15 | 19 yaş | Lənkəran, Sutamurdov kəndi |
| 26 | V16 | 18 yaş | Lənkəran |
| 27 | V17 | 23 yaş | Lənkəran, Mamusta kəndi |
| 28 | V18 | 29 yaş, Gülbəniz | Lənkəran, Daştalıcar kəndi |
| 29 | V19 | 30 yaş, Nigar | Lənkəran |
| 30 | V20 | 28 yaş, Samirə | Lənkəran |
| 31 | V21 | 27 yaş, Fatimə | Lənkəran |
| 32 | V22 | 19 yaş | Nardaran qəsəbəsi |
| 33 | V23 | 20 yaş | Nardaran qəsəbəsi |
| 34 | V24 | 38 yaş | Nardaran qəsəbəsi |
| 35 | V25 | 26 yaş, Günay | Bakı |
| 36 | V26 | 52 yaş, Cəmilə | Bakı |
| 37 | V27 | 22 yaş, Məktəbdə kargüzar | Abşeron, Pirəkeşkül qəsəbəsi |

| # | Müsahibənin kodu (P = valideyn, V = qızın özü) | Respondentin yaşı | Respondentin yaşayış yeri |
|---|---|---|---|
| 38 | V28 | 18 yaş, Aynur | Ağstafa |
| 39 | V29 | 46 yaş, Cavidan | Ağstafa |
| 40 | V30 | 32 yaş, Sahilə | Ağstafa |
| 41 | V31 | 19 yaş, Sevda | Abşeron, Pirəkeşkül qəsəbəsi |
| 42 | V32 | 35 yaş, Məktəbdə katibə | Abşeron, Pirəkeşkül qəsəbəsi |
| 43 | V33 | 43 yaş, Bağdagül | Abşeron, Pirəkeşkül qəsəbəsi |
| 44 | V34 | 30 yaş, Bahar | Abşeron, Xırdalan qəsəbəsi |
| 45 | V35 | 22 yaş | Abşeron, Pirəkeşkül qəsəbəsi |
| 46 | V36 | 25 yaş | Quba |
| 47 | V37 | 18 yaş | Quba |
| 48 | V38 | 17 yaş | Lənkəran |
| 49 | V39 | 19 yaş | Ağstafa |
| 50 | V40 | 22 yaş | Lənkəran |
| 51 | V41 | 20 yaş | Quba, Zərdabi kəndi |
| 52 | V42 | 18 yaş | Lənkəran |
| 53 | P11 | 58 yaş | Ağstafa |
| 54 | V43 | 36 yaş, Sənubər | Bakı (dağlı məhləsi) |
| 55 | V44 | 23 yaş | Abşeron, Pirşağa qəsəbəsi |
| 56 | V45 | 36 yaş | Bakı |
| 57 | P12 | 43 yaş | Ağstafa |
| 58 | P13 | 39 yaş | Lənkəran |
| 59 | P14 | 42 yaş | Lənkəran |
| 60 | P15 | 46 yaş | Bakı |
| 61 | P16 | 52 yaş | Bakı |
| 62 | P17 | 55 yaş, Sara | Abşeron, Xırdalan qəsəbəsi |
| 63 | V46 | 42 yaş | Ağstafa |
| 64 | V47 | 26 yaş, Rəna | Nardaran qəsəbəsi |
| 65 | P18 | 52 yaş | Bakı |
| 66 | P19 | 52 yaş | Bakı |
| 67 | P20 | 57 yaş, Flora | Bakı |
| 68 | P21 | 42 yaş, Güldanə | Bakı |
| 69 | P22 | 47 yaş, Rəhilə | Abşeron, Pirəkeşkül qəsəbəsi |
| 70 | V48 | 26 yaş, Günel | Abşeron, Xırdalan qəsəbəsi |
| 71 | P23 | 42 yaş | Abşeron, Pirşağa qəsəbəsi |
| 72 | P24 | 49 yaş | Bakı |
| 73 | P25 | 44 yaş, Taxmira | Lənkəran |
| 74 | P26 | 47 yaş, Qənirə | Lənkəran, Sutamurdov kəndi |
| 75 | P27 | 45 yaş, Səmayə | Lənkəran, Liman qəsəbəsi |
| 76 | P28 | 53 yaş, Dilarə | Lənkəran, Mamusta kəndi |

| # | Müsahibənin kodu (P = valideyn, V = qızın özü) | Respondentin yaşı | Respondentin yaşayış yeri |
|---|---|---|---|
| 77 | P29 | 49 yaş, Tubnisa | Lənkəran, Siyavar kəndi |
| 78 | P30 | 49 yaş, Nezmiyyə | Lənkəran, Girdani kəndi |
| 79 | P31 | 42 yaş, Kifayət | Abşeron, Xırdalan qəsəbəsi |
| 80 | P32 | 50 yaş, Nailə | Abşeron, Xırdalan qəsəbəsi |
| 81 | P33 | 45 yaş, Lena | Bakı |
| 82 | V49 | 32 yaş | Nardaran qəsəbəsi |
| 83 | V50 | 17 yaş | Nardaran qəsəbəsi |
| 84 | P34 | 51 yaş | Nardaran qəsəbəsi |
| 85 | P35 (nənəsi) | 75 yaş | Nardaran qəsəbəsi |
| 86 | P36 | 59 yaş | Nardaran qəsəbəsi |
| 87 | P37 | 46 yaş | Nardaran qəsəbəsi |
| 88 | P38 | 38 yaş | Nardaran qəsəbəsi |
| 89 | P39 | 50 yaş, Güldanə | Binəqədi qəsəbəsi |
| 90 | V51 | 18 yaş | Lənkəran |

## Erkən nikahların iştirakçıları olan qadınlarla ətraflı müsahibə üçün suallar

Azərbaycan Respublikasının Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin və UNICEF-in tapşırığı ilə biz Azərbaycanda erkən nikahlar problemini tədqiq edirik. Bu məqsədlə biz bu problemin qiymətləndirilməsində və başa düşülməsində bizə kömək edə biləcək müxtəlif insanlarla müsahibə aparırıq. Məndə Sizinlə müzakirə etmək istədiyim sualların siyahısı var. Lakin müsahibənin gedişində Siz yeni mövzular və Sizin fikrinizcə müzakirə edilən mövzuya aidiyyəti olan yeni məsələlər qaldıra bilərsiniz. Sizin icazənizlə, mən qeydlər aparacağam və bizim söhbətimizi diktofona yazacağam. Sizi əmin etmək istəyirəm ki, bu qeydlərə və yazılara baxmayaraq, bizim söhbətimiz tamamilə məxfi qalacaq və adınız kodlaşdırılacaq, Sizin razılığınız olmadan adınız çəkilməyəcəkdir. Xahiş edirəm, özünüzü tam sərbəst hiss edin.

### Əvvəlcə, özünüz və valideyn ailəniz barədə bir qədər məlumat verin:

1. Sizin neçə yaşınız var?
2. Siz harada anadan olmusunuz?
3. Sizin valideynləriniz harada anadan olub?
4. Valideynlərinizin təhsili hansı səviyyədə idi?
5. Onlar nə ilə məşğul olurdu?
6. Sizin valideynlərinizin milli mənsubiyyəti?
7. Sizin valideyn aileniz nə dərəcədə dindar idi?
8. Sizin valideyn ailənizdə milli və yerli adət-ənənələrə nə dərəcədə riayət olunurdu?
9. Valideynləriniz Sizə və Sizin bacı-qardaşlarınıza münasibətdə nə dərəcədə ciddi idilər?
10. Siz ərə gedənə qədər öz valideyn ailənizin maddi vəziyyətini necə qiymətləndirərdiniz?
11. Sizin neçə qardaşınız və neçə bacınız var? Hazırda onlar nə ilə məşğul olurlar?
12. Siz valideyn ailəsində ailədaxili zorakılıq halları ilə üzləşmisinizmi? Əgər üzləşmisinizsə, belə hallar hansı zəmində və necə baş verirdi?

13. Ailənin ən mühüm məsələləri barədə qərarı Sizin ailənizdə kim və necə qəbul edirdi (atanız, ananız, babanız, nənəniz, başqaları; təkbaşına, hər iki valideyn tərəfindən, bütün ailə tərəfindən, başqa cavab)?
14. Ərə gedənə qədər neçə il oxumusunuz? Ərə gedəndən sonra təhsilinizi davam etdirmisinizmi? Hazırda təhsilinizin səviyyəsi necədir?
15. Siz təhsilinizi davam etdirmək istərdinizmi? Əgər istəməzdinizsə, nə üçün?
16. Siz bu şəhərdə (kənddə) nə vaxtdan yaşayırsınız?
17. Hazırda Siz nə ilə məşğul olursunuz?
18. Siz hazırda öz maddi vəziyyətinizi necə qiymətləndirərdiniz?
19. Sizin neçə uşağınız var? Onların neçə yaşı var? Onların sağlamlığı və ya inkişafı ilə bağlı problemlər varmı? Əgər varsa, bu nədə təzahür edir?

Xahiş edirəm, Siz nikaha daxil olmağınızın şəraiti barədə bir qədər ətraflı məlumat verin:

20. Siz ərə gedəndə neçə yaşınız vardı?
21. Sizi erkən yaşda nikaha daxil olmağa nə sövq etmişdi? Bu, Sizin seçiminiz idimi? Valideynləriniz buna razı idimi? Onlar Sizə təzyiq göstərirdimi? Belə demək olarmı ki, Sizi ərə getməyə onlar məcbur etmişdi?
22. Sizin fikrinizcə, Sizi ərə vermək barədə qəti qərarı ailənizin üzvlərindən kim qəbul etmişdi?
23. Sizin fikrinizcə, valideynlərinizin (ailənizin yaşlı üzvlərinin) Sizi ərə vermək qərarının əsasını hansı motivlər təşkil edirdi (maddi vəziyyət, köhnə adət və ənənələr, kənardan kiminsə təsiri, başqa səbəb)?
24. Sizin ərə getməyinizdə başqa qohumların, qonşuların, rəfiqələrinizin, tanışlarınızın rolu nədən ibarət olmuşdur? Onlar Sizin nikahınızı necə qəbul etdilər (alqışladılar, pislədilər, bitərəf qaldılar)?
25. Siz nikaha daxil olan dövrdə ərinizin (onun valideyn ailəsinin) maddi vəziyyətini necə qiymətləndirirdiniz? Onun valideynləri nəçi idi?
26. Siz nikah bağlayan dövrdə əriniz nəçi idi? Onun hansı təhsili var idi? Onun neçə yaşı var idi?
27. Sizin nikahınız VVAQD idarəsində bağlanmışdı, yoxsa kəbin əsasında?
28. Ərə getməyinizdən daha ətraflı danışa bilərsinizmi?

İndi isə Sizin hazırkı ailə vəziyyətiniz barədə:

29. Siz hazırda həmin insanla rəsmi nikahdasınızmı?

Müsahibəçi üçün: Əgər respondent həmin şəxslə rəsmi nikahdadırsa, 30-33-cü sualları ver və bu suallardan sonra 41-ci suala keç. Əgər respondent ərindən boşanmışdırsa, 34-cü suala keç.

30. Əgər belədirsə, Sizin əriniz hazırda nə ilə məşğul olur? Siz birlikdə yaşayırsınız, yoxsa o başqa şəhərdə (ölkədə) yaşayır və işləyir? Əgər o, Sizdən ayrı yaşayırsa, nə vaxtdan köçüb gedib və öz ailəsinə nə dərəcədə tez-tez baş çəkir? O, Sizə maddi kömək edirmi?
31. Ərinizin valideynləri (əgər onlar sağdırsa) Sizinlə birgə yaşayırlar, yoxsa ayrı? Onların Sizə və uşaqlarınıza münasibəti necədir? Sizə hər hansı şəkildə kömək edirlərmi?
32. Siz öz nikahınızdan və öz ailənizdən razısınızmı? Belə demək olarmı ki, Siz öz ərinizi sevirsiniz və ailə həyatında xoşbəxtsiniz?
33. Ailə həyatınız haqqında daha ətraflı danışa bilərsinizmi?
34. Əgər Siz ərinizdən boşanmısınızsa, bu hadisə nə vaxt olub? Sizin boşanmağınızın səbəbi nədir? Boşanma təşəbbüsünü kim irəli sürmüşdür?
35. Boşanandan sonra Siz harada və kiminlə yaşayırsınız?
36. Siz boşanandan sonra uşaqlarınız kiminlə yaşayır? Sizin keçmiş əriniz Sizə və uşaqlarınıza maddi kömək edirmi? O, uşaqlarınızın tərbiyəsində və yaranan problemlərin həllində iştirak edirmi? Onun valideynləri Sizə kömək edirmi?
37. Sizin keçmiş əriniz indi harada yaşayır? Əgər başqa şəhərdə (ölkədə) yaşayırsa, oraya nə vaxt köçüb gedib? Onun yeni ailəsi varmı?
38. İndiki həyatınız haqqında daha ətraflı danışa bilərsinizmi?
39. Ərinizdən boşandığınıza görə təəssüflənirsinizmi? Əgər belədirsə, nə üçün?
40. Siz yenidən ərə getmək istərdinizmi? Əgər istərdinizsə, Sizin fikrinizcə, bu nə dərəcədə realdır? Əgər istəmirsinizsə, nə üçün bunu istəmirsiniz?

**Nəhayət, erkən nikahlar barədə Sizin fikriniz mənim üçün maraqlıdır:**

41. Sizin fikrinizcə, nə üçün bəzi valideynlər öz qızlarını mümkün qədər tez ərə verməyə çalışırlar?
42. Sizin şəhərdə (kənddə) erkən nikahlar nə dərəcədə yayılmışdır və yerli adamların buna münasibəti necədir?
43. Erkən yaşda nikah bağladığınıza görə təəssüflənirsinizmi? Əgər belədirsə, nə üçün? Əgər belə deyilsə, nə üçün?

## Erkən nikahların iştirakçısı olan qadınların valideynləri ilə ətraflı müsahibə üçün suallar

Azərbaycan Respublikasının Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin və UNICEF-in tapşırığı ilə biz Azərbaycanda erkən nikahları problemini tədqiq edirik. Bu məqsədlə biz bu problemin qiymətləndirilməsində və başa düşülməsində bizə kömək edə biləcək müxtəlif insanlarla müsahibə aparırıq. Məndə Sizinlə müzakirə etmək istədiyim sualların siyahısı var. Lakin müsahibənin gedişində Siz yeni mövzular və Sizin fikrinizcə müzakirə edilən mövzuya aidiyyatı olan yeni məsələlər qaldıra bilərsiniz. Sizin icazənizlə, mən qeydlər aparacağam və bizim söhbətimizi diktofona yazacağam. Sizi əmin etmək istəyirəm ki, bu qeydlərə və yazılara baxmayaraq, bizim söhbətimiz tamamilə məxfi qalacaq və adınız kodlaşdırılacaq, Sizin razılığınız olmadan adınız çəkilməyəcəkdir. Xahiş edirəm, özünüzü tam sərbəst hiss edin.

**Əvvəlcə, özünüz və ailəniz barədə bir qədər məlumat verin:**

1. Siz bu şəhərdə (kənddə) nə vaxtdan yaşayırsınız? Siz harada anadan olmusunuz?
2. Sizin neçə yaşınız var?
3. Əriniz (arvadınız) bu şəhərdə (kənddə) nə vaxtdan yaşayır? O, harada anadan olmuşdur?
4. Onun neçə yaşı var?
5. Siz neçənci ildən evlisiniz?
6. Sizin və həyat yoldaşınızın təhsili.

7. Siz və həyat yoldaşınız harada və hansı vəzifədə işləyirsiniz?
8. Sizin fikrinizcə, Sizin ailənin maddi vəziyyəti son 5-6 ildə necə dəyişmişdir?
9. Sizin və həyat yoldaşınızın milli mənsubiyyəti.
10. Siz özünüz və aileniz nə dərəcədə dindardır? Siz və ailənizin üzvləri dini mərasimlərə nə dərəcədə riayət edirsiniz?
11. Sizin ailədə milli və yerli adət-ənənələrə hansı dərəcədə riayət edilir?
12. Sizin ailədə mühüm məsələlər barədə qərarlar kim tərəfindən və necə qəbul edilir (Sizin özünüz, həyat yoldaşınız, Sizin (həyat yoldaşınızın) valideynləri və başqaları; təkbaşına; hər iki valideyn tərəfindən, bütün ailə tərəfindən, başqa cavab).
13. Sizin ailədə uşaqların necə tərbiyə edilməsi barədə bir qədər ətraflı danışın. Siz və əriniz (arvadınız) uşaqlarınıza münasibətdə nə dərəcədə tələbkar idiniz?
14. Sizin ailədə valideynlərlə uşaqlar arasında, uşaqlar, onların tərbiyəsi, təhsili, evlənməsi və başqa məsələlər barədə valideynlərin arasında münaqişələr olurdumu və nə dərəcədə tez-tez olurdu? Əgər belə hallar olurdusa, bu barədə bir qədər ətraflı danışın. Sizin fikrinizcə, bu münaqişələrin əsası nədən ibarət idi? Kim haqlı, kim haqsız idi? Bu münaqişələr necə həll edilirdi? Belə hallarda valideynlər tərəfindən uşaqlar üzərində zorakılıq faktları olurdumu? Konkret misallar göstərə bilərdinizmi?
15. Sizin neçə uşağınız var? Onların barəsində bir qədər ətraflı danışın: onların cinsi, yaşı, təhsili barədə məlumat verin. Hazırda onlar harada və kiminlə yaşayırlar? Onların ailə vəziyyəti necədir? Hazırda onlar nə ilə məşğuldurlar? Əgər işləyirlərsə, harada və hansı vəzifədə çalışırlar?

**Xahiş edirəm, qızınızın nikaha daxil olması şəraiti barədə bir qədər ətraflı məlumat verin:**

16. Qızınız ərə gedəndə neçə yaşı vardı?
17. O, ərə gedənə qədər neçə il oxumuşdur? Ərə gedənə qədər onun hansı təhsili var idi?
18. Qızınızın bu qədər erkən yaşda nikah bağlamasına onu sövq edən nə olmuşdur? Bu, onun seçimi idimi? Bu nikaha Sizin və ərinizin (arvadınızın) münasibəti necə idi? Qızınızın nikahına razı idinizmi? Siz onu bu yoldan döndərməyə və ya onun ərə getməsi, yaxud əksinə, nikaha daxil olmaqdan imtina etməsi üçün ona bir yolla təzyiq göstərməli olmuşdunuzmu? Əgər belədirsə, Siz bunu hansı səbəblərə və hansı mülahizələrə əsasən edirdiniz? Bu barədə bir qədər ətraflı danışın.
19. Qızınızı ərə vermək barədə son qərarı Sizin ailə üzvlərindən kim qəbul etmişdi? Qızınızı ərə vermək qərarının əsasını hansı motivlər təşkil etdiyini deyə bilərsinizmi (maddi vəziyyət, adət və ənənələr, qızınızın gələcəyini təmin etmək və onun gələcəyi üçün arxayın olmaq arzusu, başqa motivlər)?
20. Qızınızın ərə getməsində başqa qohumların, qonşuların, onun rəfiqələrinin, tanışlarının rolu nədən ibarət olmuşdur? Sizin fikrinizcə onlar qızınızın nikahını necə qarşılamışdırlar (alqışlamışdılar, pisləmişdirlər, bitərəf idilər)?
21. Siz qızınızın nikah bağladığı dövrdə qızınızın ərinin və onun valideynlərinin maddi vəziyyətini necə qiymətləndirirdiniz?

**Onun valideynləri nəçi idi?**

22. Sizin qızınızın gələcək ərinin özü onlar nikah bağlayan dövrdə nəçi idi? Onun hansı təhsili vardı? Onun neçə yaşı vardı?
23. Onların nikahı VVADQ idarəsində bağlanmışdır, yoxsa kəbin əsasında?

**İndi isə qızınızın hazırkı ailə vəziyyəti barədə:**

24. Sizin qızınızın neçə uşağı var? Onların neçə yaşı var?
25. Sizin qızınız hazırda həmin şəxslə rəsmi nikahdadırmı?

Müsahibəçi üçün: Əgər respondentin qızı həmin şəxslə rəsmi nikahdadırsa, 26-29-cu sualları ver və bu suallardan sonra 37-ci suala keç. Əgər respondentin qızı ərindən boşanmışdırsa, 30-cu suala keç.

26. Əgər belədirsə, onun əri hazırda nə ilə məşğul olur? Onlar birlikdə yaşayır, yoxsa o, başqa şəhərdə (ölkədə) yaşayır və işləyir? Əgər onlar ayrı yaşayırsa, əri haçan gedib və öz ailəsinə tez-tez baş çəkirmi? O, ailəsinə maddi kömək edirmi?
27. Qızınızın ərinin valideynləri (əgər onlar sağdırsa) onlarla birgə yaşayır, yoxsa ayrı? Onlar Sizin qızınıza və onun uşaqlarına necə münasibət bəsləyirlər? Onlara hər hansı şəkildə kömək edirlərmi?
28. Sizin qızınız öz nikahından, öz ailə həyatından razıdırmı? Onun ailə həyatında xoşbəxt olduğunu demək olarmı?
29. Qızınız ərə gedəndən sonra təhsilini davam etdirə bilmişdirmi?
30. Əgər qızınız ərindən boşanmışdırsa, bu hadisə nə vaxt olmuşdur? Onların boşanmasına nə səbəb olmuşdur? Boşanmanın təşəbbüsçüsü kim olmuşdur?
31. Qızınız boşanandan sonra harada və kiminlə yaşayır? Qızınız boşanandan sonra onun uşaqları kiminlə yaşayır?
32. Sizin qızınızın keçmiş əri ona və uşaqlarına maddi kömək edirmi? O, uşaqların tərbiyəsində və yaranan problemlərin həllində iştirak edirmi? Onun valideynləri qızınıza və onun uşaqlarına kömək edirmi? Qızınızın Sizin köməyinizə ehtiyacı varmı? Əgər varsa, Siz və əriniz (arvadınız) qızınıza və onun uşaqlarına hər hansı şəkildə kömək edirsinizmi?
33. Sizin qızınızın keçmiş əri indi harada yaşayır? Əgər başqa şəhərdə (ölkədə) yaşayırsa, o, nə vaxt oraya köçmüşdür? Onun təzə ailəsi varmı?
34. Sizin fikrinizcə, qızınız ərindən boşandığına görə təəssüflənirmi? Əgər belədirsə, nə üçün?
35. Sizin fikrinizcə, qızınız təzədən ərə getmək istərdimi? Əgər belədirsə, Sizin fikrinizcə bu, nə dərəcə realdır? Əgər belə deyilsə, qızınız nə üçün yenidən ərə getməyə hazırlaşmır?
36. Siz (həyat yoldaşınız) istərdinizmi ki, qızınız yenidən ərə getsin?

**Nəhayət, erkən nikahlar barəsində Sizin fikrinizi bilmək istərdim:**

37. Sizin fikrinizcə, nə üçün bəzi valideynlər öz qızlarını mümkün qədər tez ərə verməyə çalışırlar?
38. Sizin şəhərdə (kənddə) erkən nikahlar nə dərəcədə yayılmışdır və yerli adamların buna münasibəti necədir?
39. Qızınızın erkən yaşda ərə getməsinə görə təəssüflənirsinizmi? Əgər belədirsə, nə üçün? Əgər belə deyildirsə, nə üçün?

# Əlavə 4

## Xüsusi terminlər və anlayışlar

**Fokus qrupu** - spesifik məsələlər, problemlər və ya tədqiqat suallarının toplusunu müzakirə edən bir qrup şəxsin iştirakı ilə aparılan unikal metodlu keyfiyyət tədqiqatı.

**Q.F.Q. 13-15. Lənkəran** – Lənkəran şəhərindən olan 13-15 yaşlı qadınların iştirak etdiyi fokus qrupu.

**K.F.Q. 40-55. Abşeron** – Abşerondan olan 40-55 yaşlı qadınların iştirak etdiyi fokus qrupu.

**Yarımstrukturlaşdırılmış müsahibə** - qabaqcadan müəyyən edilmiş suallar və ya mövzular çeşidini özündə birləşdirən, lakin respondentə yeni mövzular açmaq və ya müvafiq mövzuları genişləndirmək üçün kifayət qədər çevik olan müsahibə.

**Təfsilatlı müsahibə** – müvafiq məsələlər üzrə respondentə təfsilatlı şəkildə danışmaq imkanı verən azad şəkildə strukturlaşdırılmış müsahibə.

**Trianqulyasiya** – keyfiyyət tədqiqatının etibarlılığını təmin etmək üçün müxtəlif məlumatların toplanması və təhlili üsullarından istifadə edilməsi

# Əlavə 5

## Qrafiklərin Siyahısı

### Hesabat

Qrafik 1: 15-17 yaşlı anaların 1995-2006-cı illərdəki diri doğuşlarının sayı
Qrafik 2: Sizcə erkən nikahlar Sizin bölgədə daha geniş yayılmağa başlayır?
Qrafik 3: Cəmiyyətdə erkən nikahların qavranışı
Qrafik 4: Cəmiyyətdə erkən nikahların mənfi qavranışı
Qrafik 5: Bu nikah gəlin qaçırılması nəticəsində olmuşdurmu?
Qrafik 6: Valideynlər erkən nikaha razılıq vermişlərmi?
Qrafik 7: Qız bu nikaha azad şəkildə razılıq vermişdirmi?
Qrafik 8: Qızın nikaha daxil olması üzrə son qərarın verilməsində hansı ailə üzvləri məsuliyyət daşıyır?
Qrafik 9: Qızların ərə verilməsində valideynlərin motivasiyaları
Qrafik 10: Oğlanın (bəyin) ailəsinin iqtisadi durumu
Qrafik 11: Azərbaycanda Körpə Ölümü Əmsalı (2000-2007)
Qrafik 12: Azərbaycanda Ana Ölümü Əmsalı (2000-2007)
Qrafik 13: Qızlar nikaha daxil olduqdan sonra təhsillərini davam etdirirlərmi?
Qrafik 14: Nikaha daxil olduğu zaman qadınların və kişilərin təhsil səviyyəsi
Qrafik 15: Qərar qəbul edilməsində qadınların iştirakı
Qrafik 16: Qadınların qərar qəbul edilməsində iştirakı baxımından reproduktiv sağlamlıq
Qrafik 17: Qadınlara ərləri tərəfindən nəzarət edilmə dərəcəsi
Qrafik 18: Xüsusi səbəblərə görə ərin arvadını vurmasına və ya döyməsinə əsası olduğu ilə razılaşan respondentlərin faizi
Qrafik 19: Erkən nikahlarda boşanma hallarının tezliyi barədə fikirlər

### Əlavələr

Qrafik I: Uşaq ikən ərə verilən qızların analarının təhsil səviyyəsi
Qrafik II: Uşaq ikən ərə verilən qızların atalarının təhsil səviyyəsi